RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 6 (10026) 13 yanvar 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Bir gün də yubanma olmamalıdır!

## Prezident İlham Əliyev yeni dövlət proqramının icrasına hərtərəfli nəzarətin tam təmin ediləcəyini bildirdi



Yanvarın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramına həsr olunan müşavirə keçirilib. AZƏRTAC xəbər verir ki, müşavirədə dövlətimizin başçısı çıxış edib.

2-3

## "Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemləri infrastrukturunun təkmilləşdirilməsi məqsədilə **qərara alıram:**

1. "Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı sularıı sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üçün Dövlət Proqramı" (bundan sonra - Dövlət Proqramı) təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini əlaqələndirsin və icrasına nəzarət etsin;

2.2. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

4. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilmə mexanizmlərinə uyğun olaraq, hər il Azərbaycan Respublikası dövlət büdcəsinin və dövlət investisiya proqramlarının tərtibi prosesində zəruri maliyyə vəsaitinin nəzərdə tutulması, eləcə də digər mənbələrdən vəsaitlərin cəlb edilməsi istiqamətində müvafiq tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 yanvar 2026-cı il*

## Abşeron: altı "qara qızıl", üstü "yaşıl enerji"

### İlham ƏLİYEV: "...bundan sonrakı illərdə bərpaolunan enerji stansiyalarının Azərbaycanda tikintisi çox geniş vüsət alacaq"



Bu mənada stansiyanın iki gün öncə Prezident İlham Əliyevin iştirakı ilə "Gülüstan" sarayında baş tutan açılış mərasimini Azərbaycanın bərpaolunan enerji sahəsində atdığı ardıcıl və məqsədyönlü addımların növbəti nümayişi kimi qiymətləndirmək olar. Stansiyanın istismara verilməsi ölkənin enerji balansında "yaşıl enerji"nin payının artmasına və ətraf mühitə mənfi təsirlərin azalmasına böyük təsir göstərəcək. Layihə Azərbaycanın dayanıqlı inkişaf hədəflərinə uyğun olaraq uzunmüddətli iqtisadi və ekoloji faydalar təmin etməyi nəzərdə tutur.

Məlumat üçün bildirək ki, dünyanın ən böyük duzsuzlaşdırılmış su təchizatçısı olan "ACWA Power" şirkəti "yaşıl hidrogen" sənayesində novator və qlobal enerji keçidi üzrə liderdir. 2004-cü ildə Ər-Riyad şəhərində təsis edilmiş şirkət indiyəcən 4000-dən çox insanı işlə təmin edib. Hazırda şirkət Yaxın Şərq, Afrika, Mərkəzi Asiya və Cənub-Şərqi Asiyanın 143 ölkəsində fəaliyyət göstərir. Öz strategiyalarını BMT-nin iqlim hədəflərinə uyğunlaşdıran "ACWA Power" su resurslarından rasional istifadəni təmin etmək və ətraf mühitə təsiri minimuma endirmək üçün qlobal səviyyədə bərpaolunan enerji layihələrini həyata keçirir. Hətta Özbəkistanda şirkətə məxsus kollec fəaliyyət göstərir. Təhsil müəssisəsi sırf "yaşıl enerji" üzrə ixtisaslı mütəxəssislər hazırlayır.

6

## Azərbaycan beynəlxalq sərmayələr üçün etibarlı və strateji məkandır

### Regionda sülh mühiti formalaşdırması respublikamızın investisiya cəlbediciliyini daha da gücləndirib



Prezident İlham Əliyevin ötən il Vaşinqtona etdiyi tarixi səfər çərçivəsində "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında strateji tərəfdaşlığa dair xartiyanın inkişaf etdirilməsi məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" imzalanıb. Azərbaycan-ABŞ strateji tərəfdaşlığı - enerji, ticarət və tranzitin də daxil olduğu regional bağlantılar, süni intellekt və rəqəmsal infrastrukturun da daxil olduğu iqtisadi sərmayə, müdafiə sahəsində satış, terrorizmə qarşı mübarizənin də daxil olduğu təhlükəsizlik sahəsində əməkdaşlıq kimi istiqamətləri əhatə edir.

Yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsi zamanı ölkəmizin başçısı söylədi ki, keçən ilin avqustunda Vaşinqtonda paraflanmış sülh sazişi, əlbəttə ki, investisiyalar üçün, xüsusilə Amerika Birləşmiş Ştatlarından gələn investisiyalardan danışdıqda böyük imkanlar açır: "Biz bunun üzərində fəal işləyirik. Eyni zamanda Azərbaycanın Birləşmiş Ştatlara yatırdığı investisiyaların artıq müəyyən tarixi var. Biz, əsasən, qiymətli kağızlara investisiya yatırmışdıq. Lakin indi, iki ölkə arasında olan münasibətlərin bu yeni mərhələsindən sonra biz real iqtisadiyyatın layihələrinə investisiya yatırmaq üçün müxtəlif seçimləri nəzərdən keçiririk".

6

## Böyük qayıdış bu il də sürətlə davam edəcək



İşğaldan azad edilmiş bölgələrin inkişafı ölkənin ümumi iqtisadi strategiyasının ayrılmaz hissəsidir. Qarabağ və Şərqi Zəngəzurun iqtisadi potensialının dövriyyəyə cəlb edilməsi üçün kənd təsərrüfatı sahəsində geniş imkanlar yaradılır. Tarixi ənənələrə əsaslanan üzümçülük, pambıqçılıq, tütünçülük, bağçılıq və heyvandarlıq sahələri yenidən dirçəldilir. Eyni zamanda sənaye zonalarının yaradılması, logistika mərkəzlərinin qurulması və nəqliyyat imkanlarının genişləndirilməsi regionu strateji iqtisadi məkana çevirir. Bu yanaşma ölkədə balanslı və dayanıqlı iqtisadi inkişaf modelinin möhkəmlənməsinə xidmət edir.

Bütün bu proseslərin mərkəzində isə "Böyük qayıdış" proqramı dayanır. Bu proqram yalnız fiziki infrastrukturun qurulmasını deyil, insanların öz doğma torpaqlarına təhlükəsiz, mərhələli və ləyaqətli şəkildə qayıdışını təmin etməyi hədəfləyir. Prezidentin işğaldan azad edilmiş ərazilərə mütəmadi səfərləri, görülən işlərə şəxsən nəzarət etməsi və sakinlərlə birbaşa ünsiyyəti Böyük qayıdışın insanyönümlü siyasət olduğunu açıq şəkildə göstərir.

Qayıdış prosesi təkcə evlərin tikintisi ilə məhdudlaşmır. Köçürülən ailələr üçün təhsil, səhiyyə, sosial xidmətlər, məşğulluq imkanları və psixoloji adaptasiya mexanizmləri yaradılır. Bu yanaşma insanların uzunmüddətli perspektivdə bölgədə sabit və təhlükəsiz həyat qurmasına imkan verir. 2022-2026-cı illəri əhatə edən sosial-iqtisadi inkişaf Strategiyası və Böyük Qayıdışa dair Birinci Dövlət Proqramı məhz bu məqsədlərə xidmət edir və beş milli prioritet əsasında icra olunur.

Son illər Böyük qayıdış prosesində ciddi irəliləyişlər qeydə alınıb. Xüsusilə ötən il bu baxımdan mühüm mərhələ kimi yadda qalıb. 2025-ci ildə Qarabağ və Şərqi Zəngəzurda 22 yeni yaşayış məntəqəsinə - 2 şəhər, 3 qəsəbə və 17 kəndə köç prosesi həyata keçirilib. Yeni ilin ilk günlərində də bu proses davam etdirilib. Yanvarın 9-da Ağdərə rayonunun Aşağı Oratağ, Heyvalı, Çapar və Çıldıran kəndləri ilk sakinlərinə qovuşub. İlk mərhələdə Aşağı Oratağ kəndinə 31 ailə - 119 nəfər, Çapar kəndinə 26 ailə - 96 nəfər, Heyvalı kəndinə 19 ailə - 74 nəfər, Çıldıran kəndinə isə 13 ailə - 48 nəfər qayıdıb.

Hazırda respublikanın müxtəlif bölgələrində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış insanlar mərhələli şəkildə öz doğma yurdlarına köçürülür. Bu günədək 6554 ailə, 25754 nəfər artıq Qarabağ və Şərqi Zəngəzurda məskunlaşıb. Ümumilikdə 7 şəhər, 3 qəsəbə və 26 kənd sakinlərini qarşılayıb. 2027-ci ilədək isə 91 yaşayış məntəqəsinə 96 minə yaxın şəxsin qayıdışı planlaşdırılır. Böyük qayıdışın birinci mərhələsi tamamlanana qədər isə 140 min nəfərin - 34 min 500 ailənin köçürülməsi nəzərdə tutulur.

Bu irimiqyaslı proseslərin maliyyə təminatı da dövlət tərəfindən tam şəkildə həyata keçirilir. 2020-2026-cı illər ərzində işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulmasına 30,5 milyard manat vəsait ayrılıb. Belə ki, 2020-2025-ci illərdə bərpa işlərinə 22,3 milyard manat, o cümlədən 18,5 milyard manatı investisiya xərcləri olmaqla vəsait ayrılıb.

8

## Yol infrastrukturuna görə MDB-də 1-ci, dünyada 24-cü



9

# Bir gün də yubanma olmamalıdır!

## Prezident İlham Əliyev yeni dövlət proqramının icrasına hərtərəfli nəzarətin tam təmin ediləcəyini bildirdi

**Yanvarın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramına həsr olunan müşavirə keçirilib. AZƏRTAC xəbər verir ki, müşavirədə dövlətimizin başçısı çıxış edib.**



### Prezident İlham Əliyevin çıxışı

- Bu gün biz Bakı şəhərinin və Abşeron yarımadasının su problemlərinin həlli məsələlərini müzakirə edəcəyik. Bu, həyata keçirilən infrastruktur layihələri arasında xüsusi yer tutan məsələdir. Bildiyiniz kimi, ölkəmizdə son illər ərzində genişmiqyaslı infrastruktur layihələri icra edilmişdir, həm Bakıda, həm bütün bölgələrdə. Demək olar ki, əsas infrastruktur məsələləri öz həllini tapmışdır. İyirmi il ərzində bir neçə regional inkişaf proqramı qəbul edilmişdir. Hər proqram beş ili əhatə edirdi və proqramlar uğurla icra olundu. Biz bunun nəticəsində əsas infrastruktur məsələlərini həll etdik. İlk növbədə elektrik enerjisi ilə təchizat bütün ölkəni əhatə etmişdir. Tamamilə yeni mərhələyə qədəm qoyduq. Bu yaxınlarda yeni külək-elektrik stansiyasının açılışında bu məsələyə bir qədər toxundum, bu gün bizim enerji generasiya gücümüz tələbatımızdan daha artıqdır. Hətta biz elektrik enerjisini ixrac edirik. Vaxt var idi ki, bu məsələ ilə bağlı ciddi problemlər mövcud idi, enerji qıtlığı mövcud idi. Biz hətta xaricdən elektrik enerjisini idxal etməyə məcbur idik. Bu gün isə görülmüş tədbirlər nəticəsində həm generasiya gücləri yaradıldı, - hazırda təqribən 10 min meqavata yaxındır, - eyni zamanda yarımstansiyalar, ötürücü xətlər, paylayıcı şəbəkə - bütün bu məsələlər vahid sistem halına salınmışdır. Vaxtilə bu sahədə qüsurların böyük hissəsi aradan qaldırılmışdır. Biz bu gün nəinki öz enerji tələbatımız haqqında, - bu məsələ həll edilmiş hesab olunur, - ixrac yolları haqqında düşünürük və nəinki düşünürük, onları biz yaradırıq. Azərbaycan bir neçə ildən sonra, - necə ki, bu gün nefti, qazı dünya bazarlarına ixrac edir və bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir, - eyni səviyyədə elektrik enerjisini dünya bazarlarına ixrac edəcək. Qeyd etməliyəm ki, buna nail olmaq üçün indi qonşu dövlətlərlə və bizim şirkətlərlə, qonşu ölkələrin şirkətləri ilə ciddi danışıqlar aparılır.

Biz qazlaşma məsələlərini böyük dərəcədə həll etmişik. Bu gün ölkəmizdə qazlaşma 96 faizə çatıbdır. Mən bunu deməklə yaşayış məntəqələrini yox, əhalini nəzərdə tuturam. Əhalinin 96 faizi bu gün təbii qazla təchiz edilib. Bu da son 20 il ərzində aparılan infrastruktur layihələri arasında xüsusi yer tutan məsələdir. Çünki vaxtilə bizim qaz təchizatımız daxili tələbatı ödəməyə imkan vermirdi. Biz qazı da xaricdən idxal edirdik və böyük çətinliklərlə üzləşirdik. Bu gün isə dünyanın 10-dan çox ölkəsi, - bu ölkələrin sayı ildən-ilə artır və bu il də yeni ölkələr bu siyahıya daxil ediləcək, - Azərbaycan təbii qazını alıb öz enerji təhlükəsizliyini gücləndirir.

Avtomobil yollarının inşası geniş vüsət almışdır. Bu gün həm magistral, həm kənd yolları, şəhərlərarası yollar - bu layihələr icra edilir. Hazırda işğaldan azad edilmiş ərazilərdə dediyim bütün bu infrastruktur layihələri icra edilir. Elektrik enerjisi, generasiya gücləri, ötürücü xətlər, yollar, körpülər, tunellər, su təchizatı, qazlaşma və bütövlükdə uzun illər işğal altında qalmış ərazilər dirçəlir, həyata qayıdır və vahid infrastruktur şəbəkəsinə qoşulur.

İçməli su və suvarma layihələri də həmişə diqqət mərkəzində olub. Azərbaycan vətəndaşları yaxşı xatırlayırlar ki, vaxtilə bu, insanları narahat edən ən ciddi məsələlərdən biri idi. Bu məsələlər də tədricən öz həllini tapmışdır. Bu gün bizim əksər şəhərlərimizdə içməli su, kanalizasiya layihələri icra edilmişdir və bu proses davam etdirilir.

Biz son 20 il ərzində dörd böyük su anbarı inşa etmişik və bu su anbarlarının potensialı 500 milyon kubmetrdən çoxdur. Onların arasında xüsusilə "Taxtakörpü", "Şəmkirçay" su anbarlarını qeyd etməliyəm. Əgər bu su anbarları tikilməsəydi, bu gün həm Bakının su təchizatı, həm də qərb zonasının su təchizatı böyük problemlərlə üzləşə bilərdi. "Taxtakörpü" su anbarı bizə imkan verdi ki, Samur çayının sularını "Ceyranbatan" su anbarına yığaq və orada ehtiyat yaransın. O cümlədən "Ceyranbatan" su anbarı tamamilə yenidən qurulmuşdur, yeni, müasir təmizləyici qurğular kompleksi inşa edilmişdir.

Bu gün biz azad edilmiş ərazilərdə içməli su və suvarma layihələrini icra edirik. Son beş il ərzində bir neçə önəmli layihə başa çatıb. Vaxtilə Ermənistan tərəfindən dağıdılmış və yararsız vəziyyətə salınmış su anbarları əsaslı təmir edilib. Onların arasında ilk növbədə "Sərsəng" su anbarını qeyd etməliyəm. Bu, nəinki azad edilmiş ərazilərdə, bütövlükdə ölkəmizdə ən böyük su anbarlarından biridir. Vaxtilə torpaqlarımız işğal altında olanda Ermənistan dövləti bizə qarşı su terroru da həyata keçirirdi. "Sərsəng" və "Suqovuşan" su anbarlarının sularının bağlanması və sudan bir silah kimi istifadə edilməsi bizə böyük problemlər yaradırdı. Su lazım olan aylarda kəsilirdi, ondan sonra buraxılırdı və bu, böyük daşqınlara səbəb olurdu. Yəni, əslində, Ermənistan dövləti su terroru həyata keçirirdi. Bu gün isə "Suqovuşan" su anbarı, "Sərsəng" su anbarı tamamilə yenidən qurulub. Azad edilmiş digər torpaqlarda - Füzuli rayonunda "Köndələnçay" - üç su anbarı yenidən qurulub, Ağdam rayonunda "Xaçınçay" su anbarı yenidən qurulub. Laçın rayonunda tamamilə yenidən qurulmuş "Zabuxçay" su anbarı bu gün artıq istismardadır. Azad edilmiş ərazilərdə daha iki böyük su anbarının - "Həkəriçay", "Bərgüşadçay" su anbarlarının tikintisi də nəzərdə tutulur və artıq hazırlıq işləri gedir. Yəqin ki, biz bu il artıq praktik işlərə başlayacağıq.

Su mənbələri hər bir ölkə üçün çox önəmlidir. Bizim su mənbələrinin təqribən dörddəbir hissəsi vaxtilə işğal altında olmuş ərazilərdə formalaşır. Bu su mənbələrinin üstünlüyü də odur ki, bunların əksəriyyəti Azərbaycan ərazisində formalaşır. Yəni başqa ölkələrdən asılılıq ərazilərimizin qaytarılması nəticəsində böyük dərəcədə azalıb. Bizim digər əsas su mənbələrimiz xaricdə formalaşır - Kür çayı, Araz çayı, Samur çayı. Əlbəttə ki, bu sahəyə olan diqqət bu həssas məsələni də nəzərə almalıdır.

Bu gün dünyada iqlim dəyişikliyi ilə bağlı ciddi narahatlıq hökm sürür. Bir çox ölkələr artıq bundan ciddi zərər görür. Bizim su təhlükəsizliyimizlə bağlı olan bütün məsələlər sistem şəklində öz həllini tapır. Qeyd etdiyim kimi, son 20 il ərzində ancaq sadaladığım, - halbuki görülən işlər qat-qat çoxdur, - layihələr onu göstərir ki, əgər vaxtında bu addımlar atılmasaydı, bu gün su təhlükəsizliyimizlə bağlı olan məsələlər bizim üçün çox ciddi problemlər yarada bilərdi. Bizim məqsədimiz isə əhalini və sənayeni, kənd təsərrüfatını dayanıqlı su ilə təmin etməkdir, su mənbələrini qorumaqdır, su anbarlarının potensialını artırmaqdır, uçotu tam yaratmaqdır və mövsüm gələndə suları yığmaqdır ki, sonra il boyunca onlardan istifadə edək.

Bakının və Abşeron yarımadasının içməli su problemləri əfsuslar olsun ki, uzun illər ciddi problem kimi qarşımızda durur. Qeyd etdiyim kimi, bu istiqamətdə müəyyən işlər görülüb. Ancaq mən hesab edirəm, vaxt gəlib çatıb ki, genişmiqyaslı və müfəssəl dövlət proqramı qəbul edilsin. Bu proqram Bakı şəhərini, onun qəsəbələrini, Sumqayıt şəhərini və Abşeron rayonunu əhatə edəcək. Bir müddət bundan əvvəl mənim göstərişimlə proqramın hazırlanması prosesi başlamışdır və demək olar ki, proqram hazırdır. Biz bu gün həm bu proqramı müzakirə edəcəyik, eyni zamanda görülmüş işlərdən danışacağıq və görüləcək işlərlə bağlı müzakirə aparacağıq.

Bu proqramın əsas məqsədi, qeyd etdiyim kimi, Bakı və Abşeron yarımadasını dayanıqlı içməli su ilə təmin etməkdir. Proqram 2035-ci ilə qədər icra olunmalıdır. Bu fakt özlüyündə göstərir ki, nə qədər genişmiqyaslı proqramdır, çünki vaxt lazımdır biz bunu tam icra edək. Proqramın icrası üçün maliyyə mənbələri müəyyən edilib. Bu, iki mənbədən maliyyələşəcək, həm dövlət büdcəsi hesabına, həm də xarici kreditlər hesabına. Deyə bilərəm ki, son illər ərzində burada da aparılan islahatlar imkan verdi ki, biz xarici borcumuzu böyük dərəcədə aşağı salaq və salmışıq da. Bu gün dünya miqyasında xarici borcun ümumi daxili məhsula nisbətdə Azərbaycan dünyada aparıcı yerlərdədir, bu, cəmi 6 faizdən bir qədər çox təşkil edir. Yəni bu, deməyə əsas verir ki, bu gün biz daha çox xarici kreditlərə müraciət edə bilərik, xüsusilə nəzərə alsaq ki, dünyanın aparıcı maliyyə təsisatları bizə müraciətlər edirlər.

Biz bu proqramı daxili vəsait hesabına da icra edə bilərdik. Ancaq ölkə qarşısında duran bir çox məsələlər var. Həm Qarabağın, Şərqi Zəngəzurun bərpası, ölkəmizin hərbi gücünün artırılması və həm də digər layihələr, sosial layihələr. Ona görə qeyd etdiyim kimi, biz iki mənbədən istifadə edəcəyik. Proqramın icrası nəticəsində yeni su anbarları tikilməlidir. Onların sayı 30-a yaxın olacaq. Bu da çox böyük, genişmiqyaslı infrastruktur layihələridir. Sayğaclaşdırma 100 faizə çatdırılmalıdır. Bu gün fasiləsiz içməli su ilə təmin olunan əhali 70 faiz təşkil edir. Proqramın icrası nəticəsində bu, 95 faizə çatacaq. Bakının, Sumqayıtın, Abşeron rayonunun və 64 yaşayış məntəqəsinin su təchizatı böyük dərəcədə yaxşılaşacaq. 200 kilometrdən çox magistral kanallar və bir o qədər paylayıcı şəbəkə tikiləcək və yenidən qurulacaq.

Bu gün problemlərdən biri həm də itkilərlə bağlıdır. Əgər itkilər aşağı səviyyədə olsaydı, hətta mövcud su ehtiyatı bizə bu gün kifayət edərdi. Halbuki biz baxmalıyıq, gələcəyi də hesablamalıyıq. Çünki əhali artır, sənaye artır, təbii ki, tələbat da artır. Ona görə itkilərin kəskin azaldılması əsas məsələlərdən biridir. Bu gün bu sahədə itkilər təqribən 40-45 faizdir və qeyd etdiyim kimi, proqramın icrası nəticəsində bu, kəskin azalmalıdır.

Bu gün kanalizasiya xidməti göstərilən əhali cəmi 50 faiz təşkil edir. Proqramın icrası nəticəsində bu, 95 faizə çatdırılmalıdır. Leysan yağışları yağan kimi şəhər nəqliyyatı iflic vəziyyətinə düşür, çox ciddi problemlər yaşanır. Düzdür, bu, təkcə Bakıda, Azərbaycanda deyil. Biz televiziya verilişlərində dünyanın istənilən yerində bunu görürük. Hətta ən inkişaf etmiş hər ölkənin şəhərlərində də daşqınlar adi hal alıb. Heç bir şəhərin infrastrukturu imkan vermir ki, əgər şiddətli leysan yağışları bir neçə gün davam etsə, bunu idarə etmək mümkün olsun. Ancaq buna baxmayaraq, bizim də bu sahədə zəif yerlərimiz kifayət qədər çoxdur. Ona görə yağış sularının idarə olunması üçün Bakının 30 küçəsində yeni kollektor şəbəkəsi də qurulacaq və bunun çox böyük faydası olacaq.

Dənizə buraxılan sular 100 faiz təmizlənməlidir. Xəzər dənizinin çirklənməsinin əsas amillərindən biri də budur. Ona görə burada da lazımi əlavə tədbirlər görüləcək. Hövsan sutəmizləyici stansiyasının modernləşdirilməsi və potensialının genişləndirilməsi də gündəlikdə duran məsələdir.

Su sektorunda rəqəmsal idarəetmə sistemi də tətbiq edilməlidir. Mən artıq bu barədə məlumat verdim. Bir daha demək istəyirəm ki, Abşeron yarımadasının su təchizatını yaxşılaşdırmaq üçün ilk dəfə olaraq ölkəmizdə duzsuzlaşdırma zavodu inşa ediləcək. Bu prosesə start verildi. Bunun üstünlüyü ondan ibarətdir ki, bu, sırf xarici investisiyalar hesabına həyata keçiriləcək layihədir. Bu imkan verəcək ki, biz Bakıya və Abşeron yarımadasına gələn suların həcmini artıraq. Bu sahədə texnoloji inkişaf da göz önündədir. Bizim Xəzər dənizinin suyu o qədər də duzlu deyil, yəni tam əminlik var ki, duzsuzlaşdırma nəticəsində əhali təmiz və keyfiyyətli içməli su ilə təmin ediləcək və eyni zamanda suvarma üçün də böyük mənbə yaranacaqdır.

Samur-Abşeron su kanalı. Vaxtilə biz bu kanalı yenidən inşa etmişik. Bu, tam beton kanaldır və orada itkilər kifayət qədər azdır. Ancaq yenə də bu kanalın infrastrukturunun inkişafı ilə bağlı tədbirlər nəzərdə tutulur ki, "Ceyranbatan" su anbarı dayanıqlı su ilə təmin edilsin. Bu gün Bakıya beş mənbədən su daxil olur. Altıncı mənbə duzsuzlaşdırma zavodu olacaq və əlbəttə ki, bu axın tam təmin edilməlidir.

Onu da bildirməliyəm ki, son 20 il ərzində həyata keçirdiyimiz layihələrdən biri də tamamilə yenidən qurulmuş Oğuz-Qəbələ-Bakı su kəməridir. Əgər bu su kəməri tikilməsəydi, bu gün Bakıda su qıtlığı özünü çox ciddi şəkildə göstərmiş olardı.

Qeyd etdiyim kimi, proqram çox genişdir, çox konkretdir. Bütün vəzifələr orada qoyulub, nəzarət də təmin ediləcək, həm hökumət tərəfindən, həm də Prezident Administrasiyası tərəfindən. İctimai nəzarət də, əlbəttə ki, mütləq olmalıdır. Bu proqramın icrası mətbuatda geniş işıqlandırılmalıdır ki, Azərbaycan vətəndaşları, xüsusilə Bakı və Abşeronda yaşayan insanlar görsünlər, bilsinlər ki, nə vaxt hansı məsələ öz həllini tapır və yubanmalar da olmamalıdır. Çünki yenə də deyirəm, proqram 2035-ci ilə qədər nəzərdə tutulur. Biz hesab edirdik ki, bunu daha da tez bir zamanda etmək mümkündür. Ancaq tələsməmək üçün və bütün işləri keyfiyyətlə təşkil etmək üçün qərara gəldik ki, təxminən 10 illik proqramdır, yəni kifayət qədər vaxt var, ancaq bir gün də yubanma olmamalıdır.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:** İndi isə çıxış üçün söz verilir Baş nazirin müavini Şahin Mustafayevə.

**Şahin MUSTAFAYEV:** Möhtərəm cənab Prezident, sosial-iqtisadi əhəmiyyətini nəzərə alaraq, ölkənin su təhlükəsizliyinin təmin edilməsi hər zaman Sizin diqqət mərkəzinizdə olmuş, rəhbərliyinizlə əvvəlki illərdə böyük ölçüdə işlər həyata keçirilmiş, ehtiyat tədbirləri görülmüş, "Taxtakörpü", "Şəmkirçay", "Tovuzçay", "Göytəpə", Naxçıvanda "Heydər Əliyev", "Vayxır" su anbarları, Oğuz-Qəbələ-Bakı su kəməri inşa edilmiş, Samur-Abşeron su kəməri yenidən qurulmuş və qeyd etdiyiniz kimi, əksər şəhər və rayon mərkəzləri içməli su və kanalizasiya xidmətləri ilə təchiz edilmişdir. Bununla yanaşı, kəskin su çatışmazlığının müşahidə edildiyini nəzərə alaraq, ölkə ərazisində su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə 2020-ci il 15 aprel tarixli sərəncamınızla müvafiq komissiya yaradılmışdır. Eyni zamanda tərəfinizdən su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair tədbirlər planı təsdiq edilmişdir ki, buna uyğun olaraq ölkə üzrə genişmiqyaslı işlər həyata keçirilir.

Həmçinin 2024-cü il 10 oktyabr tarixli sərəncamınızla 2024-2040-cı illər üzrə su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya təsdiq edilmişdir. Milli Strategiyanın əsas hədəfləri su ehtiyatlarının yenidən qiymətləndirilməsi və inteqrasiyalı idarə edilməsi, su ehtiyatlarından səmərəli istifadə edilməsi, əhalinin dayanıqlı və keyfiyyətli içməli su və sanitariya xidmətləri ilə təminatının yaxşılaşdırılması, əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması və su təhlükəsizliyinin təmin edilməsidir. Su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi məqsədilə 2023-cü il 30 mart tarixli fərmanınızla vahid qurum kimi Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yaradılmışdır.

Möhtərəm cənab Prezident, qlobal iqlim dəyişməsi və orta temperaturun yüksəlməsi, yağıntıların və çaylarda sululuğun əhəmiyyətli dərəcədə azalması, digər tərəfdən, suvarma və içməli su təchizatı üzrə şəbəkələrin genişləndirilməsi nəticəsində suya tələbatın artması öz növbəsində su çatışmazlığını şərtləndirir. Ölkə üzrə yerüstü su ehtiyatlarının təqribən 75 faizi qonşu ölkələrdən daxilolmaların hesabına formalaşır və qlobal iqlim dəyişikliyi həmin su axınlarının həcminə də öz təsirini göstərir.

Möhtərəm cənab Prezident, 2020-ci ildən başlayaraq hər il Nazirlər Kabineti tərəfindən ölkə üzrə illik su təsərrüfatı balansı təsdiq edilir. Su təsərrüfatı balansı əvvəlki üç il üzrə faktiki hesabat ili üzrə gözlənilən və növbəti il üzrə proqnoz göstəricilərini özündə əks etdirir ki, bu da ölkənin su ehtiyatlarının formalaşması və istifadəsi üzrə ümumi qiymətləndirmənin aparılmasına imkan verir. Su ehtiyatlarının içməli su təchizatı, suvarma, energetika və digər məqsədlər baxımından planlı, koordinasiyalı və prioritetləşmə aparmaqla optimal istifadə istiqamətində görülən tədbirlər sayəsində əsas su anbarlarında su ehtiyatlarının həcmi cari il yanvarın 1-nə 16,4 milyard kubmetr təşkil etmişdir ki, bu da 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə 6,2 milyard kubmetr və ya 60 faiz çoxdur.

Eyni zamanda ölkənin ən böyük su anbarı olan Mingəçevir su anbarında 2020-ci ildəki 8 milyard kubmetr ilə müqayisədə 13 milyard kubmetrə yaxın su ehtiyatı toplanmışdır. Belə ki, Mingəçevir su anbarı 2024-cü ildən etibarən çoxillik tənzimləmə rejiminə qaytarılmışdır.

Komissiyanın fəaliyyəti çərçivəsində əsas su anbarları üzrə tövsiyə olunan iş rejimləri təsdiq edilir, sudan istifadə gündəlik qaydada nəzarətdə saxlanılır və görülən tədbirlər əhalinin içməli və suvarma suyu ilə təchizatının daha da yaxşılaşdırılmasına, su-elektrik stansiyalarının səmərəlilik göstəricilərinin əhəmiyyətli dərəcədə yüksəlməsinə şərait yaratmışdır. Ölkənin əsas su və su təsərrüfatı obyektlərində su ehtiyatlarının qiymətləndirilməsi üçün müasir texnologiyalara əsaslanan ölçmə cihazlarının quraşdırılması, içməli su təchizatı sahəsində sayğaclaşdırma, subartezian quyularında avtomatlaşdırılmış idarəetmə sistemlərinin tətbiqi istiqamətində işlər davam etdirilir. Ölçmə cihazlarının texniki parametrlərinin elektron su təsərrüfatı informasiya sisteminə inteqrasiyası üzrə işlər aparılır. Müasir ölçmə cihazlarının quraşdırıldığı məntəqələrdən daxil olan operativ məlumatlar əsasında gündəlik bülletenlər hazırlanır və aidiyyəti qurumlara təqdim olunur.

Tapşırığınıza uyğun olaraq, məsləhətçi şirkət cəlb edilməklə ölkə əhəmiyyətli "Şəmkir", "Yenikənd", "Mingəçevir" və "Varvara" kaskad su anbarları üzrə texniki təhlükəsizliyin qiymətləndirilməsi tamamlanmış və komissiya tərəfindən təsdiq olunmuş müvafiq tədbirlər planının icrasına başlanmışdır. Nazirlər Kabinetinin 2025-ci il 1 may tarixli sərəncamına əsasən həmin su anbarları da Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin balansına verilmişdir.

Möhtərəm cənab Prezident, müvafiq sərəncamlarınıza uyğun olaraq Qəbələ rayonunda 17,5 milyon kubmetr həcmində "Yengicə" su anbarının və Oğuz, Şəki rayonlarında 108 milyon kubmetr həcmində "Əlicançay" su anbarının tikintisi həyata keçirilir və 2027-ci ildə tamamlanması nəzərdə tutulur. "Yengicə" su anbarı Qəbələ rayonu üzrə 10 min hektar əkin sahəsinə xidmət edəcəkdir. "Əlicançay" su anbarı isə Şəki və Qax rayonları üzrə 30 min hektara yaxın əkin sahəsinə xidmət etməklə yanaşı, Şəki və Oğuz rayonları üzrə 28 yaşayış məntəqəsinin 49 min nəfərə yaxın əhalisini içməli su ilə təmin edəcəkdir. "Şirvan" kanalının yenidən qurulması işləri müvafiq sərəncamınıza uyğun olaraq davam etdirilir və 2027-ci ildə tamamlanması nəzərdə tutulur. Yenidənqurmadan sonra 10 rayon üzrə 228 min hektar əkin sahəsini suvarma suyu və yaşayış məntəqələrini məişət suyu ilə təmin edəcəkdir. Eyni zamanda 9 rayonun 115 min hektaradək əkin sahəsinin suvarma suyu və yaşayış məntəqələrini məişət suyu ilə təmin edən "Qarabağ" kanalının yenidən qurulması üzrə layihə-smeta sənədləri hazırlanır.

Qeyd olunanlardan əlavə, 7 suvarma kanalı yenidən qurulmuş və 3 suvarma kanalının yenidən qurulması davam etdirilir ki, bunlar da ümumilikdə 132,3 min hektar əkin sahəsinə xidmət edir. Son illərdə azsululuq dövründə Kür çayının 60 kilometrlik mənsəb hissəsində Xəzər dənizinin təsirindən suda duzluluq konsentrasiyasının artması Kür çayının aşağı axarında yerləşən Neftçala və Salyan rayonlarının ərazisində məskunlaşmış əhalinin suya olan tələbatının ödənilməsində ciddi çətinliklər yaradırdı. Görülən tədbirlər nəticəsində suqəbuledici qurğuların normal istismarı və "Mingəçevir" su anbarının izafi suyun buraxılmasına ehtiyac qalmadan suya olan tələbatın optimal şəkildə ödənilməsi təmin olunmuşdur. "Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi tədbirləri" haqqında 2023-cü il 12 aprel tarixli sərəncamınızın icrası məqsədilə elan edilmiş müsabiqənin qalibi olan şirkətlə Dövlət-Özəl Tərəfdaşlıq Müqaviləsi və digər müqavilələr ötən ilin sentyabr ayında Bakıda keçirilmiş Birinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində imzalanmışdır. Bu pilot layihə əhalinin dayanıqlı içməli su təminatına xidmət etməklə yanaşı, ölkəmizdə dövlət-özəl tərəfdaşlığı baxımından da xüsusi nümunə təşkil edəcəkdir.

Həmçinin "Hövsan" aerasiya qurğusunda Xəzər dənizinə axıdılan tullantı sularının təmizlənməsi və təkrar istifadəsi ilə bağlı pilot layihənin həyata keçirilməsinə dair sərəncamınızla əlaqədar Texniki-İqtisadi Əsaslandırma sənədinin hazırlanması və müvafiq dövlət-özəl tərəfdaşlığı modelinin müəyyən edilməsi ilə bağlı Beynəlxalq Maliyyə İnstitutu ilə əməkdaşlıq həyata keçirilir.

Möhtərəm cənab Prezident, ötən dövr ərzində işğaldan azad edilmiş ərazilərdə genişmiqyaslı tikinti-quraşdırma, bərpa və yenidənqurma işləri görülmüş, çoxsaylı infrastruktur layihələri həyata keçirilmişdir.

Ali rəhbərliyinizlə ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi ilə birlikdə həmin ərazilərdəki su ehtiyatlarımız üzərində də nəzarət bərpa edilmişdir ki, bu da ölkə ərazisində formalaşan su ehtiyatlarının təqribən 20 faizinə bərabərdir. İşğaldan azad edilmiş ərazilərdə su təsərrüfatı obyektlərinin tikintisi, yenidən qurulması, bərpası, içməli su və suvarma suyu təchizatı ilə bağlı tədbirlər üzrə fəaliyyətin əlaqələndirilməsi komissiya tərəfindən Əlaqələndirmə Qərargahı ilə birlikdə təmin edilir. Siz də qeyd etdiyiniz kimi, Laçın rayonunda Qubadlı və Zəngilan rayonları üzrə 12 min hektar torpaq sahəsinin suvarma suyu ilə təminatı məqsədilə həcmi 26,7 milyon kubmetr olan "Zabuxçay" su anbarı inşa edilərək istismara verilmişdir. Ağdərə rayonunda həcmi 5,9 milyon kubmetr olan "Suqovuşan" su anbarı təmir-bərpa edilmişdir. Dörd rayon üzrə 29,7 min hektar torpaq sahəsinin su təminatının yaxşılaşdırılmasına xidmət edən 20 kilometr uzunluğunda "Tərtərçay" sol sahil suvarma kanalı və onu "Suqovuşan" su anbarından su ilə təmin edən 5,2 kilometr uzunluğunda magistral kanalı yenidən qurularaq istismara verilmişdir. Beş rayon üzrə 67 min hektar torpaq sahəsinin su təminatını yaxşılaşdıracaq 50 kilometr uzunluğunda "Tərtərçay" sağ sahil suvarma kanalının yenidən qurulmasına dair layihə-smeta sənədləri tamamlanmış və tikinti işlərinə başlanılacaqdır. Ağdam rayonunda həcmi 23 milyon kubmetr və əkin üzrə xidmət sahəsi 7 min hektar təşkil edən "Xaçınçay" su anbarı və Füzuli rayonunda ümumi həcmləri 15,5 milyon kubmetr və əkin üzrə xidmət sahəsi 6,2 min hektar təşkil edən "Köndələnçay" su anbarları təmir-bərpa edilmişdir. Laçın rayonunda həcmi 91 milyon kubmetr təşkil edəcək "Həkəriçay" su anbarının və Qubadlı rayonunda həcmi 67 milyon kubmetr təşkil edəcək "Bərgüşadçay" su anbarının tikintisi ilə əlaqədar layihə-smeta sənədləri yekunlaşmaq üzrədir. "Həkəriçay" su anbarının ilkin mərhələdə Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Ağdam rayonlarının içməli su ilə təminatına xidmət etməsi nəzərdə tutulur. "Bərgüşadçay" su anbarı isə Qubadlı, Zəngilan və Cəbrayıl rayonları üzrə 8,8 min hektar torpaq sahəsini suvarma suyu ilə təmin etməklə yanaşı, "Qız Qalası" su anbarına layihələndirilən magistral kanala saniyədə 12 kubmetr suyun ötürülməsinə xidmət edəcəkdir.

*Ardı 3-cü səh.*

# Bir gün də yubanma olmamalıdır!

## Prezident İlham Əliyev yeni dövlət proqramının icrasına hərtərəfli nəzarətin tam təmin ediləcəyini bildirdi

*Əvvəli 2-ci səh.*



Azərbaycan Respublikası və İran İslam Respublikası arasında mövcud razılaşmalara uyğun olaraq Araz çayı üzərində "Xudafərin" və "Qız Qalası" su anbarlarının su və enerji ehtiyatlarından səmərəli istifadə edilməsi məqsədilə tədbirlər davam etdirilir. "Qız Qalası" su anbarından ayrılan magistral suvarma kanalının tikintisi layihəsinin beynəlxalq maliyyə qurumu ilə birgə maliyyələşdirilməsi məqsədilə 2024-cü ildə kredit və layihə sazişləri imzalanmış və layihənin icrası istiqamətində işlərə başlanılmışdır. Bu layihə Mil-Muğan zonasında 252 min hektar torpaq sahəsinin su təminatının yaxşılaşdırılmasına, Cəbrayıl və Füzuli rayonları ərazisində 12 min hektar yeni torpaq sahəsinə suyun verilməsinə xidmət edəcəkdir.

Möhtərəm cənab Prezident, ötən il su təchizatı baxımından Naxçıvan Muxtar Respublikasında müəyyən çətinliklər müşahidə edilmişdir. Belə ki, ötən il ərzində əsas iki su anbarına, - tutumu 150 milyon kubmetr olan "Arpaçay" su anbarı və tutumu 100 milyon kubmetr olan "Heydər Əliyev" su anbarına, - daxil olan suyun həcmi 2024-cü ilin eyni dövrü ilə müqayisədə təqribən yarıbayarı - 200 milyon kubmetrdən artıq azalmışdır. Tapşırığınıza uyğun olaraq, Naxçıvan Muxtar Respublikası üzrə su ehtiyatlarından səmərəli istifadə və əhalinin su ilə dayanıqlı təchizatı məsələsi komissiyanın fəaliyyəti çərçivəsində ətraflı müzakirə edilmiş, problemlərin köklü şəkildə həlli ilə bağlı görüləcək tədbirlərin ilkin layihəsi hazırlanmış və yekunda diqqətinizə təqdim ediləcəkdir. Eyni zamanda Bakı şəhərində və Abşeron yarımadasında içməli su təchizatına, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair Sizin rəhbərliyinizlə keçirilən bugünkü müşavirə su ehtiyatlarının səmərəli istifadə edilməsinə, əhalinin dayanıqlı və keyfiyyətli içməli su və sanitariya xidmətləri ilə təminatının yaxşılaşdırılmasına xüsusi töhfə verəcəkdir.

Möhtərəm cənab Prezident, su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi ilə bağlı qarşımıza qoyduğunuz bütün vəzifələr yerinə yetiriləcəkdir.

Diqqətinizə görə minnətdaram.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

❖ ❖ ❖

**Prezident İlham ƏLİYEV:** İndi isə söz verilir Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılova.

**Zaur MİKAYILOV:** Möhtərəm cənab Prezident, Sizin tapşırığınıza əsasən hazırlanmış bu layihə təklifi iqtisadiyyatın inkişafı və artan əhali fonunda Bakı şəhərinin və Abşeron yarımadasının dayanıqlı su, içməli su, tullantı və yağış suları sisteminin təşkilini əks etdirir. Hazırlanan dövlət proqramının əsas məqsədi Sizin tapşırığınıza əsasən həyata keçirilən Bakı və Abşeron yarımadasında nəqliyyat, şəhərsalma və ərazi inkişaf layihələri fonunda əhalinin dayanıqlı su təminatını təşkil etməkdir. Məhz bu yanaşma əsasında 2026-2035-ci illəri əhatə edən Dövlət Proqramı Bakı şəhərində və Abşeron yarımadasında həm bugünkü, həm də perspektiv inkişaf hədəfləri ilə uzlaşmaqdadır.

Möhtərəm cənab Prezident, bu proqramın hazırlanmasını şərtləndirən amilləri və onun əsas tərkib hissəsi olan istiqamətləri göstərmək üçün icazənizlə təqdimata keçmək istərdim. İcazə versəniz, cənab Prezident, yaxınlaşardım.

**Prezident İlham ƏLİYEV:** Buyurun.

**Zaur MİKAYILOV:** Möhtərəm cənab Prezident, əvvəlcə Bakı şəhərində və Abşeron yarımadasında bugünkü sosial-iqtisadi inkişaf və demoqrafik artımla əlaqədar bəzi məlumatları diqqətinizə çatdırmaq istəyirəm ki, bunlar da bu proqramın hazırlanmasında əsas amillərdən biridir. Bakı şəhərindəki su və kanalizasiya sistemləri əsasən 1980-ci illərin sonuna qədər hazırlanmışdır və o gündən bu günə qədər yaşayış məntəqələrinin ərazisi 2,6 dəfə, əhalisi isə 2,1 dəfə artmışdır. Əsas magistral xətlərin istismar müddəti çoxdan başa çatmışdır, müasir nəzarət sistemləri də standartlara heç bir şəkildə cavab vermir. Bunların çoxunun ömrünün 40-50 il olmasını nəzərə alsaq, onların istismar müddəti artıq başa çatmışdır. Əksər yağış suyu kollektorlarının kanalizasiya xətlərinə qoşulması ilə sistemlərdə əlavə yüklənmələr yaranmışdır. Vaxtilə Bakıda mövcud olan yağış sistemlərinin hamısı 1990-cı illərdə kanalizasiya kollektoruna çevrilmişdir.

Əsas kollektorların maksimal ötürücülük qabiliyyəti, formalaşan su miqdarının az olması, təbii ki, həm yuxarıda göstərdiyimiz kimi əhalinin artması, həm də yağış sularının həmin kollektora axıdılması ilə əlaqədardır.

Bir çox magistral xətlərin mühafizə zonalarının zəbt olunması, cənab Prezident, bu gün hazırda əsas kanalizasiya magistrallarımızla bağlı Bakı şəhərində bu yaxınlarda apardığımız təhlillərdən məlum oldu ki, həmin magistralların istismarını çətinləşdirərək hətta imkansız hala gətirən 1600-dən çox fərdi yaşayış və ya digər tikintilər mövcuddur. Bu da bəzi yerlərdə müddəti bitmiş kanalizasiya sistemlərinin çökməsi və əhalinin evlərinə ziyan dəyməsi ilə nəticələnir.

Bu tərəfdə, cənab Prezident, bugünkü vəziyyətimiz bütün Azərbaycanda fasiləsiz içməli su təminatı, sayğaclaşdırma ilə bağlı faizlər və bununla bərabər Avropa İttifaqında olan rəqəmlər göstərilmişdir. İçməli suya olan əlçatanlıq Azərbaycanda 73,4 faiz, təxminən 74 faiz, Avropa İttifaqında isə 95 faizdir. Fasiləsiz su təminatı Azərbaycan üzrə 72,5 faiz, Bakı və Abşeronda, - Siz də qeyd etdiniz, - 70 faizdir. Bunun fərqli olmasının səbəbi son illərdə rayonlarda, bölgələrdə aparılan böyük quruculuq işləridir. Odur ki, orada fasiləsiz suya əlçatanlıq daha yüksəkdir.

Gördüyünüz kimi, bizdə sayğaclaşdırma Avropa İttifaqı ilə müqayisədə daha yüksək səviyyədədir - 91,9 faiz, təxminən 92 faizə çatmaqdadır.

Su itkilərimiz isə daha yüksəkdir. Su itkiləri faktiki olaraq 38,6 faizdir ki, bu, Avropa İttifaqında orta hesabla 22 faizdir. Bununla yanaşı, Siz də qeyd etdiyiniz kimi, bizim itkilərimiz 46 faizə yaxındır. Çünki bununla yanaşı, bir də daxili istismarda olan sular var, onlar da itki olaraq nəzərə alınır. Avropada bu, 3 faiz olduğu halda, Azərbaycanda 9 faiz səviyyəsindədir.

Cənab Prezident, bu xəritədə Bakı şəhərində və Abşeron yarımadasında sosial-iqtisadi inkişaf, demoqrafik artım ilə əlaqədar içməli su sistemlərinin istifadəsi xəritəsi göstərilir. Burada gördüyünüz mavi bölgələr şəbəkənin tikintisinin normalara cavab verdiyi ərazilərdir. Bu, gördüyünüz kimi, Bakı şəhərinin mərkəzini, Sumqayıt şəhərinin bəzi hissələrini və digər bəzi bölgələri özündə əks etdirir. Yaşıl ərazilərdə isə su şəbəkəsi mövcuddur, amma bu, normalara cavab verməyən, əhali tərəfindən, bəzi yerlərdə maklerlər tərəfindən primitiv şəkildə tikilmiş qoşulma şəbəkələrdir. Gördüyümüz qırmızı ərazilər isə, ümumiyyətlə, su şəbəkəsi olmayan və insanların suyu daşımaqla gətirdikləri ərazilərdir.

Bu xəritədən göründüyü kimi, xidmət göstərilən əhali Bakı və Abşeron yarımadasında 91 faiz olduğu halda, normalara cavab verən əhaliyə xidmətimiz 74 faiz səviyyəsindədir. Ərazi olaraq 77 faizi əhatə etdiyi halda, tikinti normalarına cavab verən əhatə dairəmiz, sadəcə, 40 faiz səviyyəsindədir.

Eyni qaydada da Bakı və Abşeron yarımadasında kanalizasiya sistemlərinin xəritəsi göstərilir. Burada vəziyyətimiz, Siz də qeyd etdiyiniz kimi, cənab Prezident, bir az daha fərqlidir. Xidmət göstərilən ərazilər mavi rəngdə, ümumiyyətlə, xidmət göstərilməyən ərazilər qırmızı rəngdədir. Burada, sadəcə, 52 faiz əhaliyə xidmət göstərilir. Ərazi olaraq isə, sadəcə, 39 faiz xidmət göstərə bilirik. Gördüyünüz kimi, bu rəqəmlər Avropa İttifaqında daha yüksəkdir. Bütün bunlar bizim bu proqramın qəbul edilməsini və uzun müddətdir bu işləri həyata keçirərək bütün bu zonaların əhatə edilməsini şərtləndirən əsas amillərdən biridir.

Bununla yanaşı, yağış suları ilə bağlı Sizin diqqətinizə çatdırmaq istədiyimiz vəziyyətlər də var. Bilirsiniz ki, Bakı və Abşeron yarımadasında 300-dən çox göl mövcuddur ki, bunlar da təbii olaraq sutoplayıcı funksiyalara malikdir. Amma 2014-cü illə 2025-ci illər arasında burada bəzən qeyri-qanuni və ya bəzən plansız genişlənmələr nəticəsində bir neçə göl qurudularaq ərazi zəbt olunmuş, tikintilər aparılmışdır. Bu da öz növbəsində intensiv yağışlar yağdığı zaman həmin bölgələrin və bu ərazilərin subasmaya məruz qalmasını şərtləndirir.

Möhtərəm cənab Prezident, Siz də qeyd etdiyiniz kimi, bu illər ərzində dövlət proqramları çərçivəsində bu istiqamətdə bir çox işlər görülmüşdür. Bugünkü vəziyyətimizin qənaətbəxş olmasının da səbəblərindən biri həmin bu proqramların həyata keçirilməsidir. 2004-cü ildə Birinci Dövlət Proqramı qəbul edildiyi dövrdə Azərbaycanda içməli su təminatı, sadəcə, 40 faiz, Bakı şəhəri və Abşeron yarımadasında isə 29 faiz səviyyəsində idi. Hazırda içməli su ilə təminat az öncə göstərdiyim kimi, Azərbaycanda 73 faizə, Bakı şəhəri və Abşeron yarımadasında isə 70 faizə çatdırılmışdır. Bu proqram çərçivəsində görülmüş işlərdən təbii ki, əvvəlcə həm "Taxtakörpü", "Ceyranbatan" su anbarları, həm də ultrasüzgəcli sutəmizləyici qurğu - bunlar hamısı həmin proqram çərçivəsində həyata keçirilmiş və bizim su çatışmazlığı vəziyyətindən bugünkü daha yaxşı vəziyyətə gəlməyimizə çox böyük təsiri olmuşdur.

Cənab Prezident, Sizin sərəncamınızla Azərbaycanın yeni milli su strategiyası qəbul edilmişdir. Bu sənəddə su strategiyası əsas üç istiqamətdə qruplaşdırılmışdır. Birincisi, Siz də qeyd etdiniz ki, əhalinin içməli suya tələbatının tam ödənilməsi üçün yeni su mənbələrinin yaradılması, tələbatına uyğun olaraq içməli suyun əhaliyə fasiləsiz çatdırılması və çox vacib olan su təhlükəsizliyinin təmin edilməsi istiqamətində tədbirlər nəzərdə tutulmuşdur. Digər istiqamət su itkiləri ilə bağlıdır. Sizin də qeyd etdiyiniz çox vacib məsələ su itkilərinin qarşısının alınmasıdır. Buraya magistral kəmərlərin və ötürücü şəbəkələrin itkilərinin, nəzarətdənkənar istifadənin qarşısının alınması və sayğaclaşdırmanın tam başa çatdırılaraq suyun dəqiq uçotunun aparılması daxildir. Üçüncü istiqamət isə su-kanalizasiya və yağış suyu infrastrukturunun inkişafıdır. Bakı şəhəri və Abşeron yarımadasının kanalizasiya şəbəkəsi ilə tam əhatə edilməsi, yağış suyu kollektorlarının, sutoplayıcı şəbəkənin inkişaf etdirilməsi və çox vacib olan Xəzər dənizinin və göllərin ekoloji mühitinin yaxşılaşdırılması kimi məsələlər bizim milli su strategiyamızda öz əksini tapmışdır.

Bu günə qədər görülmüş və həmin bu strategiyaya uyğun olaraq görülən işlərdən, - Siz də qeyd etdiniz, - mən burada dəniz suyunun duzsuzlaşdırılması ilə içməli suyun istehsalı layihəsini qeyd etmək istərdim. Bu, dövlət-özəl tərəfdaşlıq səviyyəsində bu miqyasda hazırlanan ilk layihədir. Layihənin tenderinin qalibi Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti olmuşdur və dediyim kimi, Azərbaycanda su sahəsində ilk dövlət-özəl tərəfdaşlıq layihəsidir. Azərbaycanda dəniz suyunun duzsuzlaşdırılması ilə içməli su istehsalı ilk dəfə belə bir meqalayihə sayəsində Bakı şəhərində və Abşeron yarımadasında faktiki istifadə olunan suyun 25 faizini təşkil edəcək. Bu da bizim gələcəkdə su təhlükəsizliyimizə çox böyük töhfə verəcək. Bu işlərə artıq başlanılmış, yer seçilmiş və bizim proqnozumuza görə, 2028-ci ilin sonuna qədər bu məsələnin başa çatdırılması nəzərdə tutulub.

Möhtərəm cənab Prezident, digər bir layihə Sizin sərəncamınızla Bakı şəhərinin və Abşeron yarımadasının ən böyük təmizləyici qurğusu olan Hövsan Aerasiya qurğusunun modernləşdirilməsi, yenidən qurulması və orada dövlət-özəl tərəfdaşlıq potensialının araşdırılması nəzərdə tutulmuşdur. Qeyd edildiyi kimi, bu istiqamətdə texniki-iqtisadi əsaslandırma sənədlərinin hazırlanması üzrə Asiya İnkişaf Bankı ilə çox yaxından işlər görülmüş, artıq texniki-iqtisadi əsaslandırma son mərhələyə çatmış və digər qurumlara da öz rəylərinin verilməsi üçün təqdim olunmuşdur. Bu rəylər əsasında da dövlət-özəl tərəfdaşlığı modellərinin dəqiqləşdirilməsi aparılacaq. Bu dəqiqləşdirmələr bitdikdən sonra həmin işlərin də bu ildən başlayaraq tenderlə həyata keçirilməsi nəzərdə tutulub.

Dövlət proqramı layihəsinin Bakı şəhəri və Abşeron yarımadası üzrə əsas məqsədləri haqqında Sizə məlumat vermək istərdim. Proqram çərçivəsində bu su mənbələrinin dayanıqlı təmin edilməsi, suyun mənbədən götürülərək emalı, nəql edilməsi, saxlanılması və paylanması prosedurunun optimallaşdırılması nəzərdə tutulur. Əhalinin keyfiyyətli və dayanıqlı su ilə təmin edilməsi, paylayıcı şəbəkələrin itkilərinin minimuma endirilməsi, suyun uçotunun tam təkmilləşdirilməsi və təmin edilməsi, yağış və tullantı suları sistemlərinin yenilənməsi və inkişaf etdirilməsi, alternativ su mənbələrinin istifadəsinin araşdırılması və təmin olunması, Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, kanalizasiya və yağış suları sistemlərinin Bakı Master Planının yenilənərək 2040-cı ilə qədər hazırlanmış planın 2050-ci ilə qədər də inkişaf etdirilməsi bu dövlət proqramı çərçivəsində nəzərdə tutulmuşdur.

Cənab Prezident, hazırda Bakıda mövcud olan su sistemləri haqqında da bu xəritədə Sizə məlumat vermək istərdim. Burada gördüyünüz mavi xətlər mövcud olan su xətlərimizdir. Bu mavi işarələr isə mövcud su anbarlarıdır ki, bunlar da suyun paylanmasında tənzimləyici rol oynayır. Fasiləsiz su təminatı ilə bağlı bizim əsas hədəflərimiz 95 faizə çatmaqdır. İçməli su şəbəkəsinin genişləndirilməsi və su itkilərinin Avropa standartlarına uyğunlaşdırılaraq 20 faizə qədər endirilməsi, içməli suda sayğaclaşmanın 100 faizə çatdırılması və çox vacib olan içməli suyun keyfiyyət göstəricisinin təkmilləşdirilməsi əhalimizə sağlam suyun verilməsini təmin etməyimizə imkan yaradacaq. Bu sistem böyüdükcə, təbii ki, idarəetmə sistemlərinin müasirləşdirilməsi də çox vacibdir. Cənab Prezident, burada gördüyünüz mavi xətlər var, amma yanında da qırmızı ilə planlaşdırdığımız yeni magistral xətlər nəzərdə tutulub ki, bu magistral xətlər tikildikdən sonra bizim həm əskik olan şəbəkələşmədə, - Siz də qeyd etdiyiniz kimi, Abşeron yarımadasında 64 yaşayış məntəqəmiz, qəsəbəmiz və kəndimiz var, - onların da şəbəkələşməsi həyata keçiriləcək.

Cənab Prezident, burada vacib olan məsələlərdən biri də Bakı şəhərində və Abşeron yarımadasında içməli suya tələbatın, xüsusilə də mənbələrimizin gələcək inkişafının nəzərə alınmasıdır. Gördüyünüz kimi, burada cədvəl göstərilib, Abşeron yarımadasında bizim gündəlik orta hesabla 16 kubmetr istifadəmiz var. Bizim layihə gücümüz 19,1 kubmetrdir. Amma bildiyiniz kimi, burada orta hesabla 16 kubmetr olan rəqəm yay aylarında daha yüksək səviyyələrə qalxır. Pik tələbatımız Bakı və Abşeron yarımadasında 20,8 kubmetr/saniyə göstərir. Amma inkişaf proqnozlarına uyğun olaraq 2040-cı ildə, - bu proqram hazırda 2040-cı ilə qədər nəzərdə tutulub, - bu rəqəmlərin orta hesabla 20,7 kubmetr/saniyə, pik vaxtlarda isə, yəni yayın qızmar vaxtlarında və bəzi istiqamətlərdə bölgələrdə suyun gəlişində problemlər olduğu halda bu rəqəmin 26,9 kubmetr olması gözlənilir. Bununla əlaqədar bizim hazırladığımız dövlət proqramında, sadəcə, şəbəkələrin və magistralların genişləndirilməsi deyil, su mənbələrinin artırılması nəzərdə tutulmuşdur. Bunlardan biri, təbii ki, qeyd etdiyimiz kimi, duzsuzlaşdırma layihəmizdir ki, o, illik 100 milyon kubmetrdən çox içməli su verəcək. Bu da günlük 3,2 kubmetr/saniyə əlavə su deməkdir. Bununla yanaşı, Sizin də qeyd etdiyiniz kimi, beş istiqamətdə - "Bakı-Şollar"dan gələn iki istiqamətimiz, Kür təmizləyici qurğulardan gələn su mənbəyimiz, Oğuz-Qəbələ su mənbəyimizi də təkmilləşdirərək onlardan da əlavə suyun gətirilməsini nəzərdə tutmuşuq. Planlaşdırmışıq ki, bunun sayəsində biz həmin o pik səviyyəni 2030-cu ildə artıq əldə etmiş olacağıq. Bununla paralel olaraq, şəbəkə genişləndikdən sonra 2040-cı ilə qədər bütün tələbat təmin olunacaq və qarşılanacaq.

Burada dediyimiz kimi, dəniz suyundan 3,2 kubmetr, Ceyranbatan sutəmizləyici qurğular kompleksini yenidən qurmaqla, klassik qurğunu bitirməklə əlavə 3 kubmetr, mövcud su xətlərində daşıyıcı kəmərlərin, qurğuların istismarı sayəsində daha 2 kubmetr su əldə edəcəyik. Çox doğru qeyd etdiyiniz kimi, bizim hazırdakı itkilərimiz bu səviyyədə olmasaydı, indi də suyumuz yetərdi. Amma o zamana qədər biz itkilərimizi 20 faiz endirdikdən sonra bu, əlavə suya ehtiyacımızı qarşılamış olacaq.

Onu da qeyd etməliyəm ki, cənab Prezident, bizim proqramda nəzərdə tutduğumuz mövcud xətlərdəki qurğuların həcminin artırılması ilə yanaşı, orada görüləcək işlər ən azından bu gün verilən suyu təminat altına alacaq. Çünki bilirsiniz, onlar Şollar və Oğuz-Qəbələ artezian sularıdır. Onları da təmir etmək yeraltı ehtiyatlarımıza da təsir göstərir. Kür çayının səviyyəsini də tənzimləyərək, biz "Mingəçevir" Su Anbarını artıq çoxillik tənzimləməyə keçmişik. Kür çayının səviyyəsini də sabit saxlayaraq, həmin yerlərdən gələn suyun dayanıqlı olaraq Bakıya çatdırılmasını nəzərdə tutmuşuq.

İçməli su ilə yanaşı, cənab Prezident, bilirsiniz, əsas məqsədimiz kanalizasiya sistemidir. Burada da məsələ su sistemlərində olduğu kimidir, biz mənbədən başlayaraq şəbəkələrə keçirik. Burada isə tam tərsinə olaraq, ilk növbədə mənsəbləri yaradaraq, yəni suyun haraya axıdılacağını, necə təmizlənəcəyini nəzərə alaraq, ondan sonra şəbəkələrin yaradılması planlaşdırılıb. Bununla əlaqədar Bakı və Abşeron yarımadasında 12 yeni kollektorun tikintisi nəzərdə tutulub ki, cənab Prezident, Sizin sərəncamınızla onlardan 7-də artıq işə başlanılıb. Burada gördüyünüz mavi xətlər kollektorlarımızdır. Qırmızı xətlərlə artıq birinci mərhələdə tikintisinə başladığımız və 2027-ci ilin sonuna qədər bitirəcəyimiz əsas kollektorlar göstərilib. Ondan sonra - ikinci mərhələdə Abşeronun şərq hissəsində olan bu bölgələrin kanalizasiya sistemlərini təmin etmək üçün əsas magistralların tikintisi nəzərdə tutulmuşdur. Ümumiyyətlə, 346 kilometr uzunluğunda magistral kollektorların tikintisi planlaşdırılıb. Bununla yanaşı, bildiyiniz kimi, şəhərin bütün çirkab və tullantı suları hazırda Hövsan tullantı təmizləyici qurğusuna gəlir. Şəhərin bu yükünü azaltmaq məqsədilə əlavə 9 yeni təmizləyici qurğunun yaradılması nəzərdə tutulmuşdur. Bunlardan biri Ələt tullantı sutəmizləyici qurğusudur ki, bu, Ələt iqtisadi zonasının inkişafını nəzərdə tutur. Sahil təmizləyici qurğusunun, Lökbatan, Müşfiqabad qurğularının tikintisi hazırda davam etdirilir. Sumqayıt şəhərinin tullantı sutəmizləyici qurğusunun həm təkmilləşdirilməsi, həm də həcminin artırılması layihəsi davam etdirilir. Şəhərin içində Böyükşor təmizləyici qurğusu nəzərdə tutulub ki, bu, həm Böyükşor gölünün ekoloji vəziyyətinin tənzimlənməsi, həm də oradakı bütün axıntıların və tullantı sularının şəhərin içərisinə buraxılmadan təmizlənərək təmiz suyun gölə axıdılaraq onun səviyyəsinin saxlanılması nəzərdə tutulur. Yeni Pirallahı təmizləyici qurğusu da nəzərdə tutulub. Pirşağı və Şüvəlan təmizləyici qurğularının modernləşdirilməsi, onların işə salınması və bioloji təmizləmənin də həyata keçirilməsi planlaşdırılır. Bunlar həyata keçirildikdən sonra bu bölgələrdəki şəbəkələr də artıq qoşularaq həmin magistral xətlərlə təmizləyici qurğulara yönləndiriləcək və beləliklə, Bakı-Abşeron yarımadasında Xəzərə ekoloji cəhətdən təmiz su buraxılacaq. Bir çox yerlərdə bu suyun təkrar istifadəsi də nəzərdə tutulub. Bildiyiniz kimi, həm Hövsan təmizləyici qurğularında, həm də digərlərində - Sumqayıt təmizləyici qurğularında da bu suyun texniki və ya suvarma suyu olaraq yenidən istifadəsi nəzərdə tutulub. Beləliklə, kanalizasiya sistemlərini 95 faizə çatdırmağımız nəzərdə tutulur.

Cənab Prezident, hazırda görülən işlər haqqında qısa məlumat vermək istərdim. Bilirsiniz, şəhərin mərkəzindən keçən Sahil kollektoru yenidən qurulur. Zığ-Hövsan kanalizasiyası yenidən qurulur. Dərnəgül, Bakıxanov, Qaraçuxur, Hövsan kanalizasiyası, Pirşağı, Lökbatan, Müşfiqabad və Böyükşor istiqamətlərində işlər 2025-ci ilin ortalarında başlanmışdır. Burada əldə edəcəyimiz ilk nəticə təbii ki, Bakı buxtasının ekoloji mühitinin yaxşılaşdırılması olacaq. Çünki Sahil kollektoru işə düşdükdən sonra Bakı buxtasına axıdılan bütün çirkab su və yağış suları onun vasitəsilə oradan uzaqlaşdırılacaq. Ceyranbatan gölünün ekoloji mühafizə tədbirləri gücləndiriləcək. Çünki Müşfiqabad hövzəsi tikildikdən sonra o ətrafda yaranan bütün tullantı suları artıq Müşfiqabad təmizləyici qurğusuna və oradan da Sumqayıtçaya yönləndiriləcək. Bizim yarımadamızın şimal, şimal-şərq zonasında bütün kəndlərdəki əsas kanalizasiya sistemləri mənsəbləri yaradılaraq oradakı şəbəkələr həmin kollektorlara qoşulacaq.

İkinci mərhələdə isə Hövsan, Binə, Maştağa, Türkan - xəritədə gördüyümüz yaşıl xətlər Şüvəlan hövzəsi, Ələt hövzəsi, Sahil, Pirallahı hövzələri üzrə kanalizasiya kollektorları tikiləcək ki, bu işlər də həyata keçirildikdən sonra, - mən bir-bir vaxtınızı çox alaraq kəndlərin adlarına keçmək istəmirəm, burada yazılıb, - bizim yarımadanın şərq tərəfində qalan bütün kəndlərin kanalizasiya sistemlərinin şəbəkələri onlara qoşularaq təmizləyici qurğulara yönləndiriləcək.

Bununla yanaşı, təbii ki, intensiv yağışlar zamanı şəhərin mərkəzində yaranan problemlərimizdir ki, biz bunları hər dəfə yağışlar yağanda yaşayırıq. Bununla əlaqədar qeyd etdiyimiz Bakı şəhərində 30 küçə üzrə yeni yağış sistemlərinin tikilməsi, ilk növbədə onların texniki-iqtisadi əsaslandırılması və ondan sonra onların həyata keçirilməsi nəzərdə tutulmuşdur. Cənab Prezident, təbii ki, 2025-ci ilin aprel ayında yağan yağışlardan Sizin də çox yaxşı məlumatınız var, son 60 ildə yağmayan bir yağış yağmışdır. Yəni 100 ildə bir, 1000 ildə bir yağa biləcək yağışları hər hansı bir sistemin qarşılaya biləcək səviyyədə olması imkansızdır. Amma ən azından normalara uyğun və normalardan bir az da artıq gələn yağışları qarşılaya bilmək üçün bu sistemlərin həyata keçirilməsi çox vacibdir və bu küçələrin siyahısı var. Amma bu, təbii ki, proses getdikcə təkmilləşdiriləcək, daha düzgün, daha uyğun olan küçələrdə bu sistemlərin tikilməsi nəzərdə tutulmuşdur. Bu şəkildə bizim şəhərin mərkəzində olan əsas problemlərin aradan qalxması planlaşdırılmışdır.

Cənab Prezident, bütün bu tikinti və layihələndirmə işləri ilə yanaşı, bu sistemlərin düzgün uçotunun aparılması və rəqəmsallaşdırılması da çox vacibdir. Çünki sistemlər genişləndikcə onlara insan sayı ilə nəzarət etmək mümkün olmayacaq. Bunun üçün də bir çox yerlərdə - Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı və yağış suları sistemlərində proqram təminatları, yeni "Skada" sistemləri, "Ayote" (IoT) dediyimiz internet texnologiyalarından istifadə edilərək nəzarət sistemləri qurulacaq ki, bu da uçot sisteminin elektronlaşdırılmasına və təkmilləşdirilməsinə, insan amilinin bu sistemdən mümkün qədər çıxarılmasına yol açacaq. Suyun keyfiyyət göstəriciləri onlayn monitorinq olunacaq və bu şəkildə gündə bir neçə dəfə laboratoriya analizləri almaqla deyil, gördüyümüz hər hansı bir dəyişiklik onlayn şəkildə sistemdə göstərilərək yerində və zamanında müdaxilələr həyata keçiriləcək. Sızmaların və su itkilərinin qarşısının alınması üçün "Ayote" monitorinq sistemləri sayəsində bundan çox tez xəbər tutmağı və onun operativ şəkildə həll edilməsini nəzərdə tuturuq. Təbii ki, bütün bu işlərin görülməsi ilə yanaşı, biz həmin istiqamətdə maddi-texniki bazanın, yəni istismar qurumlarının maddi-texniki bazasını yüksəldərək, onların bu xətalara, bu qəzalara və bu işlərə operativ reaksiya göstərməsini nəzərdə tuturuq.

Bu işlərdən başqa, təbii ki, bilirsiniz, Su Ehtiyatları Agentliyi olaraq bizim suların istifadəsinə və mühafizəsinə nəzarət xidmətimiz də var. Bununla yanaşı, su təsərrüfatı sistemlərində mühafizə zonalarının təhlükəsizliyinin gücləndirilməsi və istismarın təkmilləşdirilməsi çox vacibdir. Bir az əvvəl qeyd etdiyimiz kimi, bir çox yerlərdə mühafizə zonalarında tikilmiş binaların, evlərin həm bizim sistemlərə, həm də o evlərin təhlükəsizliyinə çox böyük təsiri var. Su, yağış və tullantı sistemlərinin mühafizə zonaları üzrə inventarlaşdırmanın aparılması, həmçinin müvafiq qurumlarla bərabər normativ-hüquqi aktların tələblərinə uyğun olaraq mühafizə zonalarının fəaliyyətinə dair tədbirlərin görülməsi zəruridir. Nazirlər Kabinetinə siyahı təqdim edilməklə bir çox yerlərdə məcburi köçürmələr olacaq. Çünki dediyimiz kimi, bəzi magistral kanallara əlçatanlığımız olmadığı üçün bəzi yerlərdə bu köçürmələrə də ehtiyac olacaq. Su təsərrüfatı obyektlərinə qanunsuz müdaxilə hallarının qarşısının alınması ilə əlaqədar Sizin bu yaxınlarda imzaladığınız sərəncamla bəzi qaydalar artıq qüvvəyə minir. Bununla əlaqədar biz bəzi işləri də bu ayın sonuna qədər Nazirlər Kabinetinə təqdim edəcəyik və bu da bizim işimizin daha da inkişaf etməsinə yol açacaq. Su və su təsərrüfatı obyektlərinin kimyəvi, bioloji, hidroloji və digər çirklənmələrdən mühafizə tədbirlərinin həyata keçirilməsi - bütün bunlar dediyimiz kimi, dövlət proqramı, sadəcə, investisiya ilə əlaqəli tədbirləri nəzərdə tutur. Bu, həm də bizim istismar qurumlarımızın, xidmətlərimizin 10 il boyunca həm öz işlərinin təkmilləşdirilməsinə, həm də gündəlik istismar işlərinin daha da genişləndirilməsinə yol açacaq. Bu tədbirləri nəzarətdə saxlayaraq biz 10 il ərzində bütün bu sistemlərin Avropa standartları səviyyəsinə çatdırılmasını nəzərdə tutmuşuq.

Deyəcəklərim bu qədər, cənab Prezident, əgər icazə versəydiniz, bu proqramın qəbul olunmasını Sizdən xahiş edərdim.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

❖ ❖ ❖

Sonra müzakirələr davam etdirildi.

Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 12 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmişdir

# Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üçün Dövlət Proqramı

## 1. Qısa xülasə

"Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üçün Dövlət Proqramı" (bundan sonra - Dövlət Proqramı) müvafiq ərazilərdə su təchizatı və tullantı suları sistemləri infrastrukturunun inkişaf etdirilməsi, intensiv yağışlar zamanı subasma risklərinin azaldılması, fasiləsiz və dayanıqlı su təminatının gücləndirilməsi məqsədilə hazırlanmışdır.

Dövlət Proqramı 2026-2035-ci illəri əhatə etməklə iki mərhələdə həyata keçiriləcəkdir.

2026-2030-cu illəri əhatə edən birinci mərhələdə su və kanalizasiya infrastrukturu yenidən qurulacaqdır. Bu çərçivədə mövcud infrastrukturun əsaslı təmiri və yenilənməsi, yağış sularının idarə olunması və tullantı sularının təkrar istifadəsi üzrə müasir texnologiyaların tətbiqi, "ağıllı su şəbəkələri"nin qurulması və ekoloji təhlükəsizliyin təmin olunması nəzərdə tutulur. Bu mərhələdə mərkəzləşdirilmiş kanalizasiya sistemi olmayan ərazilərdə yeni infrastruktur yaradılacaq, eləcə də su şəbəkələrində itkilərin aşkarlanması və azaldılması üçün tədbirlər görüləcəkdir.

2031-2035-ci illəri əhatə edən ikinci mərhələdə yeni su anbarlarının və nasos stansiyalarının tikintisi, su təchizatının fasiləsizliyinin təmin olunması və müasir xidmət modellərinin tətbiqi prioritet istiqamətlər kimi müəyyən ediləcəkdir. Bu məqsədlə mövcud su təchizatı və kanalizasiya şəbəkələri daha da genişləndiriləcək, yağış sularının təkrar istifadəsi üçün yeni layihələr həyata keçiriləcək və ətraf mühitin qorunması istiqamətində tədbirlər görüləcəkdir.

Dövlət Proqramının icrası nəticəsində içməli su mənbələrinin dayanıqlığının artırılması, su anbarlarının, eləcə də supaylayıcı şəbəkələrin inkişaf etdirilməsi, suyun uçot sisteminin təkmilləşdirilməsi, yağış və tullantı suları sistemlərinin yenilənməsi və alternativ su mənbələrinin istifadəyə cəlbinə nail olunması nəzərdə tutulur.

Dövlət Proqramında həmçinin Bakı şəhərinin Baş planı ilə uzlaşdırılaraq, uzunmüddətli strateji hədəflər və icra mexanizmləri müəyyən edilmişdir.

## 2. Qlobal trendlər

Dünyada su ehtiyatlarına tələbatın artması və iqlim dəyişikliyinin təsiri su sektorunda mövcud struktur problemlərinin dərinləşməsinə səbəb olmuşdur.

Qabaqcıl təcrübələr göstərir ki, suyun səmərəli idarə edilməsi, tullantı sularının təkrar istifadəsi və yağış sularının təbii üsullarla idarə olunması kimi innovativ yanaşmalar su təminatını daha dayanıqlı edir, həmçinin ekosistemlərin qorunmasında və su ehtiyatlarının mühafizəsində mühüm rol oynayır.

Aşağıdakı qabaqcıl təcrübələr suyun idarə olunmasında müasir yanaşmaların vacibliyini və yerli səviyyədə tətbiq edildikdə uzunmüddətli faydalarını göstərir:

1. inteqrasiya olunmuş su resursları idarəetməsinə keçid - bu yanaşma Niderland və İsveçrə kimi inkişaf etmiş ölkələrdə uğurla tətbiq olunur və su ehtiyatlarının sosial, iqtisadi və ekoloji maraqları balanslaşdırmaqla idarə edilməsini təmin edir. Niderlandda çayları və yeraltı su ehtiyatlarını qorumaq üçün müasir texnologiyalardan istifadə olunur, İsveçrədə isə şəhərlərdə yaşıl infrastruktur vasitəsilə yağış sularının təbii yollarla yeraltı su ehtiyatlarına daxil olmasına şərait yaradılır;

2. yağış sularının idarə olunması sahəsində Kanadanın Toronto şəhərində tətbiq olunan "Yağış bağları" layihəsi - bu yanaşma şəhərdə yağış sularının təbii yollarla emalını və yeraltı su ehtiyatlarına daxil edilməsini təmin edərək ekosistemi qoruyur. Bunun nəticəsində daşqın riski 30 faizə qədər azaldılmışdır;

3. tullantı sularının təkrar istifadəsi sahəsində Sinqapurun "Yenidən emal olunmuş su"(NEWater) proqramı - bu proqram tullantı sularını içməli su keyfiyyətinə çatdıraraq, ölkənin su ehtiyacının 40 faizini təmin edir. Bu yanaşma həm su qənaətinə, həm də ekosistemin qorunmasına töhfə verir;

4. "Ağıllı su" şəbəkələri - İsraildə tətbiq olunan bu şəbəkələr vasitəsilə su itkiləri 95 faizə qədər azaldılıb. Bu, suyun səmərəli idarə olunması və itkilərin minimuma endirilməsi üçün müasir texnologiyaların vacibliyini göstərir;

5. duzsuzlaşdırma - Səudiyyə Ərəbistanı müasir duzsuzlaşdırma texnologiyalarından istifadə edərək yeni su mənbələri yaradır, bu isə gün ərzində milyonlarla kubmetr içməli su istehsal etməyə imkan verir;

6. su itkilərinin və sızmaların azaldılması - bu sahədə Yaponiya sızmanı aşkarlayan qabaqcıl texnologiyalar tətbiq edərək, su itkilərinin 10 faizə qədər azaldılmasına nail olmuşdur;

7. su infrastrukturunun yenilənməsi - əksər MDB ölkələri, həmçinin Polşa Respublikası və Çex Respublikası kimi ölkələr tullantı sularının təkrar istifadəsi sahəsində müasir texnologiyalar tətbiq etmiş, həmçinin su şəbəkəsini yenidən qurmuşlar. Bu da su itkilərinin əhəmiyyətli dərəcədə azalmasını şərtləndirmişdir.

## 3. Mövcud vəziyyətin təhlili

Ötən dövrdə Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, son 20 ildə qeyd olunan ərazidə 480 km magistral içməli su kəməri, 262 km uzunluğunda Oğuz-Qəbələ-Bakı və 84 km uzunluğunda Ceyranbatan-Zirə magistral su kəmərləri, həmçinin 40 km uzunluğunda yağış-kanalizasiya kollektorları, 14 km uzunluğunda Bayıl-Bibiheybət-Lökbatan və 15 km uzunluğunda Novxanı-Sumqayıt tullantı suları kollektorları inşa edilmişdir. Bundan əlavə, Sumqayıt şəhərində, Buzovna, Pirşağı və Şüvəlan qəsəbələrində tullantı sularının təmizlənməsi qurğuları və kollektorlar tikilmişdir.

Bu tədbirlər əhalinin fasiləsiz və dayanıqlı su təminatına, ətraf mühitin qorunmasına və resursların səmərəli idarə olunmasına mühüm töhfə vermişdir.

Lakin iqlim dəyişikliyi nəticəsində yağıntı və su ehtiyatlarının dəyişkənliyi, eləcə də urbanizasiya və sənayeləşmə suya tələbatı davamlı şəkildə artırır. Eyni zamanda yağış və tullantı sularının təmizlənməsində və idarə olunmasında mövcud çatışmazlıqlar, kanalizasiya sistemlərinin bir çox hissəsinin müasir standartlara cavab verməməsi vəziyyəti daha da çətinləşdirir.

Bu faktorlar Bakı şəhərində və Abşeron yarımadasında fasiləsiz və dayanıqlı su təminatı sahəsində müəyyən çətinliklər yaradır. Nəticədə, içməli su təchizatı, tullantı suları sistemləri və yağış suları sistemləri sahələrində köhnəlmiş infrastruktur və təchizat, habelə idarəetmə sistemlərinin təkmilləşdirilməsi zərurəti ön plana çıxır.

Belə ki, Bakı şəhərində və Abşeron yarımadasında içməli su təchizatı sistemlərinin mühüm hissəsi ötən əsrin əvvəllərində qurulmuş və uzunmüddətli istismar nəticəsində texniki baxımdan köhnəlmişdir. Əhalinin və məskunlaşma ərazilərinin sürətli artımı mövcud infrastrukturun yüklənməsini artıraraq, içməli su təchizatında fasiləsizliyin və keyfiyyətin təmin olunmasına ciddi maneə yaratmışdır.

Hazırda Bakı şəhərinin və Abşeron yarımadasının içməli su təchizatı aşağıdakı beş əsas magistral kəmər kompleksi vasitəsilə həyata keçirilir:

1. birinci Bakı Su Kəmərləri (Şollar) - 1911-1917-ci illərdə inşa edilmiş, 1930-cu ilin sonlarında texniki tədbirlər nəticəsində məhsuldarlığı 109 min $m^3$/günə çatdırılmışdır. Burada yeraltı sular zərərsizləşdirildikdən sonra istehlakçılara ötürülür. Lakin uzunmüddətli istismar nəticəsində ötürülən su həcmində azalma tendensiyası müşahidə olunur;

2. ikinci Bakı Su Kəmərləri (Xaçmaz) - 1934-1958-ci illərdə tikilmişdir, məhsuldarlığı 235 min $m^3$/gün təşkil edir. Burada sular yalnız zərərsizləşdirildikdən sonra istehlakçılara ötürülür. Qlobal iqlim dəyişikliyi səbəbindən mənbənin məhsuldarlığı son illərdə azalmışdır;

3. Ceyranbatan Su Kəmərləri - dörd mərhələdə tikilmiş və ümumi məhsuldarlığı 670 min $m^3$/gün olan bu kompleksdə xam su emal edilərək içməli suya çevrilir. 2011-2015-ci illərdə tikilən son mərhələnin məhsuldarlığı 570 min m?/gün təşkil edir. Lakin əvvəlki mərhələlərdə fəaliyyət göstərən sutəmizləyici qurğuların yenilənməsi zərurəti son vaxtlarda daha da artmışdır;

4. Kür Su Kəmərləri Kompleksi (Kür-1 və Kür-2) - bu Kompleks Hacıqabul rayonunda Kür çayı üzərində inşa olunmuşdur. Ümumi məhsuldarlığı 820 min $m^3$/gün olan kompleksdə xam suyun emalı həyata keçirilir. İtkilərin yüksək olması səbəbindən sudan faktiki istifadə həcmi nəzərəçarpacaq dərəcədə azalmışdır;

5. Oğuz Qəbələ Bakı Su Kəməri - bu Kəmər Oğuz rayonundakı yüksəkkeyfiyyətli yeraltı su mənbəyindən təchiz olunur və məhsuldarlığı 432 min $m^3$/gün təşkil edir. Lakin Kəmərin bəzi hissələrinin qəzalı vəziyyətdə olması və məhsuldarlığın azalması su təchizatında fasilələr yaradır.

Lakin artan su tələbatının tam qarşılanması baxımından bu magistral kəmər kompleksinin potensialı azalmışdır.

Tullantı suları sistemləri ilə bağlı qeyd edilməlidir ki, Bakı şəhərində kanalizasiya infrastrukturu 1924-cü ildə qurulmuşdur və ötən dövr ərzində bir sıra daşıyıcı kollektorlar və tullantı sularının təmizlənməsi qurğuları inşa edilmişdir. Lakin son onilliklərdə Bakı şəhərinin sürətli sosial-iqtisadi inkişafı, yeni yaşayış və qeyri-yaşayış obyektlərinin intensiv şəkildə istifadəyə verilməsi mövcud kanalizasiya sistemlərinin daşıma qabiliyyətinə əlavə yük yaratmışdır.

Yağış sularının əksər hissəsinin kanalizasiya şəbəkəsinə daxil olması xüsusilə intensiv yağıntılar zamanı kollektorların həddindən artıq yüklənməsinə səbəb olur. Bakı şəhərində və Abşeron yarımadasında kanalizasiya kollektorlarının ümumi uzunluğu 1,5 min km, yağış suları kollektorlarının uzunluğu isə 131 km təşkil edir. Yağış suları kollektorlarının kanalizasiya xətləri ilə birləşdirilməsi nəticəsində mövcud sistemin ötürmə qabiliyyəti azalır. Bakı qəsəbələrinin bir hissəsində mərkəzləşdirilmiş kanalizasiya sistemlərinin olmaması isə tullantı sularının qrunt sularına qarışaraq ekoloji tarazlığa mənfi təsir göstərir.

Mövcud çətinliklərin aradan qaldırılması məqsədilə Bakı şəhərində və Abşeron yarımadasında genişmiqyaslı infrastruktur layihələrinin icrası həyata keçirilir. Bunlara Ceyranbatan-Abşeron-Balaxanı-Ramana-Zirə-Pirallahı magistral su kəməri və mərkəzi anbar kompleksi, Pirşağı Tullantı Sutəmizləyici Qurğusunun gətirici kanalizasiya kollektorları, Zığ-Hövsan, Dərnəgül-Bakıxanov-Qaraçuxur-Hövsan, Pirşağı-Bilgəh-Şərq kanalizasiya kollektorları, eləcə də Lökbatan, Böyükşor və Müşfiqabad hövzələri üzrə gətirici kollektor və tullantı sutəmizləyici qurğuları daxildir.

Eyni zamanda Abşeron rayonunun Görədil kəndində, Bakı şəhərinin Binəqədi, Binə, Şüvəlan, Qala və Mərdəkan qəsəbələrində su təchizatı və kanalizasiya şəbəkələrinin bərpası istiqamətində işlər görülür. Bundan əlavə, Sumqayıt şəhərində "Acıdərə" kanalı boyunca kanalizasiya və yağış suları sistemlərinin yenidən qurulması layihəsi həyata keçirilir;

Bakı şəhərində və ətraf ərazilərdə yağış sularının idarə olunması məqsədilə müxtəlifölçülü yağış kollektorları inşa edilmişdir. Hazırda Bakı şəhərində 28, Sumqayıt şəhərində isə 22 yağış kollektoru fəaliyyət göstərir. Lakin onların əksəriyyəti artıq istismar müddətini başa vurmuş və qəzalı vəziyyətdədir. Eyni zamanda yağış kollektorlarının müxtəlif təyinatlı tikililərlə zəbt olunması kollektorların səmərəli fəaliyyətinə mənfi təsir göstərir. Yağış suları kollektorlarının kanalizasiya kollektorlarına birləşdirilməsi intensiv yağıntılar zamanı artıq daşımalara səbəb olur və sistemin effektivliyini azaldır.

Bakı şəhərində və Abşeron yarımadasında su və kanalizasiya infrastrukturu sahəsində aparılan genişmiqyaslı işlər tullantı suları sistemlərindəki problemlərin həlli istiqamətində mühüm addımlardır. Eyni zamanda mövcud şəbəkələrin yenidən qurulması və təkmilləşdirilməsi hələ də prioritet olaraq qalır və davamlı su təchizatı ilə ekoloji dayanıqlığın təmin olunması üçün strateji əhəmiyyət daşıyır.

## 4. Hədəf göstəriciləri

4.1. Dövlət Proqramında qarşıya qoyulan tədbirlərin həyata keçirilməsi nəticəsində aşağıdakı hədəflərə nail olunması nəzərdə tutulur:

4.1.1. su mənbələrinin dayanıqlığının təmin edilməsi;

4.1.2. su anbarlarının inkişaf etdirilməsi;

4.1.3. supaylayıcı şəbəkələrin yenilənməsi və inkişaf etdirilməsi;

4.1.4. suyun uçotu sisteminin təkmilləşdirilməsi;

4.1.5. yağış və tullantı suları sistemlərinin yenilənməsi və inkişaf etdirilməsi;

4.1.6. alternativ su mənbələrinin istifadəyə cəlb edilməsi.

4.2. Dövlət Proqramının icrasına nailolma səviyyəsinin göstəricisi qismində aşağıdakı hədəf göstəriciləri müəyyən edilmişdir:

4.2.1. su mənbələrinin dayanıqlığının təmin edilməsi üzrə:

4.2.1.1. su mənbələrinin bərpası nəticəsində istehsal gücünün saniyədə 30 $m^3$-ə çatdırılması;

4.2.1.2. mövcud suötürücü qurğuların kompleks şəkildə yenidən qurulması və 5 yeni infrastruktur obyektinin yaradılması;

4.2.2. su anbarlarının inkişaf etdirilməsi üzrə:

4.2.2.1. xidmət ərazisində 28 yeni su anbarının tikintisi;

4.2.2.2. içməli suyun zərərsizləşdirilməsi sistemlərinin tam müasirləşdirilməsi;

4.2.3. supaylayıcı şəbəkələrin yenilənməsi və inkişaf etdirilməsi üzrə:

4.2.3.1. mövcud şəbəkələrin genişləndirilməsi və tam yenilənməsi;

4.2.3.2. Bakı, Sumqayıt, Xırdalan və 64 yaşayış məntəqəsində su təchizatında fasiləsizlik səviyyəsinin 95 faizə çatdırılması və dayanıqlığın təmin olunması;

4.2.4. suyun uçotu sisteminin təkmilləşdirilməsi üzrə:

4.2.4.1. sayğaclaşdırma səviyyəsinin 100 faizə çatdırılması;

4.2.4.2. su itkilərinin 20 faizdən aşağı salınması;

4.2.5. yağış və tullantı suları sistemlərinin yenilənməsi və inkişaf etdirilməsi üzrə:

4.2.5.1. 12 yeni kollektorun tikintisi, 3 mövcud kollektorun bərpası;

4.2.5.2. tullantı sutəmizləyici 9 yeni qurğunun tikintisi;

4.2.5.3. 30 küçədə yeni yağış və tullantı su şəbəkəsinin tikintisi;

4.2.6. alternativ su mənbələrindən istifadə üzrə:

4.2.6.1. Hövsan qəsəbəsində təmizlənmiş tullantı sularından təkrar istifadə imkanlarının təmin edilməsi;

4.2.6.2. dəniz suyunun duzsuzlaşdırılması ilə əlaqədar illik 100 milyon $m^3$ içməli su təminatının yaradılması;

4.2.6.3. Bakı Metropoliteni stansiyalarında və digər ərazilərdə formalaşan qrunt sularından istifadəyə dair 3 pilot layihənin həyata keçirilməsi.

## 5. Dövlət Proqramının məqsədləri

5.1. Dövlət Proqramının məqsədləri aşağıdakılardır:

5.1.1. su təchizatının dayanıqlığının artırılması, alternativ su mənbələrinin yaradılması və infrastrukturun yenilənməsi;

5.1.2. su və kanalizasiya şəbəkələrinin genişləndirilməsi;

5.1.3. yağış suları risklərinin aradan qaldırılması;

5.1.4. tullantı su infrastrukturunun təkmilləşdirilməsi və ekoloji vəziyyətin yaxşılaşdırılması;

5.1.5. su sektorunda rəqəmsal idarəetmə, SCADA (nəzarətçi idarəetmə və məlumatların toplanması) və IoT (əşyaların interneti) sistemlərinin tətbiqi;

5.1.6. su itkisinin idarə edilməsinin effektiv monitorinqinin təmini.

## 6. Dövlət Proqramının prioritet istiqamətləri

6.1. Dövlət Proqramında aşağıdakı prioritet istiqamətlər müəyyən edilmişdir:

6.1.1. su təchizatı və tullantı sularının idarə olunması sistemlərinin inkişafı və dayanıqlığının təmini;

6.1.2. su sektorunda təbii fəlakət risklərinin və ekoloji dayanıqlığın idarə edilməsinin təmini;

6.1.3. su sektorunda innovasiya və rəqəmsallaşma.

6.2. Bu prioritet istiqamətlər üzrə məqsədlərə aşağıdakı tədbirlər vasitəsilə nail olunması nəzərdə tutulur:

**6.2.1. su təchizatının dayanıqlığının artırılması, alternativ su mənbələrinin yaradılması və infrastrukturun yenilənməsi:**

**6.2.1.1. əsaslandırma:**

Bakı şəhərində və Abşeron yarımadasında mövcud su təchizatı infrastrukturu, əsasən, köhnə və istismara yararsız vəziyyətdədir. Magistral su kəmərləri, paylayıcı şəbəkələr və su anbarları bir sıra hallarda texniki cəhətdən qüsurludur. Bu, su itkilərinin artmasına, təchizatın fasiləli olmasına və suyun keyfiyyətinin aşağı düşməsinə səbəb olur. Bundan əlavə, sənaye və iqtisadi zonalarda su təchizatının dayanıqlığı, həmçinin yeni yaşayış ərazilərinin perspektiv inkişafı üçün alternativ su mənbələrinin istifadəsi vacibdir;

**6.2.1.2. görüləcək tədbirlər:**

6.2.1.2.1. Bakı şəhərində və Abşeron yarımadasında köhnəlmiş magistral və paylayıcı su kəmərlərinin yenidən qurulması;

6.2.1.2.2. mövcud nasaz xətlərin dəyişdirilməsi və müasir texnologiyaların tətbiqi;

6.2.1.2.3. yeni su anbarlarının və nasos stansiyalarının qurulması, mövcud sistemlərin müasirləşdirilməsi;

6.2.1.2.4. subartezian quyularının bərpası və yeni nasosların quraşdırılması;

6.2.1.2.5. Samur Abşeron kanalının xidmət sahələrində suvarma suyu təminatının yaxşılaşdırılması və Ceyranbatan su anbarının dayanıqlı su ilə təmin olunması;

**6.2.1.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.1.3.1. 230 km magistral və 200 km paylayıcı su şəbəkəsinin yenilənməsi;

6.2.1.3.2. su itkilərinin 20 faizdən aşağı salınması;

6.2.1.3.3. su təchizatında fasiləsizlik səviyyəsinin 95 faizə çatdırılması və dayanıqlığın təmin olunması;

6.2.1.3.4. Samur Abşeron kanalı və Ceyranbatan su anbarı vasitəsilə suvarma suyu və texniki su təminatının dayanıqlığının artırılması;

**6.2.2. su və kanalizasiya şəbəkələrinin genişləndirilməsi:**

**6.2.2.1. əsaslandırma:**

Abşeron yarımadasının bir sıra yaşayış məntəqələrində məişət suyu təminatı, kanalizasiya sistemi və alternativ su mənbələri kifayət qədər inkişaf etməyib. Məhəllədaxili və binadaxili su şəbəkələrinin köhnəlməsi, sayğac əsaslı uçot sisteminin tam başa çatmaması və kanalizasiya infrastrukturunun məhdudluğu əhalinin su ilə fasiləsiz təminatına və tullantı sularının idarə olunmasına mənfi təsir göstərir. Su təchizatının dayanıqlığının artırılması, itkilərin azaldılması və fasiləsiz xidmətin təmin edilməsi üçün mövcud infrastrukturun müasirləşdirilməsi və yeni texnologiyaların tətbiqi vacibdir;

**6.2.2.2. görüləcək tədbirlər:**

6.2.2.2.1. Sumqayıt şəhərində yaşayış məntəqələrinin su və kanalizasiya ilə tam təmin olunması;

6.2.2.2.2. məhəllədaxili və binadaxili su təchizatı sistemlərinin yenidən qurulması və sayğac əsaslı uçot sistemlərinin tətbiqi;

6.2.2.2.3. Bakı Ağ Şəhər ərazisində əhalinin fasiləsiz içməli su və kanalizasiya xidmətlərinə çıxışının artırılması;

6.2.2.2.4. Abşeron yarımadasının 64 yaşayış məntəqəsində su təchizatı və kanalizasiya sistemlərinin qurulması;

**6.2.2.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.2.3.1. məişət və kanalizasiya xidmətləri ilə əhatə olunan əhali sayının artması;

6.2.2.3.2. məhəllədaxili və binadaxili su şəbəkələrinin 80 faizdən çoxunun yenilənməsi;

6.2.2.3.3. sayğac əsaslı su uçotu sistemlərinin tətbiqi ilə su istehlakının effektiv idarə olunması;

**6.2.3. yağış suları risklərinin aradan qaldırılması:**

**6.2.3.1. əsaslandırma:**

Abşeron yarımadasında intensiv urbanizasiya, köhnəlmiş infrastruktur və iqlim dəyişikliyi səbəbindən yağış riskləri yüksək səviyyədədir. Kanalizasiya sistemi olmayan ərazilərdə suyun yığılması subasma hallarını artırır, şəhər və kənd ərazilərində infrastruktura, yaşayış evlərinə və ətraf mühitə zərər vurur. Sel və daşqınların idarə olunması üçün müasir texnologiyaların tətbiqi, yağış sularının effektiv toplanması və paylanması sistemlərinin inkişafı vacibdir;

**6.2.3.2. görüləcək tədbirlər:**

6.2.3.2.1. subasma risklərinin azaldılması və kanalizasiya sistemi olmayan ərazilərdə şəbəkələrin genişləndirilməsi;

6.2.3.2.2. intensiv yağışlar zamanı Abşeron yarımadasının subasmaya məruz qalan ərazilərində yağış sularının idarə olunması;

6.2.3.2.3. ərazidəki mövcud kanalizasiya sistemlərinin səmərəliliyinin yüksəldilməsi;

**6.2.3.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.3.3.1. subasmaya məruz qalan ərazilərin sayının 30 faizdən çox azaldılması;

6.2.3.3.2. yağış sularının toplanması və idarə olunması üzrə 20 km-dən çox yeni kollektor şəbəkələrinin qurulması;

6.2.3.3.3. sel və daşqın risklərinin idarə olunması nəticəsində əhalinin həyat və mülkiyyət təhlükəsizliyinin təmin edilməsi;

**6.2.4. tullantı su infrastrukturunun təkmilləşdirilməsi və ekoloji vəziyyətin yaxşılaşdırılması:**

**6.2.4.1. əsaslandırma:**

Bakı şəhərində və Abşeron yarımadasında mövcud tullantı su infrastrukturunun bir qismi köhnəlmiş və istismara yararsızdır. Sutəmizləyici qurğuların və kanalizasiya sistemlərinin texniki vəziyyəti səmərəliliyi aşağı salır, tullantı sularının ekoloji təsiri artır və Xəzər dənizi (gölü) daxil olmaqla ətraf mühitin vəziyyətinə mənfi təsir göstərir. İnfrastrukturun müasirləşdirilməsi, sutəmizləmə gücünün artırılması və tullantı sularının idarə olunmasında yeni texnologiyaların tətbiqi vacibdir;

**6.2.4.2. görüləcək tədbirlər:**

6.2.4.2.1. Bakı şəhərinin qəsəbələrində kanalizasiya sistemlərinin yenilənməsi və mövcud sutəmizləyici qurğuların müasirləşdirilməsi;

6.2.4.2.2. Maştağa, Ramana, Binə, Qala, Zirə, Türkan, Dübəndi, Gürgan və Hövsan qəsəbələrində tullantı sularının idarə olunması sistemlərinin qurulması;

6.2.4.2.3. Mərdəkan, Şağan, Şüvəlan, Qala və Buzovna qəsəbələrində tullantı sularının idarə olunması və sahilboyu ekoloji tarazlığın qorunması;

6.2.4.2.4. Sahil, Sanqaçal və Ümid qəsəbələrində tullantı sularının idarə olunması və sahilboyu ekoloji tarazlığın bərpası;

6.2.4.2.5. Ələt Azad İqtisadi Zonası, Ələt, Qobustan və Şıxlar qəsəbələrində tullantı sularının idarə olunması sistemlərinin yaradılması;

6.2.4.2.6. mövcud tullantı su infrastrukturunun yenidən qurulması;

**6.2.4.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.4.3.1. tullantı sularının idarə olunmasında sutəmizləyici qurğuların məhsuldarlığının 50 faizdən çox artırılması;

6.2.4.3.2. Xəzər dənizinə (gölünə) axıdılan çirkli suların keyfiyyətinin yaxşılaşdırılması;

6.2.4.3.3. ümumi uzunluğu 16 km olan gətirici kollektorun tikintisinin tamamlanması;

6.2.4.3.4. 20 yaşayış məntəqəsində tullantı sularının idarə olunması sistemlərinin qurulması və səmərəliliyinin artırılması;

6.2.4.3.5. sahilboyunun və göllərin ekoloji vəziyyətinin yaxşılaşdırılması;

6.2.4.3.6. təmizlənmiş tullantı sularından təkrar istifadə yolu ilə su resurslarından səmərəli istifadənin artırılması;

**6.2.5. su sektorunda rəqəmsal idarəetmə və SCADA/IoT sistemlərinin tətbiqi:**

**6.2.5.1. əsaslandırma:**

Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı və tullantı sularının idarə olunması infrastrukturunun dayanıqlığını və səmərəliliyini artırmaq üçün rəqəmsal texnologiyaların tətbiqi vacibdir. SCADA/IoT sistemləri su anbarlarının, nasos stansiyalarının və paylayıcı şəbəkələrin real vaxt rejimində monitorinqini və idarə olunmasını təmin edir. Bu texnologiyalar su itkisini azaltmaq, təchizatın fasiləsizliyini artırmaq və fəlakət risklərinə operativ reaksiya vermək imkanlarını genişləndirir;

**6.2.5.2. görüləcək tədbirlər:**

6.2.5.2.1. Bakı şəhərində və Abşeron yarımadasında mövcud su təchizatı və tullantı su infrastrukturuna SCADA/IoT sistemlərinin inteqrasiyası;

6.2.5.2.2. suyun keyfiyyətinin və təhlükəsizliyinin təmin olunması, qəza-bərpa işlərinin çevikliyinin artırılması;

6.2.5.2.3. su təsərrüfatı sistemlərinin istismarının və təhlükəsizliyinin təkmilləşdirilməsi;

6.2.5.2.4. tikinti-quraşdırma işlərində keyfiyyət və texniki nəzarətin gücləndirilməsi;

6.2.5.2.5. su infrastrukturunun Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planına uyğunlaşdırılması;

**6.2.5.3. Gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.5.3.1. su təchizatı və kanalizasiya xidmətlərinin idarə olunması və monitorinq imkanlarının tam müasirləşdirilməsi;

6.2.5.3.2. suyun keyfiyyətinə nəzarətin yüksəldilməsi və təhlükəsizlik göstəricisinin 98 faizə çatdırılması;

6.2.5.3.3. tikinti və istismar işlərində keyfiyyətin 95 faizdən yuxarı olması, texniki normativlərə uyğunluğun 98 faizə çatdırılması;

6.2.5.3.4. su risklərinə reaksiya müddətinin 50 faizdən çox qısaldılması;

**6.2.6. su itkisinin idarə edilməsinin effektiv monitorinqinin təmini:**

**6.2.6.1. əsaslandırma:**

Bakı şəhərində və Abşeron yarımadasında içməli su təchizatında su itkisi hələ də yüksək səviyyədədir. Köhnəlmiş magistral və paylayıcı su kəmərləri, nasaz avadanlıq və məişətdə su istifadəsində monitorinqin olmaması nəticəsində sudan səmərəli istifadə təmin edilmir. Su itkisi səviyyəsinin azaldılması üçün itki idarəetmə sistemlərinin tətbiqi vacibdir. Bu sistemlər su axınlarını real vaxt rejimində izləməklə, sızmaların və itkilərin operativ aşkarlanmasına və aradan qaldırılmasına imkan verir;

**6.2.6.2. görüləcək tədbirlər:**

6.2.6.2.1. itki idarəetmə üzrə kadrların hazırlanması və ixtisasartırma təlimlərinin təşkili;

6.2.6.2.2. su itkisi üzrə ictimai maarifləndirmə kampaniyalarının keçirilməsi və istehlakçıların məsuliyyətinin artırılması;

**6.2.6.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.6.3.1. təlim keçmiş heyətin praktiki bacarıqlarının yüksəlməsi;

6.2.6.3.2. su itki idarəetməsində səmərəliliyin azı 15 faiz artırılması;

6.2.6.3.3. su itkisi sahəsində ictimai məlumatlılıq səviyyəsinin azı 40 faiz yüksəlməsi;

6.2.6.3.4. qeyri-məhsuldar su sərfinin 10 faiz azalması.

6.3. Bu hissənin 6.2-ci bəndində göstərilən prioritet istiqamətlər üzrə Dövlət Proqramının icrası prosesində aşağıdakı risklərin mövcud olacağı gözlənilir. Risklərin vaxtında müəyyən edilməsi və onların neytrallaşdırılması tədbirlərinin görülməsi həmin risklərin minimuma endirilməsinə və proqramın hədəflərinə nail olunmasına imkan verəcəkdir:

**6.3.1. maliyyələşmə ilə bağlı risklər:**

Su təchizatı və tullantı sularının idarə olunması üzrə iri infrastruktur layihələrinin icrası yüksək maliyyə tutumu tələb etdiyindən, maliyyələşmə mənbələrinin məhdudluğu proqramın icrasına mənfi təsir göstərə bilər. Bu riskin neytrallaşdırılması məqsədilə dövlət büdcəsi ilə yanaşı, beynəlxalq maliyyə institutları ilə və donor təşkilatlarla əməkdaşlıq gücləndiriləcək, alternativ maliyyə mənbələri cəlb ediləcəkdir;

**6.3.2. tikinti və infrastruktur layihələrinin icrası ilə bağlı risklər:**

Layihələrin texniki çətinlikləri, təchizat zəncirində yaranan problemlər və icra qrafiklərindəki gecikmələr nəticələrin vaxtında əldə edilməsinə mane ola bilər. Bu risklərin qarşısının alınması üçün layihələrin dəqiq planlaşdırılması, mərhələli monitorinq mexanizmlərinin qurulması, alternativ təchizat mənbələrinin müəyyən edilməsi və rəqəmsal monitorinq vasitələrinin tətbiqi nəzərdə tutulur;

**6.3.3. texniki və texnoloji risklər:**

Yeni texnologiyaların, o cümlədən SCADA/IoT sistemlərinin tətbiqi zamanı nasazlıqların, proqram təminatı xətalarının, sensor/avadanlıq uyğunsuzluqlarının və kibertəhlükələrin baş verməsi mümkündür. Bu riskləri minimuma endirmək üçün müasir və sınaqdan çıxmış texnologiyaların seçilməsi, təcrübəli mütəxəssislərin cəlb edilməsi, kadr hazırlığının gücləndirilməsi, texniki xidmətin mütəmadi həyata keçirilməsi və rəqəmsal sistemlərin test rejimində tətbiqi təmin ediləcəkdir;

**6.3.4. ekoloji və iqlim riskləri:**

İqlim dəyişiklikləri nəticəsində su ehtiyatlarının azalması, tullantı sularının ekosistemlərə mənfi təsiri və intensiv yağışların yaratdığı subasma təhlükəsi mövcud risklər sırasındadır. Bu risklərin aradan qaldırılması üçün alternativ su mənbələrinin istifadəyə verilməsi, ekoloji təsir qiymətləndirmələrinin aparılması, təmizləmə texnologiyalarının müasir standartlara uyğunlaşdırılması, suya qənaət tədbirlərinin həyata keçirilməsi və Abşeron yarımadasında subasma risklərinin monitorinqi nəzərdə tutulur;

**6.3.5. institusional və kadrlarla bağlı risklər:**

Su sektorunda idarəetmə, monitorinq və rəqəmsal sistemlərin tətbiqində ixtisaslı kadr çatışmazlığı, texniki bacarıqların məhdudluğu proqramın səmərəli icrasına mane ola bilər. Bu risklərin neytrallaşdırılması üçün kadr hazırlığı və ixtisasartırma proqramları genişləndiriləcək, SCADA/IoT və itki idarəetmə sistemləri üzrə təlimlər keçiriləcək, beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi təmin ediləcək, idarəetmə mexanizmləri gücləndiriləcəkdir.

## 7. Maliyyələşdirmə mexanizmləri

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası üçün tələb olunan maliyyə resurslarının ilkin olaraq dövlət-özəl əməkdaşlığı çərçivəsində, habelə beynəlxalq maliyyə institutlarının kredit və qrant mexanizmləri hesabına təmin olunması imkanları araşdırılacaqdır. Bu imkanlar mövcud olmadıqda, müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı dövlət orqanları üçün nəzərdə tutulmuş vəsait, büdcədənkənar mənbələr, eləcə də qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilməsi həyata keçiriləcəkdir.

Ardı 5-ci səh.



# Abşeron: altı "qara qızıl", üstü "yaşıl enerji"

**Azərbaycanda bərpaolunan enerji potensialının səmərəli istifadəsi istiqamətində həyata keçirilən mühüm layihələrdən olan "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası ölkənin enerji təhlükəsizliyinin gücləndirilməsi, karbon emissiyalarının azaldılması və "yaşıl enerji" strategiyasının icrası baxımından xüsusi əhəmiyyət daşıyır.**

Bu mənada stansiyanın iki gün öncə Prezident İlham Əliyevin iştirakı ilə "Gülüstan" sarayında baş tutan açılış mərasimini Azərbaycanın bərpaolunan enerji sahəsində atdığı ardıcıl və məqsədyönlü addımların növbəti nümayişi kimi qiymətləndirmək olar. Stansiyanın istismara verilməsi ölkənin enerji balansında "yaşıl enerji"nin payının artmasına və ətraf mühitə mənfi təsirlərin azalmasına böyük təsir göstərəcək. Layihə Azərbaycanın dayanıqlı inkişaf hədəflərinə uyğun olaraq uzunmüddətli iqtisadi və ekoloji faydalar təmin etməyi nəzərdə tutur.

Məlumat üçün bildirək ki, dünyanın ən böyük duzsuzlaşdırılmış su təchizatçısı olan "ACWA Power" şirkəti "yaşıl hidrogen" sənayesində novator və qlobal enerji keçidi üzrə liderdir. 2004-cü ildə Ər-Riyad şəhərində təsis edilmiş şirkət indiyəcən 4000-dən çox insanı işlə təmin edib. Hazırda şirkət Yaxın Şərq, Afrika, Mərkəzi Asiya və Cənub-Şərqi Asiyanın 143 ölkəsində fəaliyyət göstərir. Öz strategiyalarını BMT-nin iqlim hədəflərinə uyğunlaşdıran "ACWA Power" su resurslarından rasional istifadəni təmin etmək və ətraf mühitə təsiri minimuma endirmək üçün qlobal səviyyədə bərpaolunan enerji layihələrini həyata keçirir. Hətta Özbəkistanda şirkətə məxsus kollec fəaliyyət göstərir. Təhsil müəssisəsi sırf "yaşıl enerji" üzrə ixtisaslı mütəxəssislər hazırlayır.

Şirkətin Azərbaycanda həyata keçirdiyi əsas layihələrdən biri olan bu stansiyasının təməli 2022-ci ilin noyabrında qoyulub. Cəmi 3 il ərzində inşası tamamlanan stansiya Azərbaycanın "yaşıl enerji" sahəsindəki uğurlarından biri kimi qiymətləndirilir. Layihə çərçivəsində stansiyanın yerləşdiyi ərazilərdə geniş torpaq sahələri bərpaolunan enerji zonası kimi müəyyən edilib. Belə ki, Abşeron rayonunda 14,2, Xızıda isə 22,6 hektar olmaqla ümumilikdə 37 hektara yaxın ərazi külək enerjisi istehsalı üçün ayrılıb. Bu ərazilərdə müasir texnologiyalarla təchiz edilən və hər biri 6,5 MVt gücündə olan ümumilikdə 37 külək turbini quraşdırılıb. Onlardan 12-si Abşeronda, 25-i Xızıda yerləşir. Layihə çərçivəsində ölçü və müşahidə stansiyaları, eləcə də quşların mühafizəsinə yönəlmiş xüsusi sistemlər quraşdırılaraq ekoloji təhlükəsizliyin təmin edilməsinə xüsusi diqqət yetirilib.

## İlham ƏLİYEV: "...bundan sonrakı illərdə bərpaolunan enerji stansiyalarının Azərbaycanda tikintisi çox geniş vüsət alacaq"

Layihənin icrasına təxminən 340 milyon dollar həcmində xarici investisiya cəlb olunub ki, bu da Azərbaycanın enerji sektoruna beynəlxalq investorların artan marağının göstəricisi hesab edilir. Stansiyanın illik elektrik enerjisi istehsalı təqribən 1 milyard kilovat-saat səviyyəsində proqnozlaşdırılır. Bu isə hər il 220 milyon kubmetr təbii qaza qənaət edilməsinə və 400 min tondan artıq karbon qazı emissiyasının qarşısının alınmasına imkan verəcək.

"Xızı-Abşeron" "ACWA Power" tərəfindən Azərbaycanda inşa edilən ilk bərpaolunan enerji layihəsidir. Amma bu, ölkənin "yaşıl enerji" sektorunda son layihə olmayacaq. Şirkətin daha irihəcmli və strateji layihələri mövcuddur və Azərbaycan dövləti bu təşəbbüsləri tam dəstəkləyir. Dünyada bərpaolunan enerji sahəsində aparıcı şirkətlərdən olan "ACWA Power" Azərbaycanın əlaqədar qurumları ilə sıx əməkdaşlıq edərək yeni enerji və infrastruktur layihələrinin reallaşdırılmasında maraqlı olduğunu nümayiş etdirir. Belə layihələrdən biri də ölkəmizdə ilk dəfə həyata keçiriləcək Xəzər dənizinin suyunun duzsuzlaşdırılması layihəsidir.

Stansiyanın inşasında baş podratçı "Power China" şirkəti olsa da, Azərbaycan energetiklərinin əməyini danmaq olmaz. Bu faktı Prezident İlham Əliyev stansiyanın açılış mərasimindəki çıxışında xüsusi vurğulayıb: "Nəzərə alsaq ki, bundan sonrakı illərdə bərpaolunan enerji stansiyalarının Azərbaycanda tikintisi çox geniş vüsət alacaq, əlbəttə, Azərbaycan energetiklərinin fəaliyyəti daim yüksək səviyyədə olmalıdır. Yəni burada biz çox uğurlu beynəlxalq əməkdaşlıq nümunəsini görürük. Onu da bildirməliyəm ki, bundan sonra bərpaolunan enerji növlərinin yaradılması ilə daha çox xarici investorlar məşğul olacaqlar. Halbuki Azərbaycan şirkətləri də bu məsələyə maraq göstərməyə başlamışlar və artıq bir neçə günəş-elektrik stansiyasının tikintisinə də başlanmışdır".

"Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının istifadəyə verilməsi Azərbaycanın enerji istehsalında alternativ və ekoloji təmiz mənbələrin payının artırılmasına xidmət edir. Layihənin əsas əhəmiyyətli cəhətlərindən biri enerji təhlükəsizliyinin möhkəmləndirilməsidir. Külək enerjisindən əldə olunan elektrik enerjisi daxili tələbatın ödənilməsində mühüm rol oynayaraq ənənəvi enerji mənbələrindən asılılığın azalmasına şərait yaradacaq ki, bu da ölkənin uzunmüddətli enerji dayanıqlılığını təmin edən vacib amillərdəndir.

Stansiya ətraf mühitin qorunmsı baxımından çox mühüm üstünlüklərə malikdir. Külək enerjisi istixana qazları emissiyası yaratmayan təmiz enerji mənbəyidir. Ona görə də layihə Azərbaycanın iqlim dəyişmələri ilə mübarizə üzrə beynəlxalq öhdəliklərinə uyğun şəkildə karbon qazının azaldılmasına dəstək verir, ölkənin "yaşıl enerji" hədəflərinin reallaşmasında mühüm rol oynayır. Stansiya həm iqtisadi, həm də sosial faydalar verəcək. Əvvəla elektrik enerjisi istehsalında təbii qazdan istifadənin azalması onun ixrac imkanlarını genişləndirir. Digər tərəfdən, stansiya regionda yeni iş yerlərinin yaradılmasına və yerli infrastrukturun inkişafına xidmət edir. Ən əsası bu layihə xarici investorları Azərbaycana cəlb edir və müasir texnologiyaların ölkəyə gətirilməsinə şərait yaradır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## "Xızı-Abşeron" KES Azərbaycanın qlobal iqlim gündəliyinə sadiqliyini bir daha təsdiq edir

**Azərbaycan enerji potensialını çoxşaxəli və uzunmüddətli strategiya əsasında gücləndirir. Bu strategiya ölkənin regional və qlobal enerji təhlükəsizliyində rolunun möhkəmləndirilməsinə yönəlib. Xəzər hövzəsi ilə Avropa arasında körpü rolunu oynayan Azərbaycan regional əməkdaşlığı gücləndirir, yeni marşrutlar və formatlar təklif edir. Bu da ölkənin enerji potensialını regional təsir gücünə çevirir. Qaz ixracının coğrafiyasının genişlənməsi və həcmlərin artırılması ölkənin enerji potensialını yalnız iqtisadi deyil, həm də strateji nöqteyi-nəzərdən artırır.**



Milli Məclisin deputatı Nigar Məmmədova qəzetimizə açıqlamasında bildirib ki, son illər Azərbaycan enerji siyasətində yeni mərhələyə qədəm qoyub: "Günəş, külək və hidroenerji sahəsində böyük potensial mövcuddur. Xüsusilə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bölgələri "yaşıl enerji zonası" elan edilib. Xarici investorlarla imzalanmış müqavilələr əsasında ölkəmizdə iri külək və günəş-elektrik stansiyalarının tikintisi həyata keçirilir. Bu, həm daxili enerji balansını gücləndirir, həm də ixrac üçün daha çox qaz resursunun azad olunmasına imkan yaradır".

Deputat qeyd edib ki, yanvarın 8-də istismara verilən "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası da Azərbaycanın elektrik enerjisi istehsalında mənbələrin şaxələndirilməsinə xidmət edir. Külək enerjisinin sistemə daxil olması ölkənin enerji balansını daha dayanıqlı edir, iqlim və yanacaq risklərindən asılılığı azaldır. "Cənab Prezident də qeyd etdi ki, 240 meqavat gücündə olan stansiya ölkəmizin ümumi inkişafına öz töhfəsini verəcək. Azərbaycanın təkcə külək enerjisi potensialı 150 qiqavatdan çoxdur. Enerji təminatının sabitliyi baxımından vacib hesab olunan "Xızı-Abşeron" kimi nəhəng layihələr Azərbaycanın qlobal iqlim gündəliyinə sadiqliyini bir daha təsdiqləyir. Bu həm də Azərbaycanın xarici investorlar üçün etibarlı tərəfdaş imicini möhkəmləndirir. Dövlət başçısının da dediyi kimi, ölkəmizdə əlverişli investisiya mühiti var və Azərbaycan 300 milyard dollardan çox xarici sərmayə cəlb edə bilib. Prezident İlham Əliyev həmçinin bildirdi ki, Azərbaycanda bərpaolunan enerji növlərinin yaradılması xarici investorlar tərəfindən həyata keçirilən genişmiqyaslı layihələrlə bağlıdır. Həmin layihələrə bu günə qədər yüz milyonlarla dollar vəsait qoyulub", - deyə N.Məmmədova əlavə edib.

Deputat vurğulayıb ki, külək-elektrik stansiyası istismar dövründə istixana qazı emissiyalarını azaldır, ətraf mühitə yükü minimuma endirir və uzunmüddətli perspektivdə enerji istehsalının maya dəyərini aşağı salır: "Bu isə davamlı iqtisadi inkişaf üçün mühüm şərtdir. Azərbaycanda 2030-cu ilə qədər elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılması hədəflənib".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan beynəlxalq sərmayələr üçün etibarlı və strateji məkandır

## Regionda sülh mühiti formalaşdırması respublikamızın investisiya cəlbediciliyini daha da gücləndirib

**Xarici sərmayə qoyuluşunda meqa iqtisadi təməl sayılan "Əsrin müqaviləsi"nin imzalanmasından ötən 32 il ərzində ölkədə həyata keçirilən ardıcıl və düşünülmüş iqtisadi islahatlar, yaradılan əlverişli biznes mühiti Azərbaycanı beynəlxalq investisiyalar üçün cəlbedici məkana çevirib ki, burada sabit ictimai-siyasi şəraitin mövcudluğu vacib rol oynayır. Şərqlə Qərbin kəsişməsində, mühüm geostrateji mövqedə yerləşməsi və zəngin təbii resursları, nəqliyyat-logistika infrastrukturu ilə bağlı yaradılan hərtərəfli şəraiti ölkəmizin xarici investorların maraq dairəsinə düşməsinə birbaşa rəvac verib. Təsadüfi deyil ki, Azərbaycan bu gün uzunmüddətli və dayanıqlı beynəlxalq sərmayələr üçün etibarlı tərəfdaş ölkə kimi qəbul edir.**









"Ölkəmizdə gözəl investisiya iqlimi vardır. Biz ölkəmizə 300 milyard dollardan çox xarici sərmayə cəlb edə bilmişik. Bu gün ölkəmizin maliyyə vəziyyəti çox müsbətdir", - deyə yanvarın 8-də 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının rəsmi açılış mərasimi zamanı bildirən Prezident İlham Əliyev ölkəmizdə sözügedən istiqamətdə görülən işlərlə bağlı söylədi ki, bu sahədə aparılan islahatlar, əldə edilmiş uğurlar dünyanın aparıcı reytinq agentlikləri tərəfindən də qiymətləndirilir. Bu gün Azərbaycanın kredit reytinqi daha da artırılıb, investisiya və müsbət proqnozu olan reytinq səviyyəsinə qaldırılıb.

### Əlverişli siyasi-iqtisadi mühit

Ötən il dünyanın supergüc ölkəsinin rəhbəri Donald Trampın iştirakı ilə Ağ Evdə sülh sazişi mətninin paraflanması de-fakto bölgədə sülhü təmin edib. Bu mühüm siyasi hadisə Cənubi Qafqazda uzun illər davam edən gərginliyin aradan qaldırılması üçün real zəmin yaradıb və regionda təhlükəsizlik şəraiti formalaşdırıb. Bu həm də beynəlxalq investorlar üçün əsas şərtlərdən biri hesab olunan siyasi-iqtisadi mühitin əlverişliliyi anlamına gəlir.

Ümumiyyətlə, Azərbaycanın ənənəvi və qeyri-ənənəvi resurslarla zəngin geostrateji coğrafiyada yerləşməsi ona xarici ölkələrlə çoxşaxəli iqtisadi əməkdaşlıq üçün geniş imkanlar yaradır. Lakin o da həqiqətdir ki, təkcə sərvətlərin zənginliyi bunun üçün yetərli deyil və burada həm təhlükəsizlik və inkişaf vəd edən mühit, həm də etibarlı və güvənli tərəfdaş olmaq vacib rol oynayır. Azərbaycanı bu gün dünyanın böyük diqqət kəsb edən ölkəsinə çevirən də elə bu mühüm göstəricilərə malik olmasıdır.

Buna görə dünyanın əksər ölkələri respublikamızla siyasi-iqtisadi əlaqələr qurmağa böyük maraq göstərir ki, bunların arasında ABŞ və Çin kimi dünya nəhəngləri də var.

Şərqlə Qərbin, Şimalla Cənubun ortaq maraqlardan çıxış etdiyi mərkəz rolunu oynayan Azərbaycan nəqliyyat, enerji qovşağı kimi təkcə yerləşdiyi region deyil, daha geniş coğrafiya üçün strateji məkandır.

Regional sabitliyin möhkəmlənməsi Azərbaycanın iqtisadi inkişaf strategiyasına yeni mahiyyət və aktivlik qazandırıb. Enerji, nəqliyyat-logistika dəhlizləri, bərpaolunan enerji mənbələri və digər prioritet istiqamətlər xarici sərmayələr üçün geniş perspektivlər açıb. Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və quruculuq işlərinin xarici investisiya yatırımları üçün əlverişli zəmin yaratmasını da qeyd etməliyik.

### İlham ƏLİYEV: "Sözümüz imzamız qədər dəyərlidir və qanunidir"

Vurğuladığımız kimi, Azərbaycanın sülh səylərinin bəhrəsi olan regional sabitlik və təhlükəsizlik mühiti ölkəmizin iqtisadi potensialına olan etimadı daha da artırıb və uzunmüddətli investisiya layihələri üçün yeni imkanlar açıb. Ötən il 8 avqust tarixində ABŞ-də sülh sazişi mətninin paraflanmasının Azərbaycanın investisiya cəlbediciliyini xüsusilə gücləndirəcəyi də şübhəsizdir. Bu həm də ABŞ, Çin, eləcə də digər maraqlı ölkələrin investisiya yatırımları üçün daha çox Azərbaycana üz tutmalarının əsas səbəbidir.

Ölkəmizin əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında coğrafi bağlantı yaradan Zəngəzur dəhlizinin (TRIPP) açılması isə Azərbaycana olan beynəlxalq iqtisadi marağı birəbeş artırıb.

Prezident İlham Əliyevin ötən il Vaşinqtona etdiyi tarixi səfər çərçivəsində "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında strateji tərəfdaşlığa dair xartiyanın inkişaf etdirilməsi məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" imzalanıb. Azərbaycan-ABŞ strateji tərəfdaşlığı - enerji, ticarət və tranzitin də daxil olduğu regional bağlantılar, süni intellekt və rəqəmsal infrastrukturun da daxil olduğu iqtisadi sərmayə, müdafiə sahəsində satış, terrorizmə qarşı mübarizənin də daxil olduğu təhlükəsizlik sahəsində əməkdaşlıq kimi istiqamətləri əhatə edir.

Yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsi zamanı ölkəmizin başçısı söylədi ki, keçən ilin avqustunda Vaşinqtonda paraflanmış sülh sazişi, əlbəttə ki, investisiyalar üçün, xüsusilə Amerika Birləşmiş Ştatlarından gələn investisiyalardan danışdıqda böyük imkanlar açır: "Biz bunun üzərində fəal işləyirik. Eyni zamanda Azərbaycanın Birləşmiş Ştatlara yatırdığı investisiyaların artıq müəyyən tarixi var. Biz, əsasən, qiymətli kağızlara investisiya yatırmışdıq. Lakin indi, iki ölkə arasında olan münasibətlərin bu yeni mərhələsindən sonra biz real iqtisadiyyatın layihələrinə investisiya yatırmaq üçün müxtəlif seçimləri nəzərdən keçiririk".

Azərbaycan-Çin ikitərəfli münasibətləri də hazırda xeyli güclənib, hətta hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Bu, ölkələrimiz arasında ikitərəfli iqtisadi əlaqələrin inkişafına böyük təkan verib.

"İstər bizim tərəfimizdən, istərsə də Çin Xalq Respublikası tərəfindən biznes strukturlarına, dövlət strukturlarına əlaqələrimizi maksimum fəallaşdırmaq üzrə ciddi impuls verilib və biz bunu hətta qarşılıqlı səfərlərin, nümayəndələrin, artıq imzalanmış müqavilələrin sayında, o cümlədən investisiyaların nümunəsində də görürük",- deyə yerli televiziya kanallarına müsahibəsində dövlətimizin rəhbəri məlumat verdi ki, bu ölkə ilə əmtəə dövriyyəsi rekord həddə - 4 milyard dollara çatıb, hətta 20 faiz artaraq 4 milyard dolları da keçib.

O cümlədən Avropa ölkələri Azərbaycana investisiya yatırmaqda maraqlıdırlar.

Azərbaycan Mərkəzi Bankından ötən ilin dekabrında verilən məlumata görə, sözügedən ilin yanvar-sentyabr aylarında xarici rezidentlər ölkəyə 4 milyard 736 milyon dollar birbaşa investisiya yatırıb ki, burada birinci yeri 1 milyard 243 milyon dollarla Böyük Britaniya tutub. Bu nümunənin özü Avropa ölkələrinin investisiya yatırımı üçün Azərbaycana mühüm əhəmiyyət verməsinin göstəricisidir.

Bütün bunlar Azərbaycanın sərmayə qoyuluşu üçün əlverişli məkan olmasını göstərən faktlardır. Ölkəmizin dünyanın investisiya xəritəsində mövqelərinin güclənməsində mühüm rol oynayan bu şərtin formalaşdırılması isə heç şübhəsiz yaradılan siyasi, iqtisadi və sosial sabitlik şəraitinin mövcudluğu, etibarlı tərəfdaşlıqla əlaqədardır.

Yanvarın 8-də Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkəti tərəfindən inşa edilmiş 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının rəsmi açılış mərasimi zamanı Prezident İlham Əliyevin vurğuladığı kimi: "Azərbaycan dövləti xarici sərmayələri daim qoruyur, bizim bir çox neft kontraktlarımız artıq uzun illərdir icra edilir və qəbul edilmiş qərarlarda, kontraktlarda bir dənə də olsun nəinki paraqraf, nəinki maddə, hətta bir söz də dəyişilmir və dəyişilməyəcək. Bu da xarici investorları ölkəmizə cəlb etmək üçün çox vacib bir amildir. Çünki Azərbaycan etibarlı dövlətdir. Sözümüz imzamız qədər dəyərlidir və qanunidir".

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Arzu Əliyeva və Alena Əliyeva Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsini ziyarət ediblər





Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Alena Əliyeva Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsinin Görmə qabiliyyəti məhdud şəxslər üçün sosial reabilitasiya və bərpa şöbəsini ziyarət ediblər. AZƏRTAC xəbər verir ki, əvvəlcə qonaqlar uşaqların iştirakı ilə təşkil olunan kiçik bədii-musiqili çıxışları izləyiblər. Sonra şöbənin fəaliyyəti ilə yaxından tanış olub, həkim, psixoloq, fəza oriyentasiyası otaqlarına baxış keçiriblər.

Ziyarət zamanı həmçinin uşaqlar hazırladıqları əl işlərindən ibarət hədiyyələri qonaqlara təqdim ediblər.

Sonra birlikdə xatirə şəkli çəkdirilib.

# Dövlət başçıları diplomatiyası Azərbaycan-Çin əlaqələrinin inkişafı üçün tonu təyin edir

**Azərbaycan Prezidenti İlham Əliyev və Çin Xalq Respublikasının Sədri Si Cinpin arasında formalaşmış dövlət başçıları diplomatiyası iki ölkə əlaqələrinin inkişafı üçün tonu təyin edir.**



Bu fikri AZƏRTAC-a eksklüziv müsahibəsində siyasi şərhçi, "China Briefing" nəşrinin təsisçisi Şen Şivey bildirib.

"Dövlət başçıları diplomatiyası müasir dünyada həqiqətən böyük əhəmiyyət kəsb edir. Çünki indi böyük geosiyasi dəyişikliklərlə qarşılaşırıq, bəzi yerlərdə bir çox qarşıdurmalar görürük. Buna görə də belə bir şəraitdə dövlət başçıları diplomatiyası daha böyük rol oynayır. Hesab edirəm ki, Sədr Si Cinpin və Prezident İlham Əliyev arasında şəxsi dostluq iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlığın qurulmasına böyük töhfə verib", - deyən siyasi şərhçi bildirib ki, bu məsələdə 2 məqam var. Birincisi, dövlət başçıları diplomatiyası iki ölkənin əlaqələrinin inkişafı üçün tonu təyin edir. Başqa sözlə, dövlət başçıları iki ölkə münasibətlərinin hansı istiqamətlərdə irəli aparılacağını və əməkdaşlıq baxımından nəyin prioritet olduğunu müəyyən edirlər. İkincisi, dövlət başçılarının razılaşmaları həm də yuxarıdan aşağıya istiqamətlənmə deməkdir. Yəni hər 2 ölkənin bütün dövlət qurumları, mərkəzi və yerli orqanları, məsul şəxslər artıq əməkdaşlıq üçün prioritet istiqamətləri öyrənmiş olurlar. Beləliklə, dövlət başçıları diplomatiyası iki ölkə arasında əməkdaşlıq layihələrinin icrasına yol açır.

Ötən ilin Azərbaycan ilə Çin arasında münasibətlər üçün çox mühüm və səmərəli il olduğunu vurğulayan Şen Şivey deyib: "Bu, ilk növbədə, dövlət başçılarının diplomatiyası ilə bağlıdır. Belə ki, Prezident İlham Əliyevin ötən ilin aprelində Çinə dövlət səfəri baş tutub. Azərbaycan Prezidenti il ərzində Çinə daha bir səfər edərək, Şanxay Əməkdaşlıq Təşkilatının Tiencin sammitində iştirak edib. Mən də həmin sammitdə iştirak edirdim və bütün bu səmərəli nailiyyətlərin şahidi oldum. Həmin səfərlər ölkələrimizin münasibətlərinin müxtəlif sahələrdə irəli aparılması üçün böyük əhəmiyyətə malikdir".

# Tarixən neft və qaz nəhəngi Azərbaycan bu gün sürətlə bərpaolunan enerji liderinə çevrilir

**Bərpaolunan enerji sahəsində Azərbaycan və Pakistan arasında əməkdaşlıq yalnız gözlənilən deyil, iqlim dəyişikliyi ilə mübarizə və enerji təhlükəsizliyinin təmin olunması istiqamətində ortaq təcili ehtiyacdan qaynaqlanan real proses kimi davam edir.**



Bu sözləri AZƏRTAC-a məxsusi açıqlamasında Dayanıqlı İnkişaf üçün Kəmər və Yol Təşəbbüsünün (BRISD) sədri, pakistanlı ekspert Qaiser Navab deyib.

O qeyd edib ki, Azərbaycan Şərqlə Qərb arasında "yaşıl enerji" körpüsü mövqeyini sürətlə möhkəmləndirir. Bu istiqamətdə hər iki ölkə arasında texniki və infrastruktur əməkdaşlığı gözlənilir. Pakistan öz elektrik şəbəkəsinin modernləşdirilməsi və bağlantı layihələrini bu dəhlizə uyğunlaşdıraraq, uzunmüddətli perspektivdə Cənubi Asiya enerji şəbəkələrinin bu xəttə qoşulmasını mümkün edə bilər. Bu, Mərkəzi Asiyadan başlayaraq Bakıdan keçən və gələcəkdə daha geniş regionları əhatə edən transregional enerji şəbəkəsinin yaradılması deməkdir. Bir digər istiqamət isə Günəş və dənizdə külək enerjisi sahəsində birgə müəssisələrdir. Hazırda Xəzər dənizində külək texnologiyalarını mənimsəyən Azərbaycanın enerji şirkətləri Pakistan şirkətləri ilə tərəfdaşlıq edə bilər. Burada əsas gözlənti texnologiya transferi və Bakının inkişaf etməkdə olan "yaşıl enerji" sektorundan Pakistanın bərpaolunan enerji infrastrukturuna birbaşa investisiyalardır. Nəhayət, gələcəyə yönəlik ən perspektivli sahələrdən biri "yaşıl hidrogen"dir. Hər iki ölkə bunu gələcəyin yanacağı kimi qəbul edib. Azərbaycanın zəngin külək potensialı və Pakistanın güclü Günəş resursları əsasında "yaşıl hidrogen"in tədqiqi, istehsalı və ixrac strategiyaları üzrə əməkdaşlıq qurula bilər. Bu, qlobal dekarbonizasiya tendensiyası ilə tam uyğunluq təşkil edir.

"Azərbaycan öz taleyini yenidən yazır. Tarixən neft və qaz nəhəngi olan ölkə bu gün surətlə bərpaolunan enerji liderinə çevrilir. Xəzər dənizində külək enerjisi potensialı dünya səviyyəsindədir və 157 qiqavat həcmində qiymətləndirilir. Avropaya "yaşıl enerji" ixracına yönəlmiş dövlət siyasəti göstərir ki, Azərbaycan irimiqyaslı layihələri həyata keçirmək üçün həm siyasi iradəyə, həm də maliyyə imkanlarına malikdir. Ölkə fəal şəkildə yeni investisiya istiqamətləri axtarır və Pakistan bu baxımdan ideal namizəddir. Digər tərəfdən, Pakistan nəhəng və enerji aclığı olan bir bazar təqdim edir. Enerji tələbatımız sürətlə artır və idxal olunan fosil yanacaqlardan asılılıq yükündən xilas olmağa ciddi ehtiyacımız var. Biz təbii resurslara malikik, səhralarımızın yandırıcı Günəşi və şimal bölgələrimizin coşqun suları var. Lakin bu potensialı tam reallaşdırmaq üçün uzun müddət ardıcıl investisiya və qabaqcıl texniki biliklərdən məhrum olmuşuq. Azərbaycanın formalaşmaqda olan texniki ekspertizası və kapital imkanları isə Pakistanın bazar ölçüsü və təbii resursları ilə birləşəndə, güclü bir tərəfdaşlıq yaranır. Bu əməkdaşlıq sayəsində Pakistan idxal xərclərini azalda, Azərbaycan isə investisiya portfelini şaxələndirə bilər. Düşünürəm ki, çətin zamanlarda sınaqdan çıxmış qardaşlıq indi iqlim dəyişikliyi sınağından da birlikdə keçməyə hazırdır", - deyə pakistanlı ekspert vurğulayıb.


bp

**bp Xəzər dənizinin Azərbaycan sektorunda Əşrəfi-Dan Ulduzu-Aypara sahəsinin kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişin əsasında fəaliyyət göstərən əməliyyat şirkəti kimi elan edir ki, Əşrəfi-Dan Ulduzu-Aypara (ADUA) layihəsi üçün seysmik tədqiqat proqramına aid Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi (ƏMTQ) sənədinin layihə variantını müzakirə etmək üçün ictimaiyyətlə onlayn görüş keçirəcək**

bp bütün maraqlı tərəfləri
**16 yanvar 2026-cı il tarixdə**
**saat 13:00-dan 15:00-dək**
"Microsoft Teams" vasitəsilə keçiriləcək
bu görüşdə iştirak etməyə dəvət edir.

ƏMTQ sənədlərinin layihə variantı və rəy formaları 26 dekabr 2025-ci il tarixdən bp-nin veb-səhifəsinə yerləşdirilmişdir.

Görüşdə proqram və sənəd haqqında təqdimatlar olacaq, auditoriyanın sualları cavablandırılacaq, irəli sürülən fikirlər və rəylər ətrafında müzakirə keçiriləcək. Rəy və təklifləri həmçinin esiafeedback@bp.com elektron ünvanına göndərməklə də təqdim etmək olar.

**Görüşə qoşulmaq üçün ətraflı təlimat,**
**keçid və QR kod** bp-nin veb-səhifəsində verilir.



Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 14.01.2026-cı il saat 23:00-dan etibarən 15.01.2026-cı il gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür. Təkmilləşdirmə işləri yekunlaşdıqdan sonra xidmətlərdən tam normal əsaslarla istifadə edilməsi imkanı təmin ediləcəkdir.


# Avropa dəhliz məsələsində Azərbaycan və Mərkəzi Asiyaya dəstək verməyə davam edəcək

**Azərbaycan Mərkəzi Asiya ölkələrinin Məşvərət Şurasına tamhüquqlu üzv qəbul edilməsi Avropaya yeni nəqliyyat dəhlizinin inkişaf edəcəyindən xəbər verir ki, bu dəhlizdən də Mərkəzi Asiya respublikaları istifadə edərək öz resurslarını dünya bazarına çıxarmaq imkanı qazanacaqlar. Ənənəvi olaraq Mərkəzi Asiya respublikaları Avropa ilə ticarət əlaqələrini şimal dəhlizi vasitəsi ilə qururdular.**



Bu sözləri AZƏRTAC-a açıqlamasında tacikistanlı politoloq, beynəlxalq münasibətlər üzrə ekspert Muhəmməd Şamsuddinov deyib.

Onun sözlərinə görə, Azərbaycan Orta dəhlizin mərkəzində yerləşir və bu təşəbbüsü bütün Mərkəzi Asiya dövlətləri dəstəkləyir.

"Onlar Avropa ilə nəqliyyat əlaqələrini diversifikasiya etməkdə maraqlıdır və Rusiya ərazisindən asılılıqdan yaxa qurtarmaq istəyirlər. Orta dəhliz xarici aktorlar tərəfindən də dəstəklənir. Həm ABŞ, həm də Avropa İttifaqı bu layihəyə siyasi və maliyyə yardımı etmək niyyətindədir. Ötən ilin noyabr ayında Mərkəzi Asiya dövlət başçılarının Vaşinqtonda ABŞ Prezidenti Donald Tramp ilə görüşündə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycan Prezidentinin də bu görüşə dəvət olunmasının vacibliyini qeyd etməsi təsadüfi xarakter daşımırdı. Çünki Azərbaycansız Mərkəzi Asiyanın dünya bazarına çıxışı mümkün deyil", - deyə ekspert nəzərə çatdırıb.

Ekspert vurğulayıb ki, 2025-ci ildə ABŞ Konqresində və Senatda Orta dəhlizin inkişafına dəstək verilməsi barədə çoxsaylı müzakirələr keçirilib. Müzakirələri onunla nəticələnib ki, Konqres Ağ Ev Administrasiyasına dəhlizi siyasi baxımdan da dəstəkləməyi tövsiyə edib: "ABŞ qanunvericilərinin yekun fikri ondan ibarət olub ki, Orta dəhliz Mərkəzi Asiya respublikalarının Rusiyadan asılılığına son qoymaqla yanaşı Avropa və ABŞ ilə iqtisadi ticarət əlaqələrini genişləndirəcək. Avropa İttifaqı 2022-ci ildə başlanan Rusiya-Ukrayna müharibəsindən sonra Rusiyadan nadir yer minerallarını idxal etməyi dayandırdı. Misal üçün, Avropa dövlətləri artıq Rusiyadan deyil, Mərkəzi Asiya respublikalarından uran idxal etməyə başlayıb. Mərkəzi Asiya uran ilə zəngin regiondur. Qazaxıstan qlobal uran bazarında ilk yeri tutur. Region digər təbii sərvətlər və resurslarla da zəngindir. Bu baxımdan Avropa dəhliz məsələsində Azərbaycana və Mərkəzi Asiyaya dəstək verməyə davam edəcək".

# İnkişaf edən Azərbaycan Qafqazın sülh ümididir

**Azərbaycan yerləşdiyi geostrateji mövqe, malik olduğu təbii və insan resursları baxımından Qafqazın ürəyi hesab edilir. Azərbaycanın əmin-amanlıq şəraitində inkişaf etməsi bütün region ölkələrində sülhün möhkəmlənməsində və rifahın artmasında çox böyük rol oynayacaq.**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Qafqaz Universitetləri Birliyinin rəhbəri, professor Ramazan Korkmaz ifadə edib.

Prezident İlham Əliyevin ötən ilin avqust ayında Vaşinqtona səfəri və bu səfər çərçivəsində qazanılan tarixi uğur haqqında danışan professor bildirib ki, o gün Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin paraflanması ilə yanaşı, Cənubi Qafqazda sülh, rifah və iqtisadi inkişafın təmin olunduğu elan edildi.

"Bu gün ABŞ-Azərbaycan münasibətləri yeni mərhələyə keçib. Bu münasibətlərin fonunda zamanın və tarixin bir dövrünün ən böyük ədalətsizliyi olan 907-ci düzəliş Konqres tərəfindən birdəfəlik ləğv edilməli, Azərbaycanın daha da inkişaf etməsi və tərəqqisi üçün yol açılmalıdır. Bölgənin gələcəyi üçün ən vacib məqamlardan biri də Zəngəzur dəhlizidir. Bu dəhlizin açılması Naxçıvanı Azərbaycanla birbaşa bağlayacağı kimi, başda Ermənistan olmaqla regionun iqtisadiyyatının inkişafına da güclü təkan verəcək. Bütün bu proseslərin uğurla nəticələnməsi üçün ABŞ-nin xoş niyyət jesti olaraq 907-ci maddəni qüvvədən salması və Azərbaycana qarşı tətbiq edilən bu haqsızlığa son verməsi zəruridir", - deyə professor vurğulayıb.

# Böyük qayıdış bu il də sürətlə davam edəcək

**Azərbaycan müasir tarixinin ən taleyüklü və şərəfli dövrlərindən birini yaşayır. Uzun illər davam edən işğala son qoyulması ilə ölkə təkcə ərazi bütövlüyünü bərpa etmədi, həm də milli ləyaqətini, siyasi iradəsini və dövlətçilik prinsipini real nəticələrlə təsdiqlədi. Bu qələbə yalnız hərbi uğur kimi deyil, xalqın birliyi, dövlətin gücü və beynəlxalq hüququn praktik müstəvidə bərqərar olunması baxımından tarixi hadisə kimi qiymətləndirilir. Məhz bu mərhələdən sonra Azərbaycan inkişafının yeni, daha məsuliyyətli mərhələsinə qədəm qoydu.**



Uzun illər dağıntılara və vandalizmə məruz qalmış Qarabağ və Şərqi Zəngəzurda bu gün həyat yenidən qurulur. Dövlət tərəfindən həyata keçirilən sistemli və mərhələli layihələr nəticəsində regionda bərpa və quruculuq işləri paralel şəkildə icra olunur, sosial və iqtisadi infrastruktur yenidən formalaşdırılır. Prezident İlham Əliyevin "Biz Böyük qayıdış proqramını uğurla icra edirik və işğaldan azad edilmiş ərazilərdə bu gün böyük quruculuq işləri aparılır" fikri bu prosesin mahiyyətini dəqiq ifadə edir.

İşğaldan azad edilmiş bölgələrin inkişafı ölkənin ümumi iqtisadi strategiyasının ayrılmaz hissəsidir. Qarabağ və Şərqi Zəngəzurun iqtisadi potensialının dövriyyəyə cəlb edilməsi üçün kənd təsərrüfatı sahəsində geniş imkanlar yaradılır. Tarixi ənənələrə əsaslanan üzümçülük, pambıqçılıq, tütünçülük, bağçılıq və heyvandarlıq sahələri yenidən dirçəldilir. Eyni zamanda sənaye zonalarının yaradılması, logistika mərkəzlərinin qurulması və nəqliyyat imkanlarının genişləndirilməsi regionu strateji iqtisadi məkana çevirir. Bu yanaşma ölkədə balanslı və dayanıqlı iqtisadi inkişaf modelinin möhkəmlənməsinə xidmət edir.

Bütün bu proseslərin mərkəzində isə "Böyük qayıdış" proqramı dayanır. Bu proqram yalnız fiziki infrastrukturun qurulmasını deyil, insanların öz doğma torpaqlarına təhlükəsiz, mərhələli və ləyaqətli şəkildə qayıdışını təmin etməyi hədəfləyir. Prezidentin işğaldan azad edilmiş ərazilərə mütəmadi səfərləri, görülən işlərə şəxsən nəzarət etməsi və sakinlərlə birbaşa ünsiyyəti Böyük qayıdışın insanyönümlü siyasət olduğunu açıq şəkildə göstərir.

Qayıdış prosesi təkcə evlərin tikintisi ilə məhdudlaşmır. Köçürülən ailələr üçün təhsil, səhiyyə, sosial xidmətlər, məşğulluq imkanları və psixoloji adaptasiya mexanizmləri yaradılır. Bu yanaşma insanların uzunmüddətli perspektivdə bölgədə sabit və təhlükəsiz həyat qurmasına imkan verir. 2022-2026-cı illəri əhatə edən sosial-iqtisadi inkişaf Strategiyası və Böyük Qayıdışa dair Birinci Dövlət Proqramı məhz bu məqsədlərə xidmət edir və beş milli prioritet əsasında icra olunur.

Son illər Böyük qayıdış prosesində ciddi irəliləyişlər qeydə alınıb. Xüsusilə ötən il bu baxımdan mühüm mərhələ kimi yadda qalıb. 2025-ci ildə Qarabağ və Şərqi Zəngəzurda 22 yeni yaşayış məntəqəsinə - 2 şəhər, 3 qəsəbə və 17 kəndə köç prosesi həyata keçirilib. Yeni ilin ilk günlərində də bu proses davam etdirilib. Yanvarın 9-da Ağdərə rayonunun Aşağı Oratağ, Heyvalı, Çapar və Çıldıran kəndləri ilk sakinlərinə qovuşub. İlk mərhələdə Aşağı Oratağ kəndinə 31 ailə - 119 nəfər, Çapar kəndinə 26 ailə - 96 nəfər, Heyvalı kəndinə 19 ailə - 74 nəfər, Çıldıran kəndinə isə 13 ailə - 48 nəfər qayıdıb.

Hazırda respublikanın müxtəlif bölgələrində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış insanlar mərhələli şəkildə öz doğma yurdlarına köçürülür. Bu günədək 6554 ailə, 25754 nəfər artıq Qarabağ və Şərqi Zəngəzurda məskunlaşıb. Ümumilikdə 7 şəhər, 3 qəsəbə və 26 kənd sakinlərini qarşılayıb. 2027-ci ilədək isə 91 yaşayış məntəqəsinə 96 minə yaxın şəxsin qayıdışı planlaşdırılır. Böyük qayıdışın birinci mərhələsi tamamlanana qədər isə 140 min nəfərin - 34 min 500 ailənin köçürülməsi nəzərdə tutulur.

Bu irimiqyaslı proseslərin maliyyə təminatı da dövlət tərəfindən tam şəkildə həyata keçirilir. 2020-2026-cı illər ərzində işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulmasına 30,5 milyard manat vəsait ayrılıb. Belə ki, 2020-2025-ci illərdə bərpa işlərinə 22,3 milyard manat, o cümlədən 18,5 milyard manatı investisiya xərcləri olmaqla vəsait ayrılıb. 2025-ci ildə 4,7 milyard manat, 2026-cı ildə isə 3,5 milyard manat vəsait nəzərdə tutulub. Ümumilikdə (2026-cı il daxil) məbləğ 30,5 mlrd manatdır. Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibəsində deyib ki, infrastruktur layihələri icra edildikcə evlərin tikintisinə daha böyük vəsait veriləcək. Amma hər şey ardıcıllıqla, baş plan əsasında həyata keçiriləcək. Bu layihələr reallaşdırılarkən tələskənliyə yol verilib, keyfiyyət unudulmamalıdır. "Biz həm tələsirik, həm də tələsməməliyik. Çünki bəzi hallarda tələskənliyə yol verərkən keyfiyyət uduzur. Yaxud da ki, hansısa işi keyfiyyətsiz edənlər deyirlər ki, bəs tələsmişəm, mən bunu filan tarixdə təhvil verməli idim. Mən hamıya dedim, bax ictimaiyyətə də deyə bilərəm ki, heç vaxt heç bir tarix qoymamışam. Bu il üçün də heç bir tarix qoymamışam. Nə vaxt hazır olacaq, o vaxt hazır olacaq. Amma hər şey gərək keyfiyyətli olsun və təbii ki, ictimai nəzarət də olmalıdır", - deyə dövlətimizin başçısı qeyd edib.

Azad edilmiş ərazilərdə infrastrukturun qurulması da sürətlə davam edir. Füzuli, Zəngilan və Laçında 3 beynəlxalq hava limanı artıq istifadəyə verilib. 3714,8 km-lik 65 avtomobil yolu layihəsi icra olunur, onların 441,5 kilometri tamamlanıb. Bərdə-Ağdam dəmir yolu xətti istifadəyə verilib, Horadiz-Ağbənd xətti 69 faiz, Ağdam-Xankəndi xətti isə 28,3 faiz icra olunub. Enerji və kommunal sahədə də mühüm işlər görülüb - 1000 km-dən çox yüksək gərginlikli elektrik xətləri, 6 magistral qaz xətti çəkilib, 31 yaşayış məntəqəsi qazlaşdırılıb.

Sosial infrastrukturun qurulması da diqqət mərkəzindədir. Zabuxçay su anbarı və magistral boru kəməri istifadəyə verilib, Şuşada 90 çarpayılıq Müalicə Sağlamlıq Mərkəzi fəaliyyətə başlayıb. Azad edilmiş ərazilərdə 21 məktəb, 14 məktəbəqədər müəssisə və çoxsaylı mədəniyyət obyektləri tikilib və bərpa olunub. Bununla yanaşı, Qarabağ və Şərqi Zəngəzurda 247 min hektardan çox ərazi minalardan təmizlənib ki, bu da təhlükəsiz yaşayış üçün əsas şərtlərdən biridir.

Bu gün Qarabağ və Şərqi Zəngəzurda formalaşan mənzərə Azərbaycanın inkişaf tarixində yeni bir səhifənin açıldığını göstərir. Burada qələbə quruculuqla, dağıntılar inkişafla, ağrılı keçmiş isə gələcəyə inamla müşahidə olunur. Yenidən dirçələn şəhər və kəndlər, yaradılan iqtisadi və sosial imkanlar dövlətin gücünü, xalqın birliyini və Azərbaycanın davamlı inkişaf yolunda inamla irəlilədiyini aydın şəkildə nümayiş etdirir.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Müstəqil və praqmatik xarici siyasət kursu

**Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb. Milli maraqlara uyğun reallaşdırılan xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlərini, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir.**



Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Cənubi Qafqazda yeni mənzərə yarandığını bildirən Milli Məclisin deputatı Sevinc Fətəliyeva qəzetimizə açıqlamasında qeyd edib ki, bu, dövlətimizin yaratdığı yeni reallıqlardan ibarətdir. Torpaqlarını işğaldan azad etdikdən sonra Azərbaycanın nəinki regionda, bütövlükdə, dünyada mövqeləri əhəmiyyətli dərəcədə güclənib. Bu amil beynəlxalq müstəvidə də mühüm rol oynayır. "Başa vurduğumuz 2025-ci ildə beynəlxalq münasibətlər sistemində artan geosiyasi gərginliklər, qlobal təhlükəsizlik arxitekturasında baş verən dəyişikliklər və qeyri-müəyyənliklər fonunda Azərbaycan müstəqil və praqmatik xarici siyasət kursunu uğurla davam etdirib. Belə ki, Azərbaycanın milli maraqlarının təmin olunması məqsədilə ölkəmiz dəyişən geosiyasi şəraitdə çevik, məsuliyyətli və konstruktiv diplomatiya həyata keçirərək ikitərəfli və çoxtərəfli münasibətlərində əməkdaşlıq mexanizmlərini gücləndirib, beynəlxalq səviyyədə nüfuzunu və təsir imkanlarını nəzərəçarpacaq dərəcədə artırıb. Tarixi qələbəmizin 5 illiyinin qeyd olunduğu 2025-ci ildə regionda dayanıqlı sülhün bərqərar edilməsi üçün yaranmış tarixi fürsətlərdən istifadə edərək, Azərbaycan və Ermənistan arasında suverenlik və ərazi bütövlüyü prinsipləri əsasında münasibətlərin normallaşdırılması ölkəmizin regiondakı siyasətinin əsas istiqamətlərindən biri olub", - deyə o əlavə edib.

Deputat 8 avqust 2025-ci ildə Azərbaycan, ABŞ və Ermənistan rəhbərlərinin iştirakı ilə Vaşinqtonda baş tutmuş Zirvə görüşündə Azərbaycan və Ermənistan liderləri tərəfindən, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən imzalanmış Birgə Bəyannamənin, "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş" layihəsinin paraflanması və digər razılaşmaların bölgəmizdə yeni geosiyasi reallıqların formalaşmasına, regionda dayanıqlı sülh və inkişaf üçün əlverişli şəraitin yaranmasına imkan verdiyini vurğulayıb.

Sevinc Fətəliyeva xatırladıb ki, Prezident İlham Əliyev də yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsi zamanı dövlətimizin uğurlu xarici siyasətindən bəhs edib: "Xüsusilə, dövlətimizin başçısı ötən il Vaşinqton razılaşmalarını, o cümlədən Azərbaycan-ABŞ münaibətlərini yüksək qiymətləndirib. Dövlətimizin başçısı ötən il ərzində 20-ə yaxın xarici ölkəyə səfər etdiyini bildirib, eləcə də bir çox dövlət və hökumət başçılarının Azərbaycana səfəri baş tutub. Prezident müsahibədə ölkəmizin Çinlə olan strateji tərəfdaşlığını xüsusi vurğulayaraq deyib: "Keçən il mənim Çinə dövlət səfərim zamanı Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanmışdır və bu da çox böyük uğur sayıla bilər. Çünki Çin də dünyada aparıcı ölkələrdən biridir və bu siyasi çərçivə, siyasi platforma, əlbəttə ki, bizim uğurlu diplomatiyamızın təzahürü sayıla bilər". Dövlət başçısı, eyni zamanda Azərbaycanın D-8 təşkilatına üzvülüyünü böyük nailiyyət adlandırıb".

Deputat xatırladıb ki, Azərbaycan 2024-cü il dekabrın 19-da Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammiti zamanı bu quruma üzv seçilib. Prezident İlham Əliyevin uğurlu xarici siyasətinin məntiqi nəticəsi olan D-8-ə üzvlüyümüz təşkilat yarandığı gündən ilk genişlənmə kimi əlamətdardır. Ötən il D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Bakıda keçirilən D-8 Həftəsi çərçivəsində komissarların qeyri-rəsmi iclası, iqlim və şəhərsalma üzrə nazirlər dialoqu, D-8 Media Forumu, eləcə də D-8 Gənclər Dialoqu təşkil olunub, təşkilatın strateji sənədlərində əks olunan prioritetlərə uyğun olaraq D-8 Enerji və İqlim Mərkəzi, D-8 Nəqliyyat Mükəmməllik Mərkəzi və D-8 Media Mərkəzinin Azərbaycanda yaradılması barədə razılıq əldə olunub. Tarix boyu Şərq ilə Qərb arasında körpü rolu oynamış, islam dünyasının əsas mədəni, dini və sivilizasiya mərkəzlərindən biri olan Azərbaycanın D-8 üzvlüyü, eyni zamanda islam həmrəyliyinin möhkəmlənməsində, islam dəyərlərinin dünyada təbliğində və islamofobiya ilə mübarizə sahəsində böyük töhfədir".

Deputatın fikrincə, ötən il xarici siyasətimizdə əsas uğurlardan biri də Azərbaycanın Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzv seçilməsidir: "Dövlət başçısı müsahibədə bu faktı nadir hadisə kimi dəyərləndirərək vurğulayıb. Deyib ki, coğrafi nöqteyi-nəzərdən biz Mərkəzi Asiyada yox, Cənubi Qafqazda yerləşirik. Ancaq Mərkəzi Asiya ölkələri ilə həm ikitərəfli, həm də çoxtərəfli formatlarda o qədər sıx əlaqələrimiz var və son illər o qədər çox layihələr icra edilir ki, artıq bu ölkələr yekdilliklə bizi tamhüquqlu üzv seçdilər. Biz bunu da böyük bir siyasi və diplomatik uğur hesab edə bilərik. 2025-ci il, həmçinin Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) və Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) sammitlərinin keçirilməsi və digər hadisələr də xarici siyasətimizin nailiyyətləri sırasındadır".

Sevinc Fətəliyeva vurğulayıb ki, bütövlükdə, 2025-ci ildə Azərbaycan dünyada sülh, təhlükəsizlik və dayanıqlı inkişafın təmin olunmasına öz müsbət töhfəsini verib və bu çərçivədə müvafiq müraciətlərə uyğun olaraq bir sıra ölkələr arasında diplomatik vasitəçilik missiyalarını həyata keçirib. Ötən il ölkəmiz həm də çoxtərəfli əməkdaşlığın təşviqi, qlobal çağırışlara çevik və effektiv reaksiyaların verilməsi, beynəlxalq yardım, iqtisadi əməkdaşlıq və iqlim diplomatiyası istiqamətində də səmərəli fəaliyyətini davam etdirib. Beləliklə, 2025-ci ili xarici siyasətimizin uğurları baxımından çox önəmli, hətta tarixi il kimi dəyərləndirə bilərik.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Bakıdan İrəvana uzanan sülh qatarı

## İqtisadi diplomatiya barışa və etimad quruculuğuna töhfə verə bilər

**Azərbaycan və Ermənistan arasında sülh prosesinin dönməz xarakter alması regionda iqtisadi münasibətlərin bərpası və ticarət potensialının reallaşdırılması üçün fundamental zəmin formalaşdırıb. Ötən il dekabrın 18-də Gürcüstan tranziti ilə 1200 ton neft məhsulunun ilk dəfə Bakıdan İrəvana çatdırılması ilə başlayan proses artıq daha genişmiqyaslı mərhələyə qədəm qoyub.**



2026-cı il yanvarın 9-da 1742 ton Aİ-95 markalı benzin və 956 ton dizel olmaqla, ümumilikdə 2 698 ton (ümumilikdə 48 vaqon) yük Biləcəri stansiyasından Ermənistana göndərilib. Ardınca yanvarın 11-də 979 ton Aİ-92 markalı avtomobil yanacağı yüklənmiş 18 vaqondan ibarət qatar Biləcəri stansiyasından Böyük Kəsik istiqamətinə göndərilib.

Ermənistana Gürcüstan ərazisindən neftin tədarükü sülh prosesi çərçiəvəsində Bakının İrəvana ilk humanitar jesti deyil. Prezident İlham Əliyev ötən il oktyabrın 21-də Qazaxıstanda səfərdə olarkən Azərbaycanın Ermənistana yük tranziti ilə bağlı işğaldan bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırdığını bəyan etmişdi. Məhz bu tarixi açıqlamanın ardından 30 ildən sonra 6 noyabr 2025-ci ildə ilk dəfə olaraq Qazaxıstandan ixrac olunan 1000 ton taxıl Azərbaycan ərazisindən keçməklə Ermənistana daşınmışdı. Sonrakı mərhələdə Rusiyadan 8 vaqondan ibarət qatarda 560 ton taxıl da ölkəmiz üzərindən Ermənistana çatdırılmışdı.

Ermənistanın iqtisadiyyat naziri Gevorq Papoyan 2025-ci ildə və 2026-cı ilin əvvəlində Azərbaycan vasitəsilə ölkəyə idxal olunan yüklərin həcmi ilə bağlı məlumat açıqlayıb. Papoyan sosial media hesabında bildirib ki, 2025-ci ildə Azərbaycan ərazisindən dəmir yolu ilə Ermənistana ümumilikdə 6580 ton taxıl daşınıb. Bunun 1000 tonu Qazaxıstan, 5580 tonu isə Rusiya mənşəlidir. Həmin dövrdə, həmçinin 1 210 ton Azərbaycan benzini Ermənistana çatdırılıb: "2026-cı il yanvarın 8-nə olan məlumata əsasən, Azərbaycan ərazisindən dəmir yolu ilə Ermənistana 8485 ton Rusiya taxılı daxil olub, əlavə olaraq 4103 ton taxıl hazırda yoldadır. Eyni zamanda 7600 ton Azərbaycan neft məhsulu daşınma mərhələsindədir. Bunun 6100 tonu benzin, 1500 tonu isə dizel yanacağıdır". Papoyan əlavə edib ki, bu proseslərin fonunda benzin və dizel yanacağının qiymətində əvvəlki ayla müqayisədə 1 litr üçün 80 drama qədər ucuzlaşma gözlənilir: "Yaranmış şərait digər yanacaq satışı ilə məşğul olan şirkətləri də qiymətləri aşağı salmağa təşviq edir".

Yaxın günlərdə Rusiyadan Ermənistana təxminən 1000 ton şəkər də idxal ediləcək. Ermənistan mediasının məlumatına əsasən, Rusiya şəkəri Azərbaycan üzərindən dəmir yolu vasitəsilə Ermənistana göndəriləcək.

Onu da qeyd edək ki, Azərbaycanın neft məhsullarının Ermənistana ixracı sırf kommersiya xarakterlidir və benzin beynəlxalq bazar qiymətlərinə uyğun satılır. İdxal əməliyyatları iki ölkə arasındakı kommersiya razılaşmalarına uyğun olaraq Ermənistanın iki özəl şirkəti tərəfindən həyata keçirilir. Ermənistanın Baş naziri Nikol Paşinyan bunu təsdiqləyərək vurğulayıb ki, Ermənistan və Azərbaycan potensial ticarət üçün malların siyahısını mübadilə edir və öyrənirlər. Baş nazirin sözlərinə görə, bazar əvvəlcədən araşdırılıb və bu fürsəti siyasi aksiyaya çevirməyəcək iş adamlarına təklif verilib: "Biz belə bir imkanın olduğunu dedik. Hər iki tərəfdən şirkətlər, səhv etmirəmsə, bizim tərəfimizdə iki şirkət var idi, əlaqə qurdular".

Azərbaycan yanacağının yerli iş adamlarına təklif edilməsi digər sahələr üçün də qapı açır. Bu strategiya göstərir ki, iqtisadi imkanlar zamanla erməni cəmiyyətində ideoloji qadağaları sıradan çıxaracaq və hər bir sahibkar regional resurslardan sərbəst yararlana biləcək. Ticarət mallarının siyahısının mübadilə edilməsi isə onu göstərir ki, növbəti mərhələdə tikinti materialları, kənd təsərrüfatı, elektrik enerjisi və digər sahələrdə də canlanma görə bilərik.

Bu fakt 2025-ci ilin avqustunda Vaşinqtonda əldə edilmiş razılaşmaların və sülh müqaviləsi üzrə paraflanmış bəndlərin real həyatda necə səmərə verdiyini bariz şəkildə nümayiş etdirir. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ötən ilin yekunlarına dair keçirilən mətbuat konfransında demişdi ki, Ermənistana Azərbaycan ərazisindən keçərək taxıl göndərilməsi, Ermənistan tərəfindən Azərbaycan neft məhsullarının satın alınması müsbət etimad quruculuğu proseslərindəndir. Nazirin sözlərinə görə, 2025-ci ildə regionda dayanıqlı və qalıcı sülhün bərpası üçün Azərbaycan-Ermənistan arasında münasibətlərin normallaşması rəsmi Bakının prioritetlərindən biri olub: "Azərbaycan və Ermənistan arasında etimad quruculuğu səyləri intensivləşib".

Sülh prosesinin dərinləşməsi Ermənistanın onilliklərdir davam edən iqtisadi blokadadan xilas olması anlamını daşıyır. Bu proses sıravi erməni vətəndaşına Azərbaycan və Türkiyə ilə düşmənçiliyin ötən 35 il ərzində ölkə iqtisadiyyatına vurduğu ağır zərbələri yenidən analiz etmək imkanı verir. Reallığın qəbul edilməsi Ermənistan cəmiyyətində tədricən revanşist meyillərin zəifləməsi ilə nəticələnir.

Azərbaycanın həm hərbi, həm də diplomatik müstəvidə yürütdüyü uğurlu siyasət Ermənistan cəmiyyətini şovinist və revanşist ideologiyalardan uzaqlaşdıraraq daha rasional, praqmatik mövqeyə sövq edir. Bu gün sülh Ermənistan üçün sadəcə siyasi seçim deyil, həm də bir iqtisadi qurtuluş vasitəsidir. Beləliklə, regional barış prosesi həm də Ermənistan cəmiyyətinin islah olunmasına və regional reallıqlarla barışmasına xidmət edir.

Azərbaycandan Ermənistana birbaşa dəmiryolu xətti ilə yanacaq daşınması, regionun köhnə nəqliyyat damarlarının yenidən canlanması deməkdir. Bu, sadəcə iki ölkə arasında mal mübadiləsi deyil, həm də Zəngəzur dəhlizi (TRIPP) və digər regional kommunikasiyaların gələcək fəaliyyəti üçün "pilot layihə" rolunu oynayır. Dəmir yolu daşımaları avtomobil nəqliyyatı ilə müqayisədə daha böyük həcmli və ucuz başa gəldiyi üçün Ermənistanın enerji xərclərini əhəmiyyətli dərəcədə azaldır. Ermənistanın hakim "Vətəndaş Müqaviləsi" Partiyasından olan deputat Xaçatur Sukiasyan bildirib ki, Ermənistan yanacağın 80 faizini qonşularından alsa, ildə 80-100 milyon dollar qənaət edə bilər. Hakim komandanın üzvü Azərbaycandan neft tədarükünün Ermənistanın müstəqil seçimi olduğunu söyləyib: "Ermənistan son 30 il ərzində həmişə neft məhsullarını müxtəlif ölkələrdən idxal edib. Onilliklər boyu Ermənistan üçün nəqliyyat yolları bağlı olub və ölkə nəqliyyat xərclərinə böyük vəsait ödəyib".

Bəllidir ki, Ermənistan əvvəllər yanacaq idxalında tək bir mənbədən asılı idi. Azərbaycanın bazara daxil olması İrəvan üçün iqtisadi manevr, rəqabətli qiymət və seçim imkanı yaradır. Ticarətin sırf kommersiya xarakteri daşıması, onun siyasi konyunkturadan asılılığını azaldır və uzunmüddətli biznes əlaqələri üçün zəmin formalaşdırır. Beynəlxalq münasibətlərdə "iqtisadi sülh" nəzəriyyəsinə görə, ticarət edən ölkələr bir-biri ilə müharibə etmək marağında olmurlar. Neft və taxıl kimi strateji məhsulların qarşılıqlı dövriyyəsi tərəflər arasında "ortaq mənfəət" sahəsi yaradır. Əlbəttə, uzunmüddətli düşmənçilikdən sonra xalqlar və iş adamları arasında birbaşa təmasların yaranması ən çətin mərhələdir. Ticarət bu baryerləri qıran ən effektiv vasitədir. Rusiya taxılının Azərbaycan üzərindən Ermənistana daşınması həm də "Şimal-Cənub" dəhlizinin və regional kommunikasiyaların işlək vəziyyətə gəldiyini göstərir. Nəticə olaraq, Cənubi Qafqazın "təhlükəsizlik arxitekturası" ticarət vasitəsilə yenidən qurulur. Bu, Ermənistan üçün iqtisadi xilas yolu, Azərbaycan üçün isə öz nüfuzunu və regiondakı liderliyini iqtisadi güclə təsdiqləmək mexanizmidir. Azərbaycan regionda təkcə hərbi-siyasi deyil, həm də həlledici iqtisadi aktor olduğunu bir daha təsdiqləyir.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# İqtisadiyyat və sosial həyat

Ötən ilin uğurlu yekunları

## Yol infrastrukturuna görə MDB-də 1-ci, dünyada 24-cü

**Məlum olduğu kimi, artıq neçə ildir ölkəmizdə nəhəng yol infrastruktur layihələri icra edilir. Təsadüfi deyil ki, bu sahədə ölkəmiz hətta dünya miqyasında yüksək reytinqə malikdir. Prezident İlham Əliyevin tapşırığı ilə görülən işlər sayəsində bu gün Azərbaycan yol infrastrukturunun keyfiyyət reytinqinə görə MDB ölkələri arasında 1-ci, dünyanın 141 ölkəsi arasında 24-cü yerdədir.**



Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən (AAYDA) verilən məlumata görə, 2025-ci ildə qurum tərəfindən 110,8 kilometr respublika əhəmiyyətli, 153,1 kilometr yerli əhəmiyyətli, 93,8 kilometr Bakı şəhər yolları, 66 kilometr Gəncə şəhər yolları və 17 kilometr Şəki şəhər yolları olmaqla ümumilikdə 440,7 kilometr avtomobil yolları, prospekt və küçələr inşa edilmiş, yenidən qurulmuş və təmir olunmuşdur.

Bu gün agentlik işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda nəhəng layihələr icra edir. Ötən il həmin ərazilərdə müxtəlif proqramlar çərçivəsində ümumi uzunluğu 3720,5 kilometr olan 64 adda avtomobil yolunun tikintisi və 1 hava limanının inşası üzrə layihələr icra olunmuşdur. Ümumiyyətlə, AAYDA tərəfindən 2020-ci ildən indiyədək ümumi uzunluğu 1338,4 kilometr olan 17 avtomobil yolunun tikintisi tam, 1 layihənin icrası qismən başa çatdırılmışdır. Hazırda avtomobil yolları üzərində ümumi uzunluğu 70,9 kilometr olan 47 tunelin, ümumi uzunluğu 9581,6 pm olan 447 körpünün və 3871 pm uzunluğunda 16 viadukun tikintisi aparılır.

Ümumi uzunluğu 66,9 km olan 37 tuneldə qazma işləri tamamlanmışdır. 13,6 kilometr uzunluğunda 7 tunel isə artıq istifadəyə verilmişdir. Bununla yanaşı, ümumi uzunluğu 8839,1 pm olan 392 körpünün və 1965 pm uzunluğunda 9 viadukun tikintisi başa çatdırılaraq istifadəyə verilmişdir.

Agentliyin son 10 illik fəaliyyəti barədə verilən məlumatda bildirilir ki, həmin dövrdə AAYDA ümumilikdə 10826,9 kilometr avtomobil yolları, prospekt və küçələr tikmiş, yenidən qurmuş və ya təmir etmişdir. Həmin dövrdə qurum tərəfindən ümumi istifadədə olan avtomobil yollarında və Bakıda 129 yeni körpü, 40 yol ötürücüsü, 8 avtomobil tuneli, 52 yeraltı və yerüstü piyada keçidi tikilmiş, həmçinin 53 körpüdə təmir işləri aparılmışdır.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Azərbaycan 2025-ci ildə qaz hasilatını 2 faizdən çox artırıb

**Ötən il Azərbaycanda 51,5 milyard kubmetr təbii qaz hasil edilib ki, bu da 2024-cü illə müqayisədə 1,2 milyard kubmetr və ya 2,4 faiz çoxdur.**

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, hasilatın 14,1 milyard kubmetri "Azəri-Çıraq-Günəşli"nin, 27,9 milyard kubmetri "Şahdəniz"in, 1,6 milyard kubmetri "Abşeron" yatağının, 7,9 milyard kubmetri isə SOCAR-ın payına düşüb.

Bu dövrdə qaz ixracı 25,2 milyard kubmetr təşkil edərək 2024-cü ildəki səviyyə ilə eyni qalıb. Qaz ixracının 12,8 milyard kubmetri Avropaya (0,78 faiz azalma), 9,6 milyard kubmetri Türkiyəyə (3,03 faiz azalma) (o cümlədən TANAP-la 5,6 milyard kubmetr), 2,3 milyard kubmetri Gürcüstana (4,17 faiz azalma), 0,5 milyard kubmetr isə Suriyaya ixrac edilib.

## İsraillə kənd təsərrüfatı sahəsində əməkdaşlıq genişlənir

**Azərbaycanın Kənd Təsərrüfatı Nazirliyinin nümayəndə heyəti İsraildə səfərdədir. Nümayəndə heyətinə kənd təsərrüfatı naziri Məcnun Məmmədov başçılıq edir.**

Səfər çərçivəsində nümayəndə heyətinin İsrailin kənd təsərrüfatı sahəsində aparıcı tədqiqat və araşdırma mərkəzlərinə baş çəkməsi, həmçinin "Gələcəyin Dənizi" II Mavi Qida Təhlükəsizliyi Qlobal Sammitində iştirakı nəzərdə tutulur.

Səfərin ilk günü İsrailin Kənd Təsərrüfatı və Aqrar İnkişaf Nazirliyində Azərbaycan və İsrail nümayəndə heyətləri arasında görüş keçirilib. Qonaqları salamlayan İsrailin kənd təsərrüfatı və aqrar inkişaf naziri Avi Dixter çətin dövrlərdə Azərbaycanın İsrailin ərzaq təhlükəsizliyinə verdiyi dəstəyə görə öz təşəkkürünü bildirib. Ölkəmizə səfərini xatırladan nazir qeyd edib ki, ötən müddət ərzində iki ölkə arasında aqrar sahədə əməkdaşlıq perspektivləri daha da genişlənib. Avi Dixter aparılacaq müzakirələrin kənd təsərrüfatı sahəsində ticarət dövriyyəsinin artırılmasına, heyvandarlıq və toxumçuluq sahələrində müasir texnologiyaların transferinə, aqrar tədqiqatlar və təcrübə proqramları üzrə əməkdaşlığın genişləndirilməsinə, eləcə də suvarma sahəsində İsrail təcrübəsindən istifadə imkanlarının artırılmasına töhfə verəcəyini vurğulanıb.

Nazir Məcnun Məmmədov Azərbaycan və İsrail arasında bütün sahələrdə münasibətlərin dinamik şəkildə inkişaf etdiyini, hər iki tərəfin aqrar sahədə əməkdaşlığı daha da dərinləşdirməkdə maraqlı olduğunu bildirib. O qeyd edib ki, iki il öncə Bakıda imzalanmış iki ölkə arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq üzrə Niyyət Bəyannaməsi, eləcə də kənd təsərrüfatı sahəsində əməkdaşlığa dair Yol Xəritəsi bu əməkdaşlığın yeni mərhələyə yüksəlməsində mühüm rol oynayıb.

Müzakirələr zamanı qeyd olunan Yol Xəritəsinin daha da təkmilləşdirilməsi barədə qarşılıqlı ilkin razılıq əldə olunub. Görüş zamanı qarşılıqlı maraq doğuran məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

Görüşdən sonra nazir Məcnun Məmmədov Volcani Institute Aqrar Tədqiqatlar Mərkəzinin fəaliyyəti ilə tanış olub. Nazirə mərkəzin fəaliyyəti və kənd təsərrüfatı sahəsində aparılan elmi araşdırmaların əsas istiqamətləri barədə ətraflı məlumat verilib. Bildirilib ki, institut yerli və xarici mütəxəssislər üçün beynəlxalq səviyyədə aspirantura üzrə tədqiqat imkanları yaradır, eyni zamanda digər səviyyələrdə də təhsil proqramları təqdim edir. Hazırda İsrailin Kənd Təsərrüfatı və Aqrar İnkişaf Nazirliyinin aqrar tədqiqatlar üzrə əsas qurumu kimi fəaliyyət göstərən institut bitkiçilik, heyvandarlıq, bitki mühafizəsi, torpaq və ətraf mühit elmləri, eləcə də qida elmləri sahələrində aparılan elmi tədqiqatları dəstəkləyir. Tərəflər Azərbaycan və İsrailin kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən elmi-tədqiqat institutları və araşdırma mərkəzləri arasında əməkdaşlıq imkanlarını geniş müzakirə ediblər.

“Şəhərsalma və Memarlıq İli”

## Paytaxtımızın möhtəşəm "yaşıl bina"sı

### Dövlət Neft Fondunun inzibati binası yüksək beynəlxalq ekoloji standartlara cavab verir

**Neft və yaşıllıq. Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) və onun "yaşıl bina"sı… Burada bir paradoks var, elə deyilmi? Lakin bu, ilk baxışdan belədir. Çünki Azərbaycan Respublikası Dövlət Neft Fondu - "SOFAZ Tower" (ARDNF Qülləsi) "yaşıl bina" tipli ofis binaları kateqoriyasına daxildir.**

Əvvəla xatırladaq ki, təbiətin xalqımıza bəxş etdiyi "qara qızıl" sərvətinin davamlı şəkildə xeyir-bərəkət gətirməsi məqsədilə 1999-cu il dekabrın 29-da Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikası Dövlət Neft Fondunun təsis edilməsi haqqında fərman imzaladı. Bir il sonra - 2000-ci il dekabrın 29-da Ulu Öndərin növbəti fərmanı ilə ARDNF-in Əsasnaməsi təsdiq olundu. Bundan yarım il sonra isə daha bir fərmanla fondun vəsaitlərinin yerləşdirilməsi qaydaları təsdiq edildi və qurum əməli fəaliyyətə başladı.

2009-cu il dekabrın 29-da Prezident İlham Əliyev fondun yeni binasının təməlini qoydu. Tikinti və dizayn işləri beş ilə yekunlaşdı. 2014-cü il dekabrın 29-da dövlətimizin başçısının iştirakı ilə binanın açılış mərasimi keçirildi.

"SOFAZ Tower"in layihəsi Fransanın "Inter Art Etudes" şirkəti tərəfindən hazırlanıb. Binanın inşası Belçikanın Besix S.A. və yerli Az Besix şirkəti tərəfindən təsis olunmuş Besix-Az Besix konsorsiumu tərəfindən həyata keçirilib. Baş podratçı tərəfindən tikintiyə yerli və xarici subpodratçı şirkətlər cəlb edilib. Binanın tikintisi layihəsinin idarə edilməsi Amerikanın "AECOM" Russia Limited şirkəti tərəfindən icra olunub.

Bir neçə kəlmə ARDNF-nin yerləşdiyi ərazi barədə. Bina Xəzərin sahil xəttindən 4 kilometr şimalda, paytaxtımızın ən gediş-gəlişli yerinin - Heydər Əliyev prospektinin mərkəzində və "Ulduz" metrostansiyasından şimal-şərqdə yerləşir.

Beləliklə, ARDNF-nin binası Bakının göydələnlərindən biridir. Bununla belə, onun özəllikləri çoxdur. Belə ki, bu göydələn yüksək beynəlxalq standartlara uyğun olan ən son texnoloji yeniliklər əsasında layihələndirilib və tikilib.

Bina 24 yerüstü və 2 yeraltı mərtəbədən ibarətdir. Hündürlüyü 117 metrə, damda mayakı nəzərə alındıqda isə 140 metrə çatır. Ümumi sahəsi 13 min kvadratmetr təşkil edir. İkimərtəbəli yeraltı dayanacaqla birlikdə 26 mərtəbəli inzibati binada 3 mərtəbəli podium, icraçı direktorun ofisinin də yerləşdiyi mərtəbə daxil olmaqla 18 açıq tipli ofis mərtəbəsi, 3 texniki mərtəbə və bununla yanaşı, kitabxana, muzey, 200 nəfərlik konfrans zalı, iclas otaqları, restoran və s. var.

Əlbəttə, belə möhtəşəm bir binanın layihəsinin detalları maraq doğurmaya bilməz. Ona görə deyək ki, binanın həm dünya, həm də yerli miqyasda ekoloji effektliliyinin müəyyənləşdirilməsi və eləcə də ətraf mühitə göstərə biləcəyi hər hansı mənfi təsirlərin vaxtında aradan qaldırılması, nəticədə Böyük Britaniyanın Tikinti Tədqiqatları və Ətraf Mühitin Qiymətləndirilməsi Metodologiyası İnstitutu (BREEAM) tərəfindən ona dünyada qəbul edilmiş müvafiq "BREEAM" sertifikatının verilməsi məqsədilə tikinti layihəsinin idarə olunması üçün fond tərəfindən müqavilə əsasında "AECOM" Russia Limited şirkətinə bu məsələlərin hərtərəfli araşdırılması və qiymətləndirilməsi tapşırılmışdı.

Bu şirkətin nümayəndələri "BREEAM Assessment" üzrə ilkin araşdırmalar aparmış və yüksək reytinq dərəcəsi almaq üçün lazım olan bütün tələblərin layihəyə daxil edilməsinə çalışmışlar. Hədəf kimi "BREEAM Assessment" qiymətləndirmə cədvəli üzrə "Yaxşı" və ya "Çox Yaxşı" dərəcələri əsas götürülmüşdü.

Qeyd edək ki, binada ikiqat aktiv fasad növündən istifadə olunub. O, dayanıqlılıq və enerji sərfiyyatı tələblərinə uyğun olaraq layihələndirilib. Bu, müasir texnoloji sistemlərin, eləcə də intellektual texnoloji infrastruktur konsepsiyasının tətbiqində nəzərə alınır və eyni zamanda "Yaşıl Bina" ("Green Building)" kateqoriyasının tələblərinə cavab verir. Binanın daxili dizaynı isə A sinifli ofis bina standartlarına uyğun olaraq Azərbaycanın milli-mədəni irsi nəzərə alınmaqla tərtib edilib.

Binanın birləşdirilmiş idarəsi üçün intellektual texnologiyalardan istifadə olunub. Qüllədəki ofislər A sinfinin standartlarına tam uyğun gəlir.

Tikinti zamanı digər məqamlar da nəzərə alınıb. Bunlar dəniz mühiti (bu mühit adekvat materialları və fasadın xidmətini yerinə yetirən xüsusi qurğu tələb edir), şosenin yaxınlığı (səs izolyasiyası ehtiyacı), eləcə də Bakı iqlimi üçün səciyyəvi olan güclü külək və fırtına faktorlarıdır. "İsidici körpü" effektindən qaçmaq üçün ikiqat divar strukturundan (ikifasadlı sistem) istifadə edilib. Belə ki, geydirmə bayır fasad polad karkasa bərkidilir, daxili fasad isə adi doğranma materiallarından istifadə ilə inşa edilib. Binanın fasadının təmizlənməsi üçün avtomatik sistem nəzərdə tutulub.

"SOFAZ Tower"in tikintini aparan Besix-Az Besix konsorsiumu "Keyfiyyətə nəzarət planı" hazırlayaraq həm şirkətin gördüyü işlərin, həm də subpodratçıların işlərinin beynəlxalq Keyfiyyətin İdarəolunması İSO 9001 və Ətraf mühit üzrə İSO 14001 standartlarına uyğun olmasını təmin edib. Binanın tikintisi zamanı nəzarət, hesabatların hazırlanması, enerji istifadəsinə dair hədəflərin qoyulması, daşınmaların həyata keçirilməsi, hava və su kirliliyinin minimuma endirilməsi üzrə işlər də əhatə olunub. Qeyd etdiyimiz kimi, dizayn və tikinti zamanı eləcə də dayanıqlılıq və enerjiyə qənaət üzrə tələblər nəzərə alınıb. Enerji qənaətini təmin etmək məqsədilə binada ikiqat fasad sistemindən istifadə olunub. Qatlar arasında boşluğun olması enerji istifadəsi effektivliyini daha da artırmaga imkan yaradır. Bu boşluqlarda avtomatlaşdırılmış və günəş



sensoru ilə işləyən jalüzlər quraşdırılıb. Daxildəki isti su qazanxanaları üçün günəş panellərindən istifadə edilir. Qazanxalarda ən yüksək effektivliklə işləyən sistemlər tətbiq olunub.

BREEAM tələblərinə əsasən keçirilmiş testlər göstərib ki, quraşdırılmış şüşə panellər sayəsində binaya kifayət qədər günəş işığının daxil olması təmin edilir.

2016-cı ildə Dövlət Neft Fondunun inzibati binası tam hazır bina metodologiyası üzrə BREEAM qiymətləndirilməsindən keçib və Azərbaycanda bu metodologiya ilə "Yaxşı" dərəcəsi əldə etmiş ilk bina olub.

Nəhayət, "SOFAZ Tower"in daha bir mühüm və ürəkaçan özəlliyi barədə. Vurğulayaq ki, binanın daxili dizaynı Azərbaycanın milli-mədəni irsi nəzərə alınmaqla tərtib edilib. Bəli, bu, həm də xalqımızın xalçaçılıq sənətinin qədim tarixini özündə birləşdirən unikal layihədir. Başqa sözlə, Azərbaycanın 9 xalçaçılıq məktəbinin (Bakı, Gəncə, Təbriz, Şirvan, Qarabağ, Qazax, Quba, İrəvan və Naxçıvan xalçaçılıq məktəbləri) elementləri əsasında dizayn olunmuş "SOFAZ Tower" ölkəmizin tarixini və gələcək inkişafını əks etdirir.

Bu bina gündüzlər paytaxtımızın sakinlərini və qonaqlarını öz əzəməti və gözəlliyi ilə, gecələr isə "yaşıl"lığı - "yaşıl işığa" bürünmüş bənzərsiz görkəmi ilə valeh edir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Ötən il dövlət büdcəsindən fiziki və hüquqi şəxslərə 352 milyon manatdan çox vəsait geri qaytarılıb

**2025-ci ildə dövlət büdcəsindən fiziki və hüquqi şəxslərə ümumilikdə 352 milyon 409,8 min manat məbləğində vəsait geri qaytarılıb. "Trend" bu barədə Maliyyə Nazirliyinə istinadən xəbər verir.**

Geri qaytarılan vəsaitlər fiziki şəxslərin pərakəndə ticarət və ictimai iaşə, mədəniyyət və tibbi xidmətlərə, işğaldan azad edilmiş ərazilərdəki mehmanxana xidmətlərinə, habelə əcnəbilər tərəfindən ölkə ərazisində istehsal və kommersiya məqsədi daşımayan malların alınmasına ödənilmiş ƏDV-nin qaytarılmasına aiddir.

Bununla yanaşı, bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşa-



yış sahələrinə görə ödənilmiş ƏDV-nin bir hissəsi, həmçinin artıq ödənilmiş digər vergilər, dövlət rüsumları və ödənişlər də geri qaytarılıb.

## Ölkəmizdən Gürcüstana qaz ixracının həcmi açıqlanıb

**Ötən il Azərbaycandan Gürcüstana 2,3 milyard kubmetr təbii qaz ixrac edilib. "Trend" bu barədə Energetika Nazirliyinə istinadən xəbər verir.**

Məlumata əsasən, 2024-cü illə müqayisədə ötən il Azərbaycandan Gürcüstana qaz ixracı 0,1 milyard kubmetr və ya 4,2 faiz azalıb. Xatırladaq ki, 2024-cü ildə Azərbaycandan Gürcüstana 2,4 milyard kubmetr təbii qaz ixrac edilmişdi.

Qeyd edək ki, 2025-ci ildə Azərbaycanda 51,5 milyard kubmetr təbii qaz hasil edilib. Hasilatın 14,1 milyard kubmetri "Azəri-Çıraq-Günəşli"nin, 27,9 milyard kubmetri "Şahdəniz"in, 1,6 milyard kubmetri "Abşeron" yatağının, 7,9 milyard kubmetri isə SOCAR-ın payına düşüb. Bu dövrdə qaz ixracı isə 25,2 milyard kubmetr təşkil edib.

# Elm və təhsil siyasətinin strateji hədəfləri

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibədə elm və təhsil sahəsində mövcud olan mühüm problemlərə toxunmuş və gələcəyə yönəlmiş mesajlar vermişdir. Cənab Prezident bu müsahibəsində irəli sürdüyü bir sıra müddəalarla, digər məsələlərlə birgə, ölkənin elm və təhsil siyasətinin strateji istiqamətlərini də göstərmişdir.**

Prezidentin müsahibəsi mahiyyət etibarilə həm müəyyən bir dövrün yekunlarına həsr olunmuş siyasi hesabat, həm də ölkənin gələcək inkişaf trayektoriyasını müəyyən edən proqram xarakterli çıxışdır. Burada dövlətimizin başçısı xarici siyasətdən təhlükəsizliyə, regional kommunikasiyalardan sosial məsələlərə, müstəqillik və suverenlikdən Azərbaycan dilinin qorunması və inkişafına dövlət qayğısının vacibliyinə qədər geniş bir spektri əhatə edən fundamental mövqe ortaya qoymuşdur. Lakin xüsusi vurğulamaq lazımdır ki, müsahibənin ən strateji və uzunmüddətli təsir gücünə malik hissələrindən biri məhz elm, təhsil və insan kapitalının inkişafı ilə bağlı səsləndirilən fikirlərdir.

Prezident İlham Əliyevin müvafiq suala cavabında bir daha aydın şəkildə ifadə olunmuşdur ki, Azərbaycanın dayanıqlı inkişafı, milli gücü və qlobal rəqabət qabiliyyəti yalnız təbii sərvətlərə deyil, zəka, bilik, elmi potensial və savadlı cəmiyyətin formalaşmasına söykənməlidir. Bu yanaşma müasir dünya inkişafının əsas qanunauyğunluqları ilə tam uzlaşır.

Bir neçə il əvvəl Prezident İlham Əliyev tərəfindən irəli sürülmüş "qara qızılı insan kapitalına çevirmək" konsepsiyası bu gün dövlət siyasətinin konkret istiqamətinə çevrilmişdir. Müsahibədə bu konsepsiyanın məntiqi davamı kimi elm və təhsilin prioritet sahə elan edilməsi təsadüfi deyildir.

Dünya təcrübəsi göstərir ki, təbii resurslara əsaslanan iqtisadiyyatlar uzunmüddətli perspektivdə ciddi risklərlə üz-üzə qalır. Neft və qaz gəlirləri müvəqqətidir və tükənmə riski daşıyır. Təhsil və elm sahəsinə yatırılan investisiyalar isə nəsillər boyu davamlı fayda verir, cəmiyyətin intellektual və innovativ potensialını gücləndirir. Norveç, Sinqapur, Cənubi Koreya və digər inkişaf etmiş ölkələrin təcrübəsi bunu aydın şəkildə göstərir: onlar təbii və maliyyə kapitalını vaxtında və məqsədyönlü şəkildə intellektual kapitala çevirməyi bacarmış, elm və təhsili milli inkişaf strategiyasının mərkəzi elementinə çevirmişlər. Bu təcrübə Azərbaycan üçün də anlamlı dərsdir və göstərir ki, dayanıqlı inkişaf yalnız bilik və elmin sistemli inkişafına əsaslanmaqla mümkündür. Prezident İlham Əliyevin müsahibədə səsləndirdiyi əsas mesajlardan biri də məhz budur: Azərbaycan öz gələcəyini onilliklər və yüzilliklər miqyasında planlaşdırmalıdır. Bu isə yalnız savadlı, düşünən, tənqidi təfəkkürə malik, elmi biliklərə söykənən cəmiyyətlə mümkündür.

Elm və Təhsil Nazirliyinin yaradılması, Prezident İlham Əliyevin vurğuladığı kimi, yalnız struktur dəyişikliyi məqsədilə atılmış addım deyildir, bu, həmçinin elmin təşkili baxımından konseptual yanaşmanın dəyişməsini ifadə edir. Uzun illər ərzində elm və təhsil institusional baxımdan ayrı fəaliyyət göstərmiş, bu təbii olaraq elmi nəticələrin tədris prosesinə, təhsil sahəsində qarşıya çıxan problemlərin isə elmi araşdırmalara tam inteqrasiyasına mane olmuşdur. Yeni struktura keçid, həm elm, həm də təhsilin birgə fəaliyyətini təmin etməklə, elmi biliklərin təhsildə tətbiqini gücləndirir və tədris prosesində yaranan çağırışlara akademik həll yollarının inteqrasiyasını mümkün edir ki, bu da Azərbaycanın elm və təhsil siyasətində strateji dönüşün əsasını təşkil edir.

İnkişaf etmiş ölkələrin təcrübəsində elm və ona aid strukturlar əsasən universitetlər ətrafında formalaşır. ABŞ, Almaniya, Böyük Britaniya, Yaponiya kimi ölkələrdə aparıcı elmi tədqiqatlar ali təhsil müəssisələri ilə sıx bağlıdır. Bu model elmi biliklərin həm istehsalını, həm də sürətli tətbiqini təmin edir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan da məhz bu modeli seçmişdir və bu seçim strateji baxımdan son dərəcə düzgündür.

Müsahibədə toxunulan mühüm məqamlardan biri də elmi-tədqiqat institutlarında aparılan struktur və kadr islahatlarıdır. Bu proses bəzən cəmiyyətdə müxtəlif reaksiyalar doğursa da, dövlət başçısının vurğuladığı kimi, məqsəd elmi işçiləri sadəcə işlə təmin etmək deyil, elmin real inkişafını təmin etməkdir.

Müasir dünyada elmi fəaliyyətin qiymətləndirilməsi üçün beynəlxalq səviyyədə qəbul edilmiş aydın və obyektiv meyarlar mövcuddur. Bunlara beynəlxalq indeksli, impakt faktoru yüksək olan nüfuzlu jurnallarda dərc olunan



elmi məqalələr, H-indeksi və i10-indeksi kimi istinad göstəriciləri, aparılan tədqiqatların praktik və tətbiqi əhəmiyyəti, eləcə də qlobal elmi diskursda fəal iştirak daxildir. Məhz bu meyarlar elmi potensialın real səviyyəsini müəyyənləşdirir və elmin formal deyil, məzmunlu inkişafını təmin edir. Bu göstəricilər nəzərə alınmadan elmin tərəqqisindən danışmaq mümkün deyil. Prezidentin bu məsələyə açıq, prinsipial və tələbkar münasibəti elmi ictimaiyyət üçün son dərəcə ciddi və aydın bir mesajdır: keyfiyyət olmadan inkişaf mümkün deyildir. Dövlət başçısının səsləndirdiyi bu mövqe, əslində, Azərbaycanın dünya elmi məkanında mövqelərinin möhkəmləndirilməsinə, müvafiq beynəlxalq reytinqlərdə layiqli yer tutmasına yönəlmiş strateji çağırışdır. Bu baxımdan, ölkənin elmi ictimaiyyəti qarşısında böyük məsuliyyət dayanır və problemlərin həlli dərin düşüncə, yenilənmə və qlobal standartlara uyğunlaşma tələb edir.

Son 20 il ərzində Azərbaycanda 10 yeni ali təhsil müəssisəsinin yaradılması, onların bir qisminin dünyanın aparıcı universitetləri ilə birgə fəaliyyət göstərməsi dövlətin təhsilə verdiyi mühüm əhəmiyyətin aydın göstəricisidir. Bu ali məktəblər təkcə kadr hazırlığı funksiyasını yerinə yetirmir, eyni zamanda beynəlxalq akademik standartların, müasir tədris metodologiyalarının və elmi-tədqiqat mədəniyyətinin ölkəyə transferində mühüm rol oynayır. Xankəndi Universitetinin yaradılması isə prosesin xüsusi mərhələsidir; bu ali təhsil müəssisəsi həm milli suverenliyin və dövlətçilik iradəsinin təzahürü, həm də azad edilmiş ərazilərin elmi-intellektual məkana çevrilməsi baxımından strateji əhəmiyyət daşıyır. Xankəndidə universitetin fəaliyyətə başlaması regionun sosial-iqtisadi dirçəlişinə, insan kapitalının formalaşmasına və elmin ölkənin bütün coğrafiyasını əhatə edən inkişaf modelinə keçidinə xidmət edir.

Beynəlxalq tərəfdaşlıqlar yalnız diplomların qarşılıqlı tanınması ilə məhdudlaşmır. Bu əməkdaşlıqlar, eyni zamanda akademik mədəniyyətin formalaşması, tədqiqat etikası prinsiplərinin mənimsənilməsi, müasir tədris və qiymətləndirmə metodologiyalarının tətbiqi baxımından mühüm əhəmiyyət daşıyır. Belə tərəfdaşlıqlar vasitəsilə Azərbaycanın ali məktəbləri qlobal elmi standartlara daha sürətlə inteqrasiya olunur, elmi-tədqiqat prosesində şəffaflıq və keyfiyyət meyarları möhkəmlənir. Nəticə etibarilə, ali təhsil müəssisələrimizin beynəlxalq elm məkanına fəal qoşulması uzunmüddətli perspektivdə ölkənin nüfuzunun artmasına, tədqiqat məhsullarının qlobal rəqabət qabiliyyətinin yüksəlməsinə və Azərbaycanın dünyanın elm xəritəsində mövqeyinin möhkəmlənməsinə xidmət edəcəkdir.

Prezident İlham Əliyevin xüsusi vurğuladığı ən mühüm məsələlərdən biri cəmiyyətin ümumi intellektual səviyyəsinin yüksəldilməsidir. Tarixi təcrübə açıq şəkildə göstərir ki, ayrı-ayrı istedadlı və parlaq şəxsiyyətlər təsadüfən formalaşmır, onlar yüksək bilik səviyyəsinə, elmi və mədəni mühitə malik cəmiyyətin yetirmələri olurlar. Güclü elmi məktəblər, yaradıcı və tənqidi düşüncəni təşviq edən mühit, azad fikir mübadiləsi və sağlam rəqabət mühiti olmadan fundamental elmi nailiyyətlərə və davamlı inkişaf nəticələrinə nail olmaq mümkün deyil.

Bu kontekstdə müəllimlərin sosial təminatının yaxşılaşdırılması, onların peşəkar inkişafının dəstəklənməsi, təhsilin keyfiyyətinin sistemli şəkildə artırılması, eləcə də test və qiymətləndirmə mexanizmlərinin müasir tələblərə uyğun təkmilləşdirilməsi sadəcə texniki tədbirlər kimi deyil, dövlətin uzunmüddətli inkişaf strategiyasının əsas komponentləri kimi qiymətləndirilməlidir. Məhz bu amillər cəmiyyətin intellektual potensialının formalaşmasına, insan kapitalının güclənməsinə və ölkənin gələcək rəqabət qabiliyyətinin təmin olunmasına xidmət edir.

Müsahibədə gənclərlə bağlı səsləndirilən fikirlər bir daha təsdiqləyir ki, dövlət siyasətinin mərkəzində insan amili, xüsusilə də bilikli, təşəbbüskar və müasir dünyagörüşünə malik gənclər dayanır. Xaricdə təhsil almış gənc mütəxəssislərin ölkəyə qayıdaraq dövlət və özəl sektorda səmərəli fəaliyyət göstərməsi artıq konkret və müsbət nəticələr verməkdədir; bu proses idarəetmədə yeni yanaşmaların formalaşmasına, innovativ düşüncənin tətbiqinə və institusional səmərəliliyin artmasına şərait yaradır. "Yüksəliş" proqramı isə gənclərin potensialının üzə çıxarılması, onların liderlik bacarıqlarının inkişaf etdirilməsi və gələcək idarəçi kadrlar kimi formalaşması baxımından mühüm və sistemli platforma rolunu oynayır.

Prezident İlham Əliyevin 22 illik dövlət idarəçiliyi təcrübəsinə əsaslanan müşahidələri göstərir ki, savadlı, peşəkar və müasir düşüncəyə malik kadrların məsul vəzifələrə irəli çəkilməsi idarəetmənin keyfiyyətini köklü şəkildə dəyişir, qərar qəbuletmə prosesində rasional yanaşmanı gücləndirir və ümumilikdə dövlət idarəçiliyinin effektivliyini əhəmiyyətli dərəcədə artırır.

Müasir dünyada elm və təhsil artıq sadəcə iqtisadi və sosial inkişaf amili olmaqla kifayətlənmir, onlar həm də milli təhlükəsizlik və dövlətin suverenliyinin qorunması baxımından həlledici əhəmiyyət kəsb edir. Yüksək texnologiyalar, süni intellekt, biotexnologiya, enerji səmərəliliyi və digər qabaqcıl sahələrdə geri qalmaq yalnız iqtisadi itkilərə yol açmır, eyni zamanda dövlətin təhlükəsizlik və geosiyasi mövqeyinə ciddi risklər yaradır.

Prezident İlham Əliyevin müsahibəsində səsləndirdiyi fikirlər göstərir ki, Azərbaycan bu reallığı tam dərk edir və inkişaf strategiyasını ona uyğun qurur. Aparılan struktur və kadr islahatları, elm və təhsil sahəsində yeniliklər çətin, bəzən ağrılı proseslər tələb edə bilər, lakin bu islahatlar alternativsizdir və ölkənin uzunmüddətli dayanıqlı inkişafı, intellektual potensialının möhkəmləndirilməsi və qlobal rəqabət qabiliyyətinin artırılması üçün zəruridir.

Prezident İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsi bir daha nümayiş etdirdi ki, Azərbaycan yalnız qısamüddətli iqtisadi və siyasi uğurların deyil, uzunmüddətli, davamlı və strateji inkişafın tərəfdarıdır. Bu inkişaf yolunda elm və təhsil ölkənin əsas dayağı, dayanıqlı inkişaf proqramının mərkəzi amilidir. Əgər aparılan struktur və kadr islahatları, təhsil və elmin inteqrasiyası istiqamətində atılan addımlar ardıcıl, prinsipial və məqsədyönlü şəkildə davam etdirilərsə, Azərbaycan təkcə ətraf regionun deyil, daha geniş coğrafiyanın elmi, intellektual və innovativ mərkəzlərindən birinə çevrilə bilər.

Bu yol çətin, mürəkkəb və bəzən ağrılı proseslər tələb edir, lakin eyni zamanda ölkənin gələcək sabitliyini və dayanıqlı inkişafını təmin edən yeganə doğru yoldur.

***İradə HÜSEYNOVA,***
***akademik***

Elm xadimləri

# Azərbaycan iqtisad elminin fədaisi

**İnsan o zaman millətinin oğlu, zəmanəsinin övladı sayılır ki, özündən sonra xatirələrdə yaşayır, sağlam əməlləri ilə sonrakı ömürlərə işıq salır. Professor Teymur Vəliyev belə şəxsiyyətlərdən idi.**



İstedadı, zəhmətkeşliyi, yüksək mənəvi və əxlaqi keyfiyyətləri ilə elmin zirvəsinə ucalmış görkəmli alim, AMEA-nın müxbir üzvü, iqtisad elmləri doktoru, professor Teymur Süleyman oğlu Vəliyev Azərbaycan iqtisad elminin yaradıcılarından biridir. 1926-cı il yanvarın 15-də Ağdamın Seyidli kəndində anadan olmuş Teymur Vəliyev Azərbaycanın ilk iqtisadçı alimlərindən biri kimi ömrünü respublikamızda iqtisad elminin və təhsilinin inkişafına həsr etmişdir.

Ömrünü Azərbaycanda iqtisad eliminin və təhsilinin inkişafına həsr edən Teymur Vəliyev 1953-cü ildən başlayaraq, respublikanın müxtəlif ali məktəblərində "Siyasi iqtisad" fənnindən (İqtisadi nəzəriyyə) dərs demiş, gənc nəslin iqtisadi təfəkkürünün formalaşmasında böyük xidmətlər göstərmişdir. Xüsusi qeyd edilməlidir ki, Azərbaycanda iqtisadiyyat elmi üzrə doktorluq dissertasiyası müdafiə edən ikinci şəxs məhz Teymur Vəliyev olmuşdur.

Əməkdar elm xadiminin yaradıcılıq fəaliyyəti çoxsahəli və genişdir. Təsadüfi deyil ki, onu iqtisad elminin zirvəsini fəth etmiş alim andlandırırdılar. Onun rəhbərliyi və iştirakı ilə Azərbaycan dilində hazırlanan çox sayda dərslik, dərs vəsaiti, monoqrafiya və metodik göstərişlər bu gün də aktuallığını itirmir, tələbələr, mütəxəsislər üçün dəyərli mənbə olaraq qalır.

Teymur Vəliyev müxtəlif problemləri əhatə edən 150-dən artıq elmi əsərin müəllifidir. Onun elmi potensialının yüksək olmasını bu gün bütün elm camiəsi etiraf edir. İstər iqtisad, istərsə də ictimai, humanitar və təbiət elmlərini dərindən bilən Teymur Vəliyev geniş dünyagörüşlü alim idi. Elmin müxtəlif sahələrini təmsil edən mütəxəssislər daim ondan məsləhətlər alır və hər dəfə də dəmir məntiqinə, ensiklopedik biliyinə heyran qalırdılar. Ümumiyyətlə, Teymur Vəliyevin böyüklüyü, ilk növbədə, onun intellekti, hazırladığı kadrlar, elmə verdiyi töhfələrlə müəyyən olunur.

O, özündən sonra insanların fikrində elmə və təhsilə xidmət, dövlət və dövlətçiliyə sədaqət nümunəsi olmaqla, həm də onlarla insanın elm, dövlət adamı kimi formalaşmasını ləyaqətlə həyata keçirmişdir. Teymur müəllim gənclərin təhsil və tərbiyəsi, Azərbaycanda iqtisad elminin öyrənilməsi və inkişafı məsələlərində çox həssas idi.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra Teymur Vəliyevin elmi yaradıcılığı daha da genişlənib zənginləşdi. Onun 1999-cu ildə nəşr edilən "İqtisadi nəzəriyyə" kitabı ali məktəb tələbələri üçün yeganə dərslik oldu. Həmin il Teymur müəllimin "İqtisad elminin nəzəri əsaslarının tarixi təkamülü" adlı monoqrafiyası da çapdan çıxdı.

İqtisad elmi sahəsində ən məhsuldar alim olan professor Teymur Vəliyevin 2000-2002-ci illərdə alim həmkarları ilə birgə yazdığı "İzahlı iqtisadi terminlər" adlı lüğət kitabı, "Azərbaycanda iqtisadi fikir tarixi", "Ümumi iqtisadi nəzəriyyə" və başqa əsərləri iqtisadçılara qiymətli töhfədir. Onun orta məktəblərin 9-11-ci sinifləri üçün nəzərdə tutulan "İqtisadiyyatın əsasları" adlı dərsliyi də mütəxəssislər tərəfindən yüksək dəyərləndirilir.

Əsl vətənpərvər, müdrik ağsaqqal olan Teymur Vəliyev iqtisadiyyat elmi sahəsində beynəlxalq aləmdə də tanınmış alim idi. O, bir çox beynəlxalq konfraslarda, simpoziumlarda, elmi forumlarda Azərbaycanı ləyaqətlə təmsil etmişdir. Dəfələrlə Moskvada, Kiyevdə, Tbilisidə, keçmiş Çexoslovakiya, Rumıniya, Danimarkada keçirilən beynəlxakq konqres, simpozium və konfraslarda iqtisadi məsələlərə dair elmi nəzəri məruzələrlə çıxışlar etmişdir.

Elm aləmində böyük nüfuz sahibi olan Teymur Vəliyev insanlarla ünsiyyətdə nə qədər mehriban, qayğıkeş olsa da, işində bir o qədər ciddi və tələbkar idi. O, gənc iqtisadçılar üçün əsl müəllim idi. Fəxrlə deməliyik ki, bu gün Azərbaycan iqtisadiyyatında rəhbər vəzifələr tutan əksər iqtisadçıların peşəkar mütəxəssis kimi formalaşmasında professor Teymur Vəliyevin böyük rolu olmuşdur. O, iqtisadiyyat elmi sahəsində elmi-pedoqoji kadrların hazırlanmasında xeyli qüvvə sərf etmiş və onun rəhbərliyi altında 19 aspirant namizədlik dissertasiyası yazmış və müdafiə etmişdir. Teymur Vəliyev bir neçə doktorluq dissertasiyasına elmi məsləhətçi olmuşdur. O, həm də iqtisad elmləri üzrə 15 doktorluq və 17 namizədlik dissertasiyasına rəsmi opponentlik etmişdir.

Maraqlı və zəngin həyat yolu keçmiş Teymur Vəliyev uzun müddət SSRİ AAK-ın üzvü, Azərbaycan Milli Elmlər Akademiyasının İqtisad İnstitunda doktorluq dissertasiyası üzrə ixtisaslaşdırılmış müdafiə şurasının həmsədri, eyni zamanda ADİU-da ixtisaslaşdırılmış müdafiə şurasının sədri olmuşdur.

Yüksək təşkilatçılıq qabiliyyəti ilə seçilən Teymur Vəliyev uzun illər respublikamızın ali məktəblərində rəhbər vəzifələrdə çalışmışdır. O, 1966-cı ildən Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunda (indiki İqtisad Universiteti) tədris işləri üzrə prorektor, 1971-ci ildən Azərbaycan (indiki Bakı) Dövlət Universitetində 12 il tədris işləri üzrə prorektor, 1992-ci ildən Azərbaycan Dövlət İqtisad Universitetində 8 il elmi işlər üzrə prorektor vəzifələrində işləmişdir.

Teymur Vəliyev iqtisad elminin inkişafında səmərəli xidmətlərinə görə Azərbaycan Respublikası Ali Sovetinin fəxri fərmanları ilə təltif edilmişdir. 1981-ci ildə Əməkdar elm xadimi fəxri adına layiq görülmüş, 1983-cü ildə Elmlər Akademisayının müxbur üzvü seçilmişdir.

Böyük vətənpərvər Teymur Vəliyev keçmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi başlayan vaxtlardan öz qələmi ilə separatçılara qarşı mübarizəyə qalxmış, onların əsas iddialarını ifşa etmiş, Azərbayacanın haqlı mövqeyini dünya ictimaiyyətinə çatdırmışdır. Bu münaqişənin bünövrəsini qoyan Aqambekyanı telekörpü vasitəsilə debatda ifşa etmiş, ermənilərin iç üzünü açmış, onların böhtan dolu yalanlarını bütün xalqlara çatdırmışdır. Birinci Qarabağ savaşı dövründə Teymur Vəliyev dəfələrlə cəbhə bölgəsinə getmiş, döyüşən dəstələrə maddi və mənəvi dəstək olmuşdur. Qarabağlılar onu xeyirxah, nüfuzlu bir ağsaqqal kimi tanıyırdı.

Vətənini, torpağını canı kimi sevən Teymur Vəliyev 2002-ci ildə Qarabağ həsrəti ilə dünyasını dəyişdi. Yaşasaydı bu il 100 yaşı olardı. Elmimizə ləyaqətlə, vicdanla xidmət etmiş Teymur Vəliyev onu tanıyanların qəlbində həmişə yaşayacaq, Azərbaycan iqtisad elminin bünövrəsini qoyanlardan biri kimi xatirəsi böyük hörmət və ehtiramla yad ediləcək.

Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz Qarabağı ermənilərdən azad etməklə sınmış qürurumuzu bərpa etdi. Ruhun şad olsun, Teymur müəllim, məzarında rahat yat. Qarabağ Azərbaycandır!

***Şöhlət KƏRİMOV,***
***Milli Aviasiya Akademiyasının***
***Hüquq kafedrasının dosenti,***
***hüquq elmləri üzrə fəlsəfə doktoru***

# BSU belaruslu tələbələr üçün "Azərbaycan dili" dərsliyi nəşr edib

**Bakı Slavyan Universitetində (BSU) belaruslu tələbələr üçün nəzərdə tutulan "Azərbaycan dili" dərsliyi hazırlanaraq nəşr olunub. Xaricilər üçün Azərbaycan dilinin A1 səviyyəsində tədrisini əhatə edən bu vəsait başlanğıc kurs xarakteri daşıyır.**

BSU-dan AZƏRTAC-a bildirilib ki, dərslik müasir dilöyrətmə konsepsiyalarına və beynəlxalq dil səviyyələndirmə meyarlarına uyğun şəkildə tərtib edilib. Vəsaitin əsas məqsədi öyrənənlərdə Azərbaycan dilində ilkin kommunikativ bacarıqların formalaşdırılması, gündəlik ünsiyyət üçün zəruri olan dil səriştələrinin inkişaf etdirilməsidir.

Dərsliyin məzmunu Avropa Dilləri üzrə Ümumi Çərçivə Proqramının (CEFR) A1 səviyyəsi üzrə deskriptorlarına, eləcə də Dövlət İmtahan Mərkəzinin (DİM) Azərbaycan dilinin xarici dil kimi tədrisi proqramına uyğun şəkildə qurulub. Bu isə vəsaitin həm beynəlxalq standartlara, həm də milli normativ tələblərə cavab verdiyini təsdiqləyir.

Təqdim olunan dərslik belaruslu tələbələr üçün hazırlanan ilk yeni Azərbaycan dili dərsliyi kimi bir sıra xüsusiyyətləri ilə fərqlənir. Dərsliyin strukturu sistemli və ardıcıldır. Tədris materialı ayrı-ayrı dərslər üzrə tərtib olunub, mövzuların təqdimatında sadədən mürəkkəbə doğru inkişaf prinsipi əsas götürülüb.

Vəsaitdə təqdimolunan leksik və qrammatik materiallar gündəlik həyat situasiyalarını əhatə edir və real ünsiyyət ehtiyaclarına cavab verir.

Dərslikdə dinləyib-anlama, danışma, oxu və yazı bacarıqlarının inkişafına yönəlmiş tapşırıqlar balanslı şəkildə təqdim olunub. Dinləmə materialları şifahi nitqin qavranılmasını gücləndirir, danışıq tapşırıqları fəal ünsiyyəti təşviq edir, oxu və yazı çalışmaları isə dil materialının möhkəmləndirilməsinə xidmət edir.

Linqvistik mətnlərlə yanaşı, ekstralinqvistik materiallardan da məqsədyönlü şəkildə istifadə olunub. Mədəni, sosial və gündəlik həyatla bağlı məlumatların dil materialı ilə uzlaşdırılması öyrənənlərin Azərbaycan dilini mədəni kontekst daxilində qavramasına imkan yaradır.

Dərsliyin sonunda təqdim olunan tərcümə lüğəti vəsaitin elmi-metodik və praktik əhəmiyyətini artırır, öyrənənlərin müstəqil işini asanlaşdırır və leksik vahidlərin daha effektiv mənimsənilməsini təmin edir.




Dərslikdə yer alan şəkil və illüstrasiyalar Azərbaycan dilinin praktik şəkildə öyrənilməsi baxımından mühüm didaktik əhəmiyyət daşıyır.

Yeni dərslik Azərbaycan dilinin xarici dil kimi tədrisinin genişləndirilməsi və beynəlxalq təhsil mühitində bu dilin mövqeyinin möhkəmləndirilməsi baxımından da əhəmiyyətlidir.

# Qaliblər müəyyənləşib

**Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin dəstəyi ilə həyata keçirilən "ConstructionTech Incubation" layihəsi çərçivəsində inkubasiya proqramı başa çatıb və qaliblər müəyyənləşdirilib.**

Bu barədə AZƏRTAC-a AzMİU-dan məlumat verilib. Bildirilib ki, layihənin əsas məqsədi tikinti və inşaat sahəsində innovativ startap təşəbbüslərinin inkişafını təşviq etmək, gənclərin rəqəmsal bacarıqlarını gücləndirmək və yeni texnoloji həllərin formalaşmasına dəstək verməkdir. Proqram çərçivəsində iştirakçılar üçün təlimlər, mentorluq görüşləri və ustad dərsləri təşkil olunub.

AzMİU rəhbərliyinin nümayəndələri çıxışlarında layihənin ölkədə innovasiya ekosisteminin formalaşmasına töhfə verdiyini, universitetdə innovasiyayönümlü təhsil mühitinin yaradılmasının prioritet istiqamətlərdən biri olduğunu vurğulayıblar. Qeyd olunub ki, proqram iştirakçılarının əldə etdiyi bilik və təcrübə onların gələcək peşəkar fəaliyyətində mühüm rol oynayacaq.

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin nümayəndəsi layihənin uğurla icra edildiyini, iştirakçıların fəallığının və marağının yüksək səviyyədə olduğunu bildirib və belə təşəbbüslərin davamlılığının vacibliyini qeyd edib.

Məlumata görə, inkubasiya proqramına ümumilikdə 18 komanda müraciət edib, onlardan 11-i seçilərək proqrama cəlb olunub. İnkubasiya dövründə 10 təlimçi tərəfindən 20 təlim keçirilib, 12 mentor və 5 ekspertin iştirakı ilə ustad dərsləri təşkil olunub. Seçim meyarlarına əsasən, 6 startap komandası final mərhələsinə yüksəlib.

Final günü münsiflər heyətinin qiymətləndirməsi nəticəsində 3 startap komandası qalib elan olunub. Birinci yerə "Contheron" komandası layiq görülərək 5500 manat mükafat qazanıb. İkinci yerin qalibi "İnvictus" komandası 4000 manat, üçüncü yerin sahibi olan "Groove" komandası isə 3000 manat mükafat əldə edib.





# Mədəniyyət





● Muzeylərimiz

# Tarixi keçmişimizi özündə yaşadan məkan

**Muzeylər hamımız üçün tariximizi, ulu keçmişimizi özündə yaşadan və qoruyub gələcəyə çatdıran əvəzolunmaz bir məkandır. Tariximizi öyrənməyə maraq göstərən insanlar tez-tez bu ünvanlara üz tuturlar. Aparılan müşahidə və keçirilən sorğular onu göstərir ki, insanların muzeylərə baxmaq maraqları heç vaxt azalmır, əksinə, zaman getdikcə daha da artır. Çünki bu doğma məkanlarda nümayiş etdirilən eksponatlar, əşyalar baxanları bir anlıq da olsa, ötən əsrlərə, yaşanmış illərə aparıb çıxarır. İnsanlar muzeylərə baxarkən bir anlıq ulu keçmişimizə səyahət edirlər. Onlar muzeylərə etdikləri bu ziyarətlərdən mənəvi zövq alırlar.**







Tariximizin səhifələrini daha da dərindən öyrənmək üçün Quba Tarix-Diyarşünaslıq Muzeyini ziyarət etdik. Bu muzey gözəl bir məkanda, Nizami Gəncəvi adına parkın yaxınlığında yerləşir. Onun geniş qapıları parka açılır. Parka gəzməyə gələn rayon sakinləri və qonaqlar muzeyə də üz tuturlar.

Muzeyə daxil olan kimi bu məkanda çalışan bələdçilər bizi gülərüzlə qarşılayırlar. Onlar muzeyin yaranması haqqında ətraflı məlumat verdilər. Öyrəndik ki, muzeyin əsası ziyalı və din xadimi Əhməd Əfəndi Çələbizadə tərəfindən qoyulub. Dövrünün tanınmış ziyalısı olan Ə.Çələbizadə mədrəsədə dərs deyirmiş. O, 1924-cü ildə böyük əziyyətlər bahasına elə dərs dediyi təhsil ocağında muzey yaratmışdır. Bu məkana Azərbaycan tarixinə aid materiallar toplamışdır. Verilən məlumatlara görə, toplanmış eksponatların əksəriyyəti də elə Əhməd Çələbizadənin özünə məxsus olmuşdur. Əhməd Əfəndi topladığı materialların muzey yaratmaq üçün azlıq təşkil etdiyini görərək daha çox eksponatlar əldə etmək məqsədilə həm idarə və təşkilatlara, həm də ayrı-ayrı şəxslərə müraciət ünvanlamışdır.

Onun müraciəti xeyirxah, həvəskar insanlar tərəfindən rəğbət və hörmətlə qarşılanmışdır. Qısa müddət ərzində muzeyə tariximizin dünənindən xəbər verən dəyərli əşyalar toplamaq mümkün olmuşdur. Bu əşyaların sırasında qədim əlyazmalar, kitablar, xalça və xalça məmulatları, xalq tətbiqi sənəti nümunələri, zərgərlik məmulatları da olub. Beləcə, zaman keçdikcə muzey yeni eksponatlarla zənginləşib, daha maraqlı, daha baxımlı olub.

İllər sonra isə rayonda muzey yaradılması istiqamətində müəyyən uğurlu addımlar atılmışdır. 1932-ci ilin avqustunda Quba Rayon İcraiyyə Komitəsinin iclasında muzeyin yaradılmasına böyük təkan verilmişdir. "Quba şəhərində muzeyin təşkili barədə" xüsusi məsələ müzakirəyə çıxarılmışdır. İclasda bu işin təşkili məqsədilə bacarıqlı mütəxəssislər tərəfindən hazırlanmış tezis və plan-layihəyə baxılmışdır. Təqdim olunan sənədlərdə muzeyin ekspozisiyasının təşkili ilə bağlı tövsiyələr də öz əksini tapmışdır.

Muzeyin yaradılması istiqamətində atılan addımlar üç ildən sonra müsbət nəticələr vermişdir. Xalq Maarif Komissarlığının 14 may 1935-ci il tarixli əmri ilə bu xeyirxah işin bünövrəsini qoymuş Əhməd Çələbizadə Quba Tarix Muzeyinə rəhbər təyin olunmuşdur. Bu vəzifədə fəaliyyətə başlayandan sonra Ə.Çələbizadə muzeyə yeni eksponatların toplanması üçün xeyli iş görmüşdür. Amma çox təəssüflər olsun ki, 1937-ci ildə bu görkəmli ziyalı repressiya qurbanı olmuşdur. Bundan sonra muzey fəaliyyətini müvəqqəti olaraq dayandırmışdır. Nəhayət, 1944-cü ilin avqust ayında muzey yenidən görkəmli alim və mütəfəkkir, şair Abbasqulu ağa Bakıxanovun bir zamanlar yaşadığı evində yenidən fəaliyyətə başlamışdır.

2012-ci ildə bu müqəddəs məkanın tarixində işıqlı bir səhifə açılmışdır. Həmin il Prezident İlham Əliyevin göstərişinə əsasən, qədim tarixə və böyük turizm potensialına malik olan Quba rayonunda müasir tələblərə cavab verən muzey binasının inşasına başlanmışdır. 2014-cü ildə binanın inşası yekunlaşmışdır. 2 may 2015-ci ildə isə muzeyin açılışı olmuş və ziyarətçilərin ixtiyarına verilmişdir. Bu gün həm şəhər sakinləri, həm də qonaqlar bölgənin tarixi keçmişini öyrənmək üçün rahat şəkildə buranı ziyarət edirlər.

Söhbət zamanı bələdçilər onu da bildirdilər ki, muzeyin əsas və köməkçi fondunda 10 mindən çox eksponat var. Ziyarətə gələnlər bu eksponatlara böyük maraqla tamaşa edirlər. Muzeydə Qubanın təbiətini, müxtəlif ov səhnələrini, ibtidai insanların məişət şəraitini əks etdirən əşyalar elə ilk dəqiqədən diqqəti özünə cəlb edir. Bu əşyalar tamaşaçını xəyalən ötən illərə, əsrlərə aparır. Qədim Qubanın, Musa peyğəmbər və Həzrət baba rəvayətinin təsvirləri, Ağbil türbəsinin maketi, arxeoloji qazıntılar zamanı tapılan saxsı əşyalar, qədim silah növləri və başqaları ən çox maraqla baxılan eksponatlardandır.

Muzeyin bir zalından digərinə keçəndə sanki bir neçə əsr geri dönürük, gördüyümüz əşyalara tamaşa etdikcə onların düzəldildiyi və işlədildiyi ulu keçmişimizə boylanırıq. Muzeydə diqqət çəkməyən, maraq doğurmayan bir ədəd də olsun eksponat yoxdur. Ona görə də buradakı bütün əşyaların qarşısında ayaq saxlayıb düşünməyə məcbursan. Üstündən illər, əsrlər keçsə də, qədim insanların düzəltdikləri silahlar, alətlər ziyarətçilərdə böyük maraq oyadır. Xan divanının təsvirinə, Fətəli xanın portretinə, qədim silah növlərinə, Orta əsrlərə aid döyüşçü geyimlərinə diqqətlə baxmadan yanından keçib getmək mümkün deyil. Həm Fətəli xanın, həm də A.A.Bakıxanovun şərəfinə toxunmuş xalçalar da görənləri heyran edir. XVIII-XIX əsrlərdə yaşayış tərzi, XIX əsr qadın geyimləri, Quba xalq sənətkarlığı nümunələri olan dulusçuluq, misgərlik, xalçaçılıq və başqa sənət növləri ulu keçmişimizdən xəbər verir.

1937-ci ilin repressiya qurbanlarına həsr olunmuş guşə isə insanları daha çox təsirləndirir. Həmin tuthatut zamanlarında repressiya dalğası qubalı ziyalılarını da öz ağuşuna almışdır. Qubalı ziyalılar, müharibə veteranları bölməsi, ilk qubalı ziyalı qadınlar haqqında məlumatlar da olduqca diqqətçəkəndir. Bələdçinin 100 il əmək fəaliyyəti olan xalçaçısı Zibeydə Şeydayeva haqqında verdikləri məlumatları böyük maraq doğurur. Quba xalçalarının nümayişi, qadın geyimləri, gümüşdən, misdən hazırlanmış bəzək və məişət əşyaları tariximizin qədimliyini göstərir.

Gözəl və rahat bir məkanda yerləşən Quba Tarix-Diyarşünaslıq Muzeyini ziyarətimiz xeyli davam etdi. Muzeydə olduğumuz anlar həm maraqlı, həm də səmərəli keçdi. Bu müddət ərzində sanki dünənimizə, tarixi keçmişimizə səyahət etdik, biliklərimizi daha da zənginləşdirdik. Bu ziyarətimiz yaddaşımızdan heç vaxt silinməyəcək bir səhifə açdı.

Muzeydən xoş təəssüratlarla çıxanda yeni ziyarətçilərin içəri daxil olduqlarını gördük. Onların arasında gənclər çoxluq təşkil edirdi. Deməli, gənc nəslin tariximizi öyrənməyə marağı böyükdür. Bu əminlik yaradır ki, keçmişimizi dərindən öyrənən gənclərimiz elmli, bilikli olacaq, gələcəkdə dövlətçiliyimizin daha da möhkəmlənməsi və güclənməsi işində böyük uğurlar qazanacaqlar.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

● Səhnə xadimləri

# Opera tariximizdə xüsusi yer tutan sənətkar



**O, Azərbaycan opera sənəti tarixində xüsusi yeri olan sənətkarlardandır. Opera səhnəsində bir sıra qadın rollarının ilk və əvəzsiz ifaçısı kimi tanınan Əhməd Ağdamskinin adı həm də cəmiyyətin qadağlarından, hədə-qorxulardan, təhdidlərdən çəkinmədən, həyatını təhlükə qarşısında qoyaraq səhnəyə çıxan cəsarətli sənətkar kimi xatırlanır.**

Şuşada 1884-cü ilin 5 yanvarında dünyaya gələn Əhməd bəy Bədəlbəyov musiqiyə, teatr sənətinə, ədəbiyyata bağlı olan, ziyalı bir ailənin övladı idi. Musiqiyə, teatra kiçik yaşlarından yaranan marağı onunla birlikdə böyüyüb, püxtələşib. Əhməd bəy teatr həvəskarları dərnəyində, xalq mərasim tamaşalarında fəal iştirak etməyə başlayıb.

1908-ci il yanvarın 25-i Azərbaycan mədəniyyət tarixinə qızıl hərflərlə yazılıb. Gənc bəstəkar Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun" operası Tağıyev teatrının səhnəsində ilk dəfə tamaşaçılara təqdim olunub. Bu hadisə təkcə Azərbaycanın deyil, bütün Şərqin opera sənətində yeni bir dövrün başlanğıcına çevrilib. Tamaşadan sonra alqış səsləri uzun müddət qulaqlardan getməyib. Dövrün mətbu orqanları bu möhtəşəm yenilikdən heyranlıqla yazıblar. Lakin çoxları bilməyib ki, yaradıcı heyət müşkülə düşüb...

Tamaşanın təşkilatçılarının problemləri çox olsa da, ən böyük çətinlikləri Leyli rolunun ifaçısı ilə bağlı idi. Çünki hətta kişilərin belə aktyor olması cəmiyyət tərəfindən qəbul edilmədiyi bir dövrdə qadınların səhnəyə çıxması mümkünsüz sayılırdı. Odur ki, Üzeyir bəy Hacıbəyli "Leyli və Məcnun" operasının ilk tamaşasında çıxış yolu tapmışdı. O, çayxanada səsi ilə diqqətini çəkən gənc çayçı şagirdi Əbdürrəhman Fərəcovun bu rolun öhdəsindən gələcəyinə əmin idi.

Əbdürrəhman Fərəcovu dilə tutub yalvar-yaxarla qadın geyimində səhnəyə çıxmağa razı salıblar. Amma tamaşanın böyük uğur qazanması da çayçı şagirdini fikrindən daşındıra bilməyib. O, bir daha qadın rolunda çıxış etməyəcəyini söyləyib. Buna görə də "Leyli və Məcnun" operasına yenidən Leyli tapmaq məcburiyyətində qalıblar. Onda Üzeyir bəy Hacıbəyli ümidini xalası oğlu, məlahətli səsə malik Əhməd bəy Bədəlbəyova bağlayıb.

Realni məktəbdə təhsil alan Əhməd bəyə vəziyyəti izah edən Üzeyir bəy, nəhayət, onun razılığını alıb. Həmin dövrdə tələbələrin teatrda oynamaları bir yana, axşam tamaşalarına baxması üçün də xüsusi icazə olmalı idi. Belə bir icazəni almağa nail olublar.

Gələcəkdə müəllim olmağı arzulayan, lakin teatra böyük sevgisi olan gənc Əhməd bəy Bədəlbəyli xalası oğlu Üzeyir bəyə opera səhnəsində Leyli rolunu ifa etməyə söz verəndə heç ağlına da gəlməyib ki, bu qərarı ilə həyatında yeni bir yol başlayacaq və o, Azərbaycan opera tarixində silinməz izlər qoyacaq.

Bildiyi o idi ki, səhnədə qadın rolları oynamağa razılıq verməklə özünü müşkülə salır, çünki səhnəyə çıxanlara düşmən nəzərləri ilə baxanlar, tənələr, təhqirlər yağdıranlar onu da rahat buraxmayacaqlardı.

Tələbə Əhməd bəy Bədəlbəyli teatr həvəskarı idi. O, musiqi təhsili almamışdı. Ancaq tez-tez musiqi məclislərində iştirak etmişdi. Musiqin, o cümlədən muğamı gözəl bilirdi. Könülləri ovsunlayan məlahətli səsi vardı. Odur ki, "Leyli və Məcnun"nu onun iştirakı ilə tamaşaya hazırlayanlar heç bir çətinliklə üzləşməyiblər.

Əhməd bəy tanınmamaq üçün afişalarda adını "Miri" kimi yazdıraraq Leyli rolunu ifa etməyə başladı. Ancaq ayıq-sayıq tamaşaçılardan Leyli rolunun ifaçısının kimliyini gizlətmək mümkün deyildi. Əhməd bəy bütün maneələrə rəğmən səhnədən üz döndərmədi. Təhlükələr, təzyiqlər və tənələr onu yolundan döndərə bilmədi.

Beləliklə, Əhməd bəy Bədəlbəyov "Ağdamski" səhnə təxəllüsünü götürüb. O, Ağdamski kimi tanınaraq məşhurlaşıb.

1910-cu ildə Əhməd bəy "Nicat" Xeyriyyə Cəmiyyətinin teatr truppasında fəaliyyət göstərib. Hüseynqulu Sarabski, Hüseyn Ərəblinski, Mirzəağa Əliyev, Hüseynağa Hacıbababəyov və digər sənət fədailəri ilə yalnız əməkdaşlıq deyil, eyni zamanda dostluq edib.

Əhməd Ağdamskinin yaratdığı Leyli obrazı tamaşaçıların yaddaşına əbədi həkk olunub. Sonralar səhnədə ifa etdiyi digər rollar da - "Əsli və Kərəm"də Əsli, "Arşın mal alan"da Gülçöhrə, "O olmasın, bu olsun"da Gülnaz, "Ər və arvad"da Minnət, "Rüstəm və Söhrab"da Təhminə, "Şah Abbas və Xurşudbanu"da kəndli qızı və başqa qadın rolları da onun aktyorluq istedadını nümayiş etdirib.

O dövrün mətbuatı Əhməd Ağdamskinin aktyorluq məharətindən heyranlıqla bəhs ediblər. "Kaspi" qəzeti 1915-ci idə 116-cı sayında onun səsinin gözəlliyini və səhnə mədəniyyətini xüsusi vurğulayıb: "Bu gecə Leyli rolunda çıxan Ağdamski öz istedadının ən yüksək mərhələsində idi. Artistin səsi əla idi. Tamaşaçılar onu arası kəsilmədən alqışlayırdılar". Bu qəzetin 1916-cı il 22 dekabr tarixli sayında isə qeyd olunurdu: "Leyli rolunda ölüm səhnəsini xüsusi ilhamla oynayan Ağdamski Sarabskiyə çox gözəl tərəf-müqabil idi".

O, on iki il səhnəyə qadın qiyafəsində çıxıb. Aktyor 1922-ci ilədək Üzeyir bəy Hacıbəylinin yazdığı bütün opera və operettalarda qadın rollarını böyük məharətlə ifa edib.

Azərbaycan opera və musiqili komediya teatrının səhnələrində qadın rollarının ilk və əvəzolunmaz ifaçısı Əhməd Ağdamskinin təəssüf ki, səsi lent yazılarına köçürülmədiyindən bu günümüzə gəlib çatmayıb. Deyilənlərə görə, ötən əsrin əvvəllərində o, səsini vala yazdırıb. Həmin vaxtlar ermənilər azərbaycanlılara qarşı münaqişəyə başlayıb. Ara qarışıb. Əhməd Ağdamskinin valın hazırlanıb-hazırlanmamasından xəbəri olmayıb. Əhməd bəy sonralar səsini yazdırmağa təşəbbüs göstərməyib. Onun geniş diapazonlu tenor səsə malik olduğu, "Kürdü-Şahnaz", "Rast", "Bayatı-Şiraz", "Şur", "Bayatı-Kürd" və sairə kimi çətin oxunan muğamları, Gülçöhrənin, Şahsənəmin ariyalarını necə məharətlə ifa etdiyi danışılan xatirələrdən və yazılanlardan bəllidir.

1919-cu ildə Əhməd Ağdamski "Əsli və Kərəm" tamaşasında ilk dəfə Kərəm rolunda səhnəyə çıxıb.

1920-ci illərin əvvəllərində Əhməd bəy Qarabağa qayıdaraq Ağdamda yaşamağa başlayıb. 1923-cü ildə orada teatr truppası yaradıb, bir sıra tamaşaların rejissoru olub, musiqili, eləcə də dram əsərlərində müğənni-aktyor kimi iştirak edib. Sonralar daha çox tara meyil salıb.

Əhməd Ağdamski 1934-cü ildə Ağdaşa köçüb. Orada gələcəyin kaman ustası Habil Əliyevin ata evində kirayənişin olub.

O, Ağdaşa getdiyi gündən rayon ziyalıları arasında böyük hörmət qazanıb, el məclislərində yaxından iştirak edib. Əhməd bəy ömrünün sonunadək pedaqoji fəaliyyət göstərib. Ağdaş rayonunun musiqi məktəbində tar dərsi keçib.

Əhməd Ağdamski 1943-cü ildə Əməkdar incəsənət xadimi fəxri adına layiq görülüb. 1954-cü il aprelin 1-də dünyasını dəyişib.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Azərbaycan ənənəsi qorunur

**Ermənistanla sərhəddə yerləşən Türkiyənin İğdır vilayətinin qubernatorluğu "İrəvan kilimi" texnikası üzrə mütəxəssislərin hazırlanması məqsədilə xalçaçılıq kurslarının açılması təşəbbüsünü dəstəkləyib.**

"Qərbi Azərbaycana Qayıdış" Cəmiyyətinin İğdır üzrə nümayəndəsi Sərdar İğdır AZƏRTAC-a bildirib ki, layihə Azərbaycan xalçaçılığının ən qədim istiqamətlərindən birinin qorunub saxlanılmasına yönəlib.

Onun sözlərinə görə, 1993-cü ildən İğdırda fəaliyyət göstərən emalatxanada əvvəllər Qarabağ xalçaçılıq məktəbinə aid kilimlər, həmçinin Anadolunun müxtəlif bölgələrindən olan ustaların motivləri əsasında kilimlər və Osmanlı dövrünə aid xalçalar toxunub.

Emalatxananın müəllimi Sakina Cander bildirib ki, "İrəvan kilimi" texnikası ötən əsrin 1920-ci illərində ermənilər tərəfindən İğdıra qovulmuş azərbaycanlıların xatirəsinə ehtiramın ifadəsidir.

"Bir çoxları İrəvandan və digər bölgələrdən kilimləri özü ilə gətirmişdi. Biz bu motivləri qoruyub saxladıq və onları yenidən canlandırmağa başladıq. Bundan sonra emalatxanada İrəvan xanlığının ənənələri əsasında kilimlər də hazırlanacaq", - deyə o vurğulayıb.



S.Canderin sözlərinə görə, emalatxanaya gələn qadınlar yeni bir sənətə yiyələnirlər ki, bu da onların ailələri üçün mühüm gəlir mənbəyidir. Hazırda İğdır qubernatorluğunun nəzdində fəaliyyət göstərən xalçaçılıq emalatxanasında 30 qadın çalışır ki, bu da aylıq ümumi sahəsi 50 kvadratmetrə qədər olan kilim və xalçaların hazırlanmasına imkan verir.

# Dövlət proqramının 2026/2027-ci tədris ili üzrə əhatə etdiyi universitet və proqramların siyahısı təsdiqlənib

**Ölkə Prezidentinin müvafiq sərəncamına əsasən təsdiq olunmuş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində 2026/2027-ci tədris ilində dünyanın nüfuzlu universitetlərinin bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə maliyyələşdiriləcək təhsil proqramlarının siyahısı müəyyən edilib.**

Elm və Təhsil Nazirliyindən AZƏRTAC-a bildirilib ki, təsdiq olunmuş yeni siyahıya əsasən, namizədlərə 15 prioritet ixtisas istiqaməti üzrə dünyanın 33 ölkəsinin 231 nüfuzlu ali məktəbində tədris olunan ümumilikdə 4121 proqram üzrə təhsil almaq imkanı yaradılıb.




Dövlət proqramı üzrə illik kvota 500 nəfər təşkil edir. Bu kvota çərçivəsində rəqabət mühitinin tənzimlənməsi məqsədilə müraciət sayından asılı olaraq prioritet ixtisas istiqamətləri üzrə keçid balları tətbiq edilə bilər.

Dövlət proqramının 15 prioritet ixtisas sahəsi ilə yanaşı, mədəniyyət və incəsənət sahəsi üzrə də bu il imkanlar genişləndirilib. Belə ki, ötən illə müqayisədə bu istiqamət üzrə siyahıya daxil edilən nüfuzlu ali təhsil müəssisələrinin sayı artırılıb.

Beynəlxalq reytinq sistemlərində ilk onluqda yer alan ali təhsil müəssisələrinə və doktorantura səviyyəsinə münasibətdə dəyişikliklər mövcuddur. Həmin dəyişikliklərlə tanış olmaq üçün siyahının üzərindəki qeydlərə diqqət etməyinizi xahiş edirik.

# "Neft bumu hamıya gülümsəyir" tamaşasının məşqləri yekunlaşır

**Azərbaycan Milli Gənc Tamaşaçılar Teatrında hazırlanan Xalq yazıçısı Maqsud İbrahimbəyovun "Neft bumu hamıya gülümsəyir" pyesi əsasında eyniadlı yeni tamaşanın məşqləri yekunlaşmaq üzrədir.**

Tamaşa yazıçının yaradıcılıq irsinə həsr olunmuş, 2025-ci ilin noyabrından 2026-cı ilin fevralınadək davam edən və Heydər Əliyev Fondunun dəstəyi ilə keçirilən "Neft bumu hamıya gülümsəyir" festivalı çərçivəsində təqdim olunur.

Teatrın mətbuat katibi Samirə Əşrəfin sözlərinə görə, yeni tamaşanın premyerası cari il yanvarın 30-da reallaşacaq.



"Tamaşanın quruluşçu rejissoru Konstantin Soldatov, quruluşçu rəssamı Çingiz Babayev, xoreoqrafı Nigar İbrahimbəyli, səs dizaynı Konstantin Soldatov, Platon Soldatov, rejissoru Şövqi Hüseynovdur. Səhnə əsərində Əməkdar artistlər Şövqi Hüseynov, Elnur Hüseynov, aktyorlar Bəhram Həsənov, Asya Atakişiyeva, Kərəm Hadızadə, Səbinə Məmmədzadə, Nurlan Süleymanlı, Manaf Dadaşov, Şəbnəm Hüseynova, Rəşad Səfərov, Rasim Cəfər, Ümman Budaqov, Mirzəağa Mirzəyev, Ramiq Nəsirov, Ədalət Əbdülsəməd, Hüseyn Bayramov, Mehriban Hüseynova iştirak edirlər", - deyə mətbuat katibi əlavə edib.

BEYNƏLXALQ HƏYAT

# Donald Tramp Kubanı hədələdi: "Nə qədər gec deyil, razılaşma əldə edin!"

**ABŞ Prezidenti Donald Tramp sosial media hesabı vasitəsilə Kubanı dərhal "razılaşmasa", ağır nəticələrlə hədələyib və Nikolas Maduronun həbsindən sonra Kubaya Venesueladan pul və neft axınının dayanacağını bildirib.**

"Kuba illərdir Venesueladan daxil olan külli miqdarda neft və pullar hesabına yaşayır. Bunun müqabilində Kuba son iki Venesuela diktatoruna "təhlükəsizlik xidmətləri" göstərib. Amma bu, artıq baş verməyəcək! Kubaya bundan sonra neft və ya pul getməyəcək - sıfır! Mən onlara nə qədər gec deyil, razılaşma əldə etməyi tövsiyə edirəm", - D.Tramp sosial media hesabı "TruthSocial"da yazıb. Amma ABŞ lideri hansı razılaşmadan danışdığını və ya Kuba üçün mümkün fəsadların nə ola biləcəyini dəqiqləşdirməyib. Ekspertlərin fikrincə, Venesuela müttəfiqi Kubaya gündə təxminən 35000 barel (təxminən 4800 ton) neft tədarük edir.

Məlum olduğu kimi, yanvarın 3-də Karakasda həyata keçirilən əməliyyat zamanı Venesuela lideri Nikolas Maduro yaxalanaraq ABŞ-yə gətirilib və yanvarın 5-də Nyu York məhkəməsində narkotik qaçaqmalçılığında ittiham olunub. D.Tramp bu əməliyyatı tvitində xatırladaraq, N.Maduronu qoruyan kubalıların əksəriyyətinin öldürüldüyünü və Venesuelanın artıq onların xidmətlərinə ehtiyacı olmadığını yazıb. Prezident bildirib ki, "Venesuelanın indi onu qorumaq üçün dünyanın ən güclü ordusu olan Amerika Birləşmiş Ştatları var".



Kuba hakimiyyəti bildirib ki, əməliyyat zamanı 32 kubalı öldürülüb. Prezident Migel Dias-Kanel bildirib ki, "bu 32 cəsur kubalı döyüşçü imperiya formasında terrorçularla" döyüşdə həlak olub.

ABŞ Prezident Administrasiyası hələlik Kuba ilə bağlı hər hansı konkret plan açıqlamayıb. D.Tramp özü Kubaya müdaxiləyə ehtiyac olmadığını bildirib, çünki oradakı hökumətin artıq "dağılmağa hazır" olduğuna inanır. Kubalı mühacirlərin oğlu, ABŞ Dövlət katibi Marko Rubio isə bildirib ki, əgər Kuba rəhbərliyinin yerində olsaydı, Havana bir çox problemlərlə üzləşdiyindən narahatlıq hissi keçirərdi. Kubadan gələn məlumatlara görə, ABŞ-nin Venesuelaya gələn və Venesueladan gedən tankerləri ələ keçirməsi artıq adada yanacaq və elektrik enerjisi çatışmazlığına səbəb olub.

N.Maduronun tutulmasından sonra Tramp bir sıra digər Latın Amerikası ölkələri haqqında da çoxsaylı açıqlamalar verib. Məsələn o, Kolumbiyanın ilk solçu Prezidenti Qustavo Petroya "öz dərisinin qayğısına qalmağı" məsləhət görüb və Kolumbiyada hərbi əməliyyatla bağlı müzakirələrdə müsbət rəy verib. Oktyabr ayında ABŞ Q.Petroya qarşı şəxsi sanksiyalar tətbiq edərək onu öz hakimiyyəti dövründə narkotik kartellərinin çiçəklənməsinə icazə verməkdə ittiham edib.

Meksikaya gəldikdə isə, D.Tramp narkotiklərin ABŞ-yə axdığını və ABŞ-nin "bununla əlaqədar bir şey etməli olduğunu" vurğulayıb. O, həmçinin kartellərə qarşı müharibədə yerli hakimiyyət orqanlarına kömək etmək üçün Meksikaya Amerika qoşunlarının göndərilməsini təklif edib. Lakin Meksika prezidenti Klaudiya Şeynbaum bu təklifləri qəbul etməyib.

Xatırladaq ki, Vaşinqton 1959-cu ildə Fidel Kastro və onun partizan yoldaşları ABŞ-yə dost prezident Fulhensio Batistanı devirdikdən və sonradan SSRİ ilə sıx münasibətlər qurduqdan bəri Kuba ilə düşmən münasibətləri saxlayır. Əvvəlki ABŞ prezidentləri, xüsusən də Barak Obama Kuba ilə münasibətləri normallaşdırmaq üçün bəzi addımlar atsalar da, D.Tramp bu qərarların çoxunu ləğv edib. İkinci müddətinin başlamasından sonra D.Tramp yenidən Kubanı rəsmi olaraq terrorizmi dəstəkləyən dövlət təyin edib. Halbuki gedən Prezident Co Bayden bundan bir neçə gün əvvəl bu ittihamı Kubanın üzərindən götürmüşdü.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

# Venesueladakı hadisələr qlobal neft qiymətlərinə necə təsir edəcək?

**Venesuela dünyada ən böyük təsdiq edilmiş neft ehtiyatlarına malik ölkədir və neft ixracı onun iqtisadiyyatının mərkəzində yer alır. Ona görə bu ölkədə baş verənlər qlobal enerji bazarlarında böyük rezonans doğurub. Yaranmış vəziyyət neft qiymətləri üzərindəki potensial təsirləri baxımından həm qısa, həm də orta müddətli perspektivdə maliyyə və strateji təhlilçilərin diqqət mərkəzindədir.**



İqtisadçı-ekspert Eldəniz Əmirov "Azərbaycan" qəzetinə mövzu ilə bağlı açıqlama verib. Onun sözlərinə görə, hazırda dünyada baş verən proseslər qlobal iqtisadiyyata daha sürətli təsir göstərməyə başlayıb. Bunun əsas səbəbi isə hadisələrin qlobal iqtisadiyyatın əsas tərəfləri arasında cərəyan etməsidir. Venesuelada baş verən proseslər də dünya iqtisadiyyatı üçün müəyyən suallar doğurur.

Ekspertin fikrincə, hazırkı geosiyasi proseslər sadəcə lokal qarşıdurmalar çərçivəsində qiymətləndirilə bilməz. Söhbət birbaşa qlobal enerji balansına və maliyyə bazarlarının davranış modelinə təsir edə bilən hadisələrdən gedir. Xüsusilə enerji resursları üzərində nəzarətin siyasi alətə çevrildiyi indiki mərhələdə belə hərbi-siyasi addımlar neft qiymətlərinə təsir göstərə bilər. Eldəniz Əmirovun vurğuladığı kimi, Venesuela kimi enerji ixracatçısı olan ölkə ətrafında gərginliyin artması bazarlarda risk gözləntilərini yüksəldir. Bu isə investorların daha ehtiyatlı davranmasına, alternativ enerji marşrutları və tədarük mənbələrinin ön plana çıxmasına səbəb olur. Bu cür proseslər inkişaf etməkdə olan ölkələrin də iqtisadi sabitliyinə dolayı təsir göstərir. Mövcud vəziyyət onu göstərir ki, yaxın dövrdə enerji bazarlarında qiymət artımı ilə yanaşı, geosiyasi risklərin sığortalanması xərcləri də yüksələcək. Ekspertin fikrincə, dünya iqtisadiyyatı artıq sistem xarakterli təhdidlərə reaksiya verir və bu reaksiya əvvəlki dövrlərlə müqayisədə daha sürətli və kəskin olur.

E.Əmirov vurğulayıb ki, Venesuela qlobal neft ehtiyatlarının 17,2 faizinə sahibdir. "303 milyard bareldən artıq olan bu ehtiyatlar gələcəkdə təchizatın daha yüksək səviyyədə təmin olunmasına, bazarda neft təklifinin artmasına imkan yarada bilər. Bu isə perspektivdə neft qiymətləri üçün müəyyən risklər formalaşdırır. Bununla belə, Venesuela hazırda nefti böyük həcmdə hasil etmək üçün lazımi infrastruktura malik deyil. Neft quyularının istismar vəziyyəti qənaətbəxş deyil, ixrac boru kəmərləri yararsız durumdadır, emal müəssisələri isə cəmi 10 faiz güclə fəaliyyət göstərir. Bu səbəbdən 2026-cı ildə Venesuela neftinin qlobal bazarlara böyük həcmdə çıxarılması real görünmür", - deyə ekspert bildirib.

İqtisadçının qeyd etdiyi rəqəmlər göstərir ki, Venesuela neft üzrə dünyanın ən böyük "yatmış nəhəngidir". Lakin bu nəhəngin oyanması üçün təkcə ehtiyatlar kifayət deyil. İllərdir davam edən investisiya qıtlığı və texniki baxımsızlıq ölkənin neft sənayesini iflic edib. Emal müəssisələrinin zəif güclə işləməsi faktiki olaraq sənayenin sıfıra yaxın səmərəliliklə fəaliyyət göstərməsindən xəbər verir. Ona görə qısa zaman kəsiyində Venesuelanın texniki və siyasi maneələri aşaraq hasilatı kəskin artırması fiziki cəhətdən qeyri-mümkün görünür. Hazırkı vəziyyət göstərir ki, texnoloji gerilik və infrastruktur aşınması resurs zənginliyini üstələyir.

E.Əmirov əlavə edib ki, Venesuela nefti ucuz və ağır neft növünə aiddir. "Tərkibində kükürd və digər ağır maddələrin olması onun emalını çətinləşdirir, ixrac xərclərini artırır və əlavə maliyyə vəsaiti tələb edir. Nəticədə son məhsulun maya dəyəri yüksəlir. Əgər neft birbaşa emal olunarsa, bəzi hallarda 12-15 dollar, hətta 20 dollara qədər daha ucuz qiymətə satılmasına səbəb ola bilər" deyən ekspertin sözlərinə görə, Venesuela neftinin qiymətlərə ciddi fundamental təsir göstərəcəyini gözləmir.

O qeyd edib ki, hazırda qlobal bazarlarda qiymətlər əsasən mövcud vəziyyətə uyğun şəkildə formalaşır. Lakin psixoloji amillər və bazar iştirakçılarının davranışları nəticəsində Venesuela və İran ilə bağlı hadisələr qlobal neft qiymətlərinə müəyyən təsir göstərə bilər. Bu təsir isə fundamental xarakter daşımır.

E.Əmirovun toxunduğu kükürd və ağır maddə problemi göstərir ki, Venesuela nefti hər zavod üçün arzulanan xammal deyil. Yüksək emal xərcləri və qiymət fərqi bu neftin rəqabət gücünü zəiflədir. Yəni bazara çıxsa belə, onun ucuz və ağır olması gəlirliliyi minimuma endirir. Hazırda bazarda müşahidə olunan dalğalanmalar daha çox "davranış iqtisadiyyatı" ilə bağlıdır. Ekspert haqlı olaraq vurğulayır ki, faktiki hasilat artımı olmadan qiymətlərin kəskin düşəcəyini gözləmək sadəlövhlük olar. İran və Venesuela faktorları hələlik yalnız siyasi gündəmin mövzusudur, iqtisadi reallığın deyil. Venesuelanın nəhəng neft ehtiyatları kağız üzərində cəlbedici görünsə də, ekspertin qeyd etdiyi texnoloji və keyfiyyət çətinlikləri bu resursun qlobal bazara inteqrasiyasını ləngidir. Bazarlardakı mövcud qiymət hərəkətliliyi isə fundamental reallıqlardan çox, psixoloji gözləntilərə söykənir.

*Təhminə VERDİYEVA, "Azərbaycan"*

## BİLDİRİŞ

Bakı Kommersiya Məhkəməsində borclu "1ST Construction" Məhdud Məsuliyyətli Cəmiyyətinin *(VÖEN: 1400965871, hüquqi ünvanı Bakı şəhəri Nəsimi rayonu, Zərifə Əliyeva, ev 38, m. 24)* barəsində e-2-2(113)-8778/2025 nömrəli müflisləşmə işi üzrə məhkəmə baxışı iclası təyin edilmişdir.

Məhkəmə iclası **22 yanvar 2026-cı il tarixə, saat 10:55-ə** Bakı şəhəri, Bakıxanov qəsəbəsi, Oskar Əfəndiyev küçəsi, 8, Bakı Kommersiya Məhkəməsinin inzibati binasında, **5-ci zalda** keçiriləcəkdir.

İştirak etmək hüququ olan maraqlı şəxslər məhkəmə iclasına dəvət olunurlar.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti ASCO-nun struktur idarələrinə tələb olunan boyaların (illik tələbat üzrə) satın alınması məqsədilə açıq tender elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 16 yanvar 2026-cı il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.**

***Tender komissiyası***


## "Bank Respublika" ASC tərəfindən lombard müştəriləri arasında keçirilən "Qızıl Seçim" lotereyasının birinci tirajının qaliblərinin SİYAHISI

10 yanvar 2026-cı tarixində Bank Republikanın Baş ofisində 5 nəfərdən ibarət müstəqil komissiya üzvünün iştirakı ilə təsadüfi seçim əsasında "Qızıl Seçim" lombard lotereyasının ilk tirajının qalibləri müəyyən olundu.

İlk tiraj çərçivəsində 01 oktyabr - 31 dekabr 2025-ci il tarixlərində Bank Respublikada lombard krediti rəsmiləşdirmiş 10000-dən çox müştəri və onlara məxsus 110000-ə yaxın lotereya şansı qeydə alınıb.

"Qızıl Seçim" lombard lotereyasının 1-ci tirajının 20 qalibinin siyahısını təqdim edirik:

| № | Lombard müqaviləsinin nömrəsi | Qazanılan hədiyyə | Soyadı, ad və ata adının baş hərfləri | Müştəri kodu |
|---|---|---|---|---|
| 1 | LM 23291025-221298901 | BYD Destroyer avtomobili | Ə****** Ü****** M***** | 2**2**9 |
| 2 | LM 9301025-220572901 | 20 qr-lıq qızıl külçə | A******* R***** S***** | 2**5**9 |
| 3 | LM 11271125-156593903 | 20 qr-lıq qızıl külçə | Z******** L*** F***** | 1**5**9 |
| 4 | LM 39311025-221227501 | 10 qr-lıq qızıl külçə | C****** B**** Z******* | 2**2**5 |
| 5 | LM 21261225-150604801 | 10 qr-lıq qızıl külçə | Ə****** İ**** Ə**** | 1**6**8 |
| 6 | LM 37021225-161926401 | 10 qr-lıq qızıl külçə | M******* V***** D**** | 1**9**4 |
| 7 | LM 24171125-219224001 | 10 qr-lıq qızıl külçə | T******* N**** Ş******* | 2**2**0 |
| 8 | LM 3031025-220547001 | 10 qr-lıq qızıl külçə | H******** K**** A*** | 2**5**0 |
| 9 | LM 19131025-210027502 | 5 qr-lıq qızıl külçə | Ə********* N***** R***** | 2**0**5 |
| 10 | LM 5171025-220985806 | 5 qr-lıq qızıl külçə | Q****** A*** A*** | 2**9**8 |
| 11 | LM 28261225-222892701 | 5 qr-lıq qızıl külçə | B********** Ş**** C**** | 2**8**7 |
| 12 | LM 1031025-220579101 | 5 qr-lıq qızıl külçə | İ******** R**** E**** | 2**5**1 |
| 13 | LM 5221225-222725401 | 5 qr-lıq qızıl külçə | C******* T***** R***** | 2**7**4 |
| 14 | LM 39031125-119469601 | 5 qr-lıq qızıl külçə | Ə******* V*** İ*** | 1**4**6 |
| 15 | LM 43171125-154020501 | 5 qr-lıq qızıl külçə | R******* Z****** H******** | 1**0**5 |
| 16 | LM 23101225-173926902 | 5 qr-lıq qızıl külçə | Y******* H***** K******* | 1**9**9 |
| 17 | LM 43181225-222658201 | 5 qr-lıq qızıl külçə | R******* G***** S**** | 2**6**2 |
| 18 | LM 6131025-219207901 | 5 qr-lıq qızıl külçə | M******* X**** C******* | 2**2**9 |
| 19 | LM 25151025-110205202 | 5 qr-lıq qızıl külçə | T******* L****** M******* | 1**2**2 |
| 20 | LM 31091225-108368001 | 5 qr-lıq qızıl külçə | A********** A*** X****** | 1**3**0 |

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

## ALLAH RƏHMƏT ELƏSİN!

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Emin Seyfullayevə atası

**SEYFULLA SEYFULLAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"TuranBank" ASC-nin rəhbərliyi və kollektivi bankın Müşahidə Şurasının üzvü Məhəmməd Kələşova əzizi

**MÜBARİZ KƏLƏŞOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor Ədalət Muradov və universitetin kollektivi tanınmış alim, professor

**MUSTAFA İSLAM OĞLU QARAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Ümumiqtisad fakültəsinin 1984-cü il buraxılış, 932-ci qrupunun məzunları tanınmış alim, professor

**MUSTAFA İSLAM OĞLU QARAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3113
Sifariş 60

Qiyməti 60 qəpik